RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 220 (9675) 8 oktyabr 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





## İLHAM ƏLİYEV: "Ermənistan təhlükəli oyunlara qoşulub və İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmasın"

# Həqiqətlər və oyunbazlıqlar

Otuz il doğma yurd-yuvasından qovulan, bütün varidatı talanan, qaçqın şəhərciklərinin sakinlərinə çevrilərək məşəqqətli ömür sürmək məcburiyyətində qalan azərbaycanlı məcburi köçkünlərin harayına beynəlxalq qurum və təşkilatlar, ABŞ və Fransanın senator, konqresmen və siyasətçiləri çatdılarmı, hallarına yanaraq qayğılarına qaldılarmı?

YOX!

Avropa İttifaqı, Avropa Şurası azərbaycanlı məcburi köçkünlərin insan haqlarını təkid və inadla qorudumu?

YOX!

Ermənistan Azərbaycanın yaşayış məntəqələrini dağıdaraq viran qoyanda, təbii sərvətlərimizi talayanda, mədəni, dini, tarixi abidələrimizi yerlə yeksan edəndə bu əməlləri müzakirələrə çıxardılarmı, erməni vandallarını qınadılarmı, vəhşiliklərini pislədilərmi?

YOX!

1915-ci ildə guya baş vermiş "erməni soyqırımı"nı xatırladan, nəhayət, Bayden tərəfindən "soyqırımı" ifadəsi işlədilən ABŞ prezidentləri bircə dəfə Xocalı soyqırımını dillərinə gətirdilərmi?

YOX!

Özünü dünyada demokratiyanın və insan haqlarının qoruyucusu kimi aparan ABŞ, əslində, ikili standartların yaradıldığı və qorunduğu məkandır.

ABŞ Konqresi isə erməni diasporunun anti-Azərbaycan fəaliyyətinin mərkəzinə və ruhvericisinə çevrilib.

Ötən ay Konqresdə "Dağlıq Qarabağın süqutundan sonra Azərbaycanda insan haqları" adlı dinləmə keçirilmişdir.

Dinləmələrdə "Artsax" respublikasının ombudsmanı" adlı birisi - Geqam Stepanyan da iştirak etmişdir.

Görəsən, otuz il Qarabağdan zorakılıqla qovulan azərbaycanlıların pozulmuş hüquqlarını bir dəfə xatırlamayan ABŞ-nin konqresmenləri erməniəsilli, Ermənistan vətəndaşlığı pasportunu daşıyan hayların könüllü şəkildə Qarabağı tərk etmələrindən niyə belə dərin narahatlıq hissi keçirirlər?

Onların geri qaytarılması barədə ağzı köpüklənə-köpüklənə danışarkən niyə otuz il əvvəl zorakılıqla doğma torpaqlarından qovulan qərbi azərbaycanlıların da qaytarılması barədə bircə kəlmə belə söz demirlər?

Məgər insan haqları azərbaycanlılara şamil edilmir?

Əslində, Quantanamo həbsxanasını saxlayan dövlətin heç insan haqlarından danışmağa mənəvi haqqı yoxdur!

Ədalət seçmə qaydasında tətbiq olunmamalıdır!

Beynəlxalq hüquq insanların yalnız bir qisminə münasibətdə işlədilməməlidir!

İnsan hüquqlarının müdafiəsində ayrı-seçkiliyə yol verilməməlidir!

Bəs bu ögey-doğmalıq nədir?

Qərəzkarlıqdan, bədxahlıqdan, yoxsa düşmənçilikdən doğan münasibətdir?!

Yoxsa ikili standartların bütün sahələrə nüfuz etmiş əlamətləridir?

→ 3

◆ Azərbaycan Prezidenti İlham Əliyevin Rusiyaya səfəri

# Moskvanın Vnukovo-2 Beynəlxalq Hava Limanında qarşılanma



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev MDB Dövlət Başçıları Şurasının iclasında iştirak etmək üçün oktyabrın 7-də Rusiya Federasiyasına səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, Moskva şəhərinin Vnukovo-2 Beynəlxalq Hava Limanında Azərbaycan Prezidentini Rusiya xarici işlər nazirinin müavini Mixail Qaluzin və digər rəsmi şəxslər qarşılayıblar.

# Moskvada MDB dövlət və hökumət başçılarının qeyri-rəsmi naharı olub

Oktyabrın 7-də Moskvada MDB dövlət və hökumət başçılarının qeyri-rəsmi naharı olub. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

# Sabit və təhlükəsiz Azərbaycan

## Mürəkkəb qlobal gərginlikdə respublikamız sabitliyini və inkişafını uğurla təmin edir



Azərbaycanı bugünkü sabitliyə gətirən yollar heç də hamar olmayıb. Ötən əsrin 90-cı illərinin əvvəllərində respublikamızda cərəyan edən proseslər orta və yaşlı nəslin yaxşı xatirindədir. Həmin illərdə anarxiyanın, xaosun, separatizmin baş alıb getdiyi, hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi, idarəçilikdə buraxdıqları bağışlanmaz səhvlər şəraitində hansı sabitlikdən danışmaq olardı. Hansı ki, bunlar Azərbaycanın müstəqilliyi və dövlətçiliyi üçün böyük təhdidlər doğurmuşdu.

Yalnız Ulu Öndər Heydər Əliyevin xalqın istək və arzusu ilə siyasi hakimiyyətə gəlişindən sonra respublikamız bütün bu problemlərdən xilas oldu. Başlıcası, siyasi-ictimai sabitlik təmin edildi. Bunun üçün təhlükə doğuran zərərli meyillərə, qanunsuz silahlı birləşmələrə qarşı uğurlu və təxirəsalınmaz tədbirlər həyata keçirildi.

Azərbaycanın uğurları çoxdur. Ən böyük uğurlarından biri isə qeyd etdiyimiz kimi sabitlikdir. Sabitliyin təmin olunması qarşıda dayanan vəzifələrin yerinə yetirilməsində əsas amildir. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biri olaraq tanınmaqdadır. Bakının beynəlxalq tədbirlər mərkəzinə çevrilməsinin də əsas səbəblərindən biri məhz ölkəmizdəki möhkəm sabitlikdir. NATO və Rusiya hərbi komandanları arasında yüksəksəviyyəli görüşlərin keçirilməsi üçün Bakının seçilməsi də respublikamızdakı sabitliyə görədir.

→ 6

# Vaşinqtonun mövqeyi təcavüzkar niyyətlərə köklənib

Ötən dövr ərzində Vaşinqton Cənubi Qafqazda Azərbaycan və Ermənistan arasında münaqişənin davamlılığı üçün bütün imkanlarını səfərbər edib, beləliklə, bölgədə daim köməyinə ehtiyac duyulan subyekt olaraq Amerikanın mövcudiyyətinə zərurət yaratmağa yönəlib. Vaşinqton yalnız birtərəfli qaydada öz maraqlarını düşünərək regionda sülh, sabitlik, inkişaf, təhlükəsizlik amillərinə yalnız imperialist prizmadan baxıb. Lakin Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərində müstəsna qələbələri işğal və təcavüzə son qoymaqla regionda, nəhayət ki, sülh və əmin-amanlıq, dayanıqlı sabitlik üçün unikal tarixi imkan yaradıb, qlobal miqyasda əsas problemlərdən biri hesab edilən separatizmlə mübarizədə effektiv və həlledici yol xətirəsi ortaya qoyub, beynəlxalq hüququn aliliyi təmin edilib.

Bu situasiya, əslində, ABŞ-nin də maraqlarına cavab verir, çünki BMT Təhlükəsizlik Şurasının əsas üzvlərindən biri və hakim mövqeyə malik subyekti kimi Amerika erməni işğalı və təcavüzünü pisləyən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin o zamana qədər icra olunmamasına görə məsuliyyət daşıyırdı. Bu mənada ölkəmiz hərbi-siyasi qələbələri ilə 30 illik işğala və təcavüzə son qoymaqla, əslində, ABŞ-nin özünü utancdan qurtarıb. Lakin ABŞ göstərdi ki, onun üçün vacib olan beynəlxalq hüququn aliliyi, qlobal təhlükəsizlik deyil, təcavüzkar mahiyyətdə ifadə olunan imperialist niyyətlərdir.

→ 5

# Avropa İttifaqı ölkələri idarəetmə böhranı ilə üzləşib

## Bəzi Qərb dövlətləri seçicilər qarşısındakı öhdəliklərini yerinə yetirə bilmirlər



Bu yaxınlarda keçirilən debatda bir alman seçicisi kansler Olaf Şoltsu kəskin tənqid edib: "Hökumət ölkəni idarə etmək iqtidarında deyil, nazirlər isə uşaq kimi dava salırlar. Şolts isə bu "zərbəni" dəf etmək əvəzinə, opponentin haqlı olduğunu etiraf edib. Həqiqət budur ki, siz haqlısınız. Bəs siz nə edərdiniz?"

Dialoq bir vaxtlar nümunəvi idarəetmə modeli kimi nümayiş etdirilən Avropanın ən böyük iqtisadiyyatında ciddi rezonans doğurmayıb. İndi artıq hamı tərəfindən qəbul edilir ki, siyasətçilərin razılaşa biləcəyi çox az şey var. Onlar nəinki razılaşmaları praktikada tətbiq etmək, adi razılalaşmalara gəlməkdə belə çətinlik çəkirlər.

İfrat sağçı "Almaniya üçün Alternativ" Partiyasının son seçki uğurları Şoltsun parçalanmış hökumətinə daha bir zərbə vurub.

→ 5

# Revanşistlərə növbəti zərbə

## Uğursuz keşiş Paşinyan əleyhinə etirazlarda kütləviliyi təmin edə bilmir

İrəvanda "Müqəddəs Hərəkat" adı altında insanları etirazlara səsləyən Qalstanyan "Respublika" meydanında Paşinyan əleyhinə fikirlər səsləndirib, onun istefasını tələb etdikdən sonra İctimai Televiziyanın binasına doğru yürüş edib. Telekanalın direktoru bildirib ki, onlar yepiskopun canlı müsahibəsini efirə verə bilərlər. Baqrat bununla razılaşıb və İctimai Televiziyada danışıb. O həmçinin bildirib ki, bu toplanışla mübarizənin həlledici mərhələsi başlayır: "Müqəddəs Mübarizə" hərəkatı küçədə bir nəfər qalana qədər davam edəcək: "Mən fiziki olaraq küçədəyəm. Amma onlar (hakimiyyət - red.) küçədə doğulublar və ruhən orada qalıblar".

Ermənistanın sabiq müdafiə naziri Arşak Karapetyan isə deyib ki, Paşinyan rejimi bütün sahələrdə: orduda, hökumətdə və iqtisadiyyatda uğursuzluğa düçar olub. Qeyd edib ki, Nikol Paşinyan dövründə Ermənistanın xarici borcu yeni rekord qıraraq 12 milyard dollar həddini keçib. Bu məbləğlərin hara getdiyi bəlli deyil. Mütləq iqtisadiyyatın real sektoruna, yeni iş yerlərinin açılmasına, sosial-iqtisadi problemlərin yumşaldılmasına yönəldilməyib. Bu məbləğlər dolayısı ilə 13-cü maaşlar vasitəsilə Paşinyanın partiyasının üzvlərinin ciblərinə axıdılır və korrupsiya sxemləri ilə Ermənistan hakimiyyətinin ofşor hesablarına köçürülür. Ölkənin regionlarında iş yerləri yoxdur, kəndlər məhv olur, miqrasiya artıq milli təhlükəsizlik məsələsinə çevrilib.

→ 5

# Moskvada MDB Xarici İşlər Nazirləri Şurasının növbəti iclası keçirilib

Oktyabrın 7-də Rusiyanın paytaxtı Moskvada Müstəqil Dövlətlər Birliyinin (MDB) Xarici İşlər Nazirləri Şurasının iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov tədbirdə iştirak edib.

Nazir çıxışında Azərbaycanın MDB çərçivəsində iqtisadiyyat, ticarət, nəqliyyat-kommunikasiyalar, süni intellekt, humanitar, gənclər və s. istiqamətlər üzrə əməkdaşlığa baxışı, habelə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi barədə məlumat verib.

Eyni zamanda Nazirlər Şurasının uğurlu təşkilinə görə Rusiya Federasiyasına təşəkkür edilib, növbəti ildə Birliyə sədrliyi həyata keçirəcək Tacikistana uğurlar arzulanıb.

Təşkilata üzv dövlətlərlə qarşılıqlı səfər və təmasların artırılmasının ikitərəfli və çoxtərəfli formatlarda əməkdaşlığa töhfə verdiyi, o cümlədən Xarici İşlər Nazirləri Şurası formatının öz növbəsində qarşılıqlı maraq doğuran məsələlərin müzakirəsində faydalı olduğu vurğulanıb.

Humanitar və gənclər sahəsində əməkdaşlıq üzrə birgə tədbirlərin keçirilməsini nəzərdə tutan planların üzv ölkələr və xalqlar arasında əməkdaşlıq və yaxınlaşmaya töhfə verəcəyinə dair inam ifadə olunub. Ölkəmizin "Birliyin mədəniyyət paytaxtı" təşəbbüsünə xüsusi önəm verdiyi, bu istiqamətdə növbəti il üçün Laçın şəhərinin MDB-nin mədəniyyət paytaxtı elan olunması haqqında dövlət başçıları tərəfindən qəbul edilməsi nəzərdə tutulan qərarın bu ildə mədəniyyət sahəsində birgə genişmiqyaslı layihə və tədbirlərin təşkilinə imkan verəcəyi diqqətə çatdırılıb. MDB çərçivəsində radikalizmə qarşı əməkdaşlıq məsələlərinin effektiv tənzimlənməsi sahəsində beynəlxalq hüquqi bazanın təkmilləşdirilməsi, maarifləndirici tədbirlərin və kadr potensialının gücləndirilməsinin əhəmiyyəti qeyd olunub.

Mülki təyinatlı süni intellekt sahəsində əməkdaşlığın, habelə bu sahənin beynəlxalq hüquq normaları, xüsusilə suverenlik və ərazi bütövlüyü prinsiplərinə hörmət, dövlət nəzarəti və etik prinsiplər əsasında inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb. Sözügedən sahə üzrə təhlükəsizlik təhdidləri ilə mübarizədə birgə səylərin vacibliyi qeyd edilib, ölkəmiz tərəfindən bu istiqamətdə həyata keçirilən tədbirlər, o cümlədən cari ilin sentyabrında keçirilən Kiberdiplomatiya üzrə ilk beynəlxalq konfransdan bəhs olunub.

Ölkəmizin COP29 sədrliyi barədə ətraflı məlumat verən nazir Ceyhun Bayramov Azərbaycan tərəfindən danışıqlar prosesinin aparıldığını və görülən hazırlıq işlərinin qlobal iqlim fəaliyyətinə mühüm töhfə olması məqsədilə genişmiqyaslı sədrlik fəaliyyəti həyata keçirildiyini diqqətə çatdırıb.

# "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin iclası

"Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin növbəti iclası keçirilib.



Müsabiqənin işçi qrupundan AZƏRTAC-a bildirilib ki, iclasda Prezident Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri, "Yüksəliş" müsabiqəsinin Təşkilat Komitəsinin sədri Fərəh Əliyeva, iqtisadiyyat naziri Mikayıl Cabbarov, elm və təhsil naziri Emin Əmrullayev, xarici işlər nazirinin müavini Fariz Rzayev, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli, Dövlət İmtahan Mərkəzinin İdarə Heyətinin sədri Məleykə Abbaszadə, Milli Məclisin deputatı Ülvi Quliyev, İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru Balakişi Qasımov, gənclər və idman nazirinin müavini, "Yüksəliş" müsabiqəsinin işçi qrupunun rəhbəri Fərhad Hacıyev və müsabiqənin işçi qrupu iştirak ediblər.

Təşkilat Komitəsinin üzvlərinə dördüncü "Yüksəliş" müsabiqəsinin yekunlaşması ilə bağlı hazırlanan hesabat təqdim edilib. İclasda dördüncü "Yüksəliş" müsabiqəsinin mentorluq proqramı ilə əlaqədar təkliflər müzakirə olunub, müvafiq qərarlar qəbul edilib. İclasda çıxış edən komitə üzvləri layihənin gedişatı barədə qarşıdan gələn tədbirlərin uğurlu təşkili üçün bir sıra vacib təkliflər irəli sürüblər.

Xatırladaq ki, "Yüksəliş" müsabiqəsi Azərbaycan Prezidentinin 2019-cu il 26 iyul tarixli Sərəncamına əsasən təsis olunub. Müsabiqənin məqsədi 21-51 yaş aralığında olan, intellektual səviyyəsi yüksək və azı iki il idarəçilik təcrübəsinə malik perspektivli rəhbər şəxslərin müəyyənləşdirilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etməkdir.

"Yüksəliş" müsabiqəsinin qalibini bir il ərzində idarəçi rəhbərlərdən - böyük şirkətlərin top-menecerlərindən və dövlət orqanlarının rəhbərlərindən fərdi karyera məsləhətləri almaq imkanı və 20 min manat məbləğində pul mükafatı gözləyir.

Dördüncü "Yüksəliş" müsabiqəsinin keçirilməsi ilə bağlı Azərbaycan Prezidenti tərəfindən 2023-cü il dekabrın 25-də sərəncam imzalanıb.

# Türk dövlətlərinin səhiyyə nazirləri Ümummilli Liderin məzarını, Şəhidlər xiyabanını və "Türk şəhidliyi" abidəsini ziyarət ediblər

Oktyabrın 8-də Azərbaycanın Şuşa şəhərində Türk Dövlətləri Təşkilatına (TDT) üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclası keçiriləcək.

AZƏRTAC xəbər verir ki, tədbirdə Türk Dövlətləri Təşkilatının Baş katibi, Azərbaycan, Türkiyə, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Şimali Kipr Türk Cümhuriyyətinin səhiyyə nazirləri və Macarıstanın nümayəndəsi iştirak edəcəklər.

Tədbir ərəfəsində qonaqlar Fəxri xiyabanda türk dünyasının böyük oğlu və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsini ehtiramla yad edərək məzarı önünə əklil qoyub, tər gül dəstələri düzüblər.

Görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın da əziz xatirəsi anılıb, məzarı üzərinə tər güllər düzülüb.

Sonra Şəhidlər xiyabanı ziyarət olunub. Azərbaycanın ərazi bütövlüyü uğrunda mübarizədə canlarını qurban verən qəhrəman Vətən övladlarının əziz xatirəsi ehtiramla yad edilib, məzarları üzərinə güllər düzülüb, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyulub.

Şəhidlər xiyabanında 1918-ci ildə Bakının daşnak-bolşevik qoşunlarından azad edilməsi uğrunda döyüşlərdə həlak olan qəhrəman türk əsgərlərinin xatirəsinə ucaldılan "Türk şəhidliyi" abidəsinin önünə əklil qoyub, gül dəstələri düzülüb.

Nümayəndə heyəti həmçinin dünya memarlığının nadir incilərindən sayılan Heydər Əliyev Mərkəzini ziyarət edib. Məlumat verilib ki, mərkəzin fəaliyyəti Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin dövlətçilik fəlsəfəsinin, irsinin dərindən öyrənilməsinə və tədqiq edilməsinə yönəlib.

Qeyd edək ki, TDT-yə üzv və müşahidəçi ölkələrin səhiyyə nazirlərinin IV iclası çərçivəsində Azərbaycanın səhiyyə naziri Teymur Musayevin Türk Dövlətləri Təşkilatının Baş katibi, təşkilata üzv və müşahidəçi ölkələrin səhiyyə nazirləri ilə ikitərəfli görüşlərinin keçirilməsi nəzərdə tutulub.

Tədbirin sonunda yekun sənəd - Birgə Bəyannamə qəbul ediləcək.

# Azərbaycan ilə Özbəkistan arasında hərbi aviasiya və hava hücumundan müdafiə sahəsində təcrübə mübadiləsi inkişaf etdirilir

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə işgüzar səfərdə olan Özbəkistan Respublikasının Hava Hücumundan Müdafiə və Hərbi Hava Qüvvələrinin komandanı general-mayor Axmad Burxanov ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, müdafiə naziri onu Azərbaycanda görməkdən məmnunluğunu bildirib, ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğunu qeyd edib.

General-polkovnik Z.Həsənov Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, Azərbaycan ilə Özbəkistan arasında hərbi sahədə əməkdaşlığın daha da inkişaf etdirildiyini vurğulayıb, bu istiqamətdə görülən işlərdən danışıb.

Ölkəmizə səfərindən məmnunluğunu ifadə edən general-mayor A.Burxanov general-polkovnik Z.Həsənova Özbəkistan müdafiə nazirinin salamlarını çatdırıb.

Sonra Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində rəsmi qarşılanma mərasimi təşkil edilib. Azərbaycan Respublikasının müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Namiq İslamzadə özbəkistanlı həmkarı ilə fəxri qarovulun önündən keçib.

Komandanlar arasında keçirilən görüşdə Azərbaycan ilə Özbəkistanın digər istiqamətlərdə olduğu kimi hərbi aviasiya və hava hücumundan müdafiə sahəsində təcrübə mübadiləsinin inkişaf etdirilməsinin və qarşılıqlı səfərlərin əhəmiyyəti vurğulanıb.

Görüşdə ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığın yeni perspektivləri, eləcə də maraq doğuran bir sıra digər məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Sonda Özbəkistan nümayəndə heyətinə Hərbi Hava Qüvvələrinin Mərkəzi Komanda Məntəqəsində görülən işlər barədə ətraflı məlumat verilib.

# Türk Dövlətləri Birinci Kardioonkoloji Konqresinin açılış mərasimi keçirilib





Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Kardiologiya İnstitutunun (ETKİ) təşkilatçılığı ilə Bakıda Türk Dövlətləri Birinci Kardioonkoloji Konqresinin açılış mərasimi keçirilib.

AZƏRTAC xəbər verir ki, açılış mərasimində çıxış edən ETKİ-nin direktoru, konqresin sədri, professor Gülnaz Dadaşova istər Türk Dövlətləri Birinci Kardioonkoloji Konqresini, istərsə də aprel ayında olmuş I Türk Dövlətləri Kardioloji Qurultayını ölkələrin tibb sahəsində əməkdaşlığının yeni mərhələsi və Türk Dövlətləri Təşkilatının dayanıqlı platforma kimi artan nüfuzunun göstəricisi kimi səciyyələndirib.

"Həmçinin qürurverici haldır ki, konqres oktyabrın 8-də Şuşada Türk Dövlətləri Təşkilatının səhiyyə nazirlərinin dördüncü iclası ərəfəsində və çərçivəsində keçirilib", - deyə Gülnaz Dadaşova vurğulayıb.

Tədbirdə çıxış edən Şimali Kipr Türk Cümhuriyyətinin Azərbaycan Respublikasındakı nümayəndəsi Ufuk Turqaner diqqətə çatdırıb ki, beynəlxalq tədbir türk dünyasından olan kardiologiya mütəxəssislərini bir araya gətirərək, birgə tədqiqat imkanlarını nəzərdən keçirmək və ürək-damar xəstəliklərinin müalicəsində əhaliyə göstərilən tibbi xidmətlərin keyfiyyətini artırmasına töhfə verəcək.

Milli Məclisin Səhiyyə komitəsinin sədri akademik Əhliman Əmiraslanov çıxışında qeyd edib ki, konqresin proqramına yeni tibbi texnologiyaların və fundamental tibbin nailiyyətlərinin tətbiqinin praktiki aspektlərinə həsr olunan iclaslar, orijinal tədqiqatın nəticələri, real klinik təcrübədən olan hallar əsasında debatlar daxildir: "Tibbin kardiologiya və onkologiya sahələrini birləşdirən bir çox səbəb var. Onkoloji xəstəliklər, adətən, yaşlı nəslin problemidir. Onkoloqlar onları müalicə etdiyi zaman ürək-damar patologiyası ilə bağlı kardioloqlara müraciət edirlər. Eyni zamanda elmi tədbirin internet üzərindən yayımı həkimlərin davamlı tibbi təhsili üçün unikal zəmin yaradıb".

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti akademik İsa Həbibbəyli Azərbaycanın türk dünyasının inteqrasiyasında müstəsna rol oynadığına diqqət çəkib: "Ölkəmiz türkdilli dövlətlər arasında əlaqələrin genişlənməsində özünəməxsus körpü funksiyasını yüksək səviyyədə yerinə yetirir. Bugünkü konqres də Azərbaycan Respublikasının aparılan dövlət siyasətinin, yəni türk dünyasına inteqrasiyanın genişlənməsi və möhkəmlənməsi siyasətinin inkişafına öz töhfəsini verəcək. Konqres Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinin türk dünyasına, türk birliyinə verdiyi əməli töhfə kimi də yüksək əhəmiyyətə malikdir. Türk Dövlətləri Birinci Kardioonkoloji Konqresinin Bakıda keçirilməsini ölkəmizdə gedən proseslərlə əlaqəli şəkildə əlamətdar elmi hadisə kimi yüksək qiymətləndirirəm".

Türkiyədə ilk ürək transplantasiyası əməliyyatını icra edən qadın həkim, Siyami Ersek Xəstəxanasının həkim-kardioloqu, professor Serap Aykut Aka deyib: "Onkoloji xəstəliklər olduqca geniş yayılıb və təəssüf ki, hər 8 qadından birində süd vəzi xərçəngi aşkarlana bilər".

Professor qeyd edib ki, türk dövlətləri bütün sahələrdə daim bir-birinə dəstək verməlidir: "Türkün ürəyi Bakıda döyünür. Biz hər zaman qardaş Azərbaycanın yanındayıq. Ümid edirəm ki, türk dövlətləri arasında təlim proqramları geniş şəkildə davam edəcək".

Tədbirdə Türkiyə, Qazaxıstan, Özbəkistan, Qırğızıstandan olan elmi və tibb müəssisələrin rəhbərləri də çıxış ediblər.

Oktyabrın 4-dən 7-dək davam edən konqresə 1000-dən artıq yerli və xarici mütəxəssis qatılıb.

Qeyd edək ki, Türk Dövlətləri Birinci Kardioonkoloji Konqresi Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Elmi Tibbi Şurası tərəfindən akkreditasiya olunub və 30 DTT kredit balı ilə qiymətləndirilib.

Konqres bədii hissə və panel müzakirələr ilə davam edib.

Türk Dövlətləri Birinci Kardioonkoloji Konqresinin açılış mərasimində dövlət qurumlarının rəhbər şəxsləri, Milli Məclisin deputatları, tanınmış elm xadimləri, Azərbaycan Tibb Universitetinin tələbələri və ETKİ-nin könüllüləri iştirak ediblər.

# Azərbaycan Ticarət Forumu

Bu gün Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Gömrük Təmsilçiliyi və Logistika Şirkətlərinin Assosiasiyasının birgə təşkilatçılığı, "PAŞA Holdinq"in dəstəyi ilə Azərbaycan Ticarət Forumu keçirilib.

AZƏRTAC xəbər verir ki, "KOB-lar üçün imkanlar, mövcud vəziyyət və çağırışlar" mövzusuna həsr olunmuş forumda rəsmi şəxslərin, idxal-ixrac, istehsalat, logistika, gömrük təmsilçiliyi və s. sahələrdə fəaliyyət göstərən şirkətlərin nümayəndələrinin iştirakı ilə idxal-ixrac əməliyyatlarında mövcud vəziyyət və imkanlar, KOB-ların ixracda payının artırılması və ticarət sahəsində əməkdaşlıq perspektivləri müzakirə olunub.

Forumda çıxış edən Dövlət Gömrük Komitəsi sədrinin birinci müavini Bəhruz Quliyev, KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov, İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin - AZPROMO-nun icraçı direktorunun müavini Zöhrab Qədirov, Azərbaycan Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası prezidentinin müşaviri Ziya Hacılı ölkəmizdə sahibkarlıq fəaliyyəti üçün yaradılmış imkanlar, dövlət dəstəyi alətləri və güzəştlər, yerli məhsulların ixracı sahəsində mövcud vəziyyət və bu sahədə yeniliklər, KOB-ların idxal və ixracdakı mövqeyi və potensialı barədə fikirlərini bölüşüblər.

Həmçinin tədbirdə qeyd edilib ki, KOB-ların ticarət və logistika sahəsində inkişafına dəstək olmaq, bu sahədə dövlət-biznes dialoqunun davamlı xarakter daşıması üçün Azərbaycan Ticarət Forumu çərçivəsində müxtəlif tədbirlər keçiriləcək. Forumun ənənəvi olaraq növbəti illərdə də təşkil olunması nəzərdə tutulur.

Tədbir çərçivəsində yeni ticarət və investisiya imkanlarının, Azərbaycanın qlobal bazarlara inteqrasiyasının sürətləndirilməsi yollarının müzakirə olunduğu panel müzakirə də təşkil olunub, sahibkarların sualları cavablandırılıb.

# Xarici media nümayəndələri üçün COP29-la bağlı brifinq

Oktyabrın 7-də COP29-un baş ofisində Nigeriya, Keniya və Cənubi Afrika Respublikasından gələn xarici media nümayəndələri üçün brifinq keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbir çərçivəsində xarici jurnalistlər üçün mediatur da təşkil olunub.

COP prosesinin təqviminə daxil edilən başlıca tədbirlər, fərqli istiqamətlərdə aparılan intensiv hazırlıq prosesi, konfransın keçiriləcəyi Bakı Olimpiya Stadionunda COP29-la bağlı müxtəlif məqsədlər üzrə ərazi bölgüsü və müvafiq infrastrukturun qurulması istiqamətində aparılan işlər barədə ətraflı məlumat verilib.

İştirakçılar eyni zamanda COP29 zamanı bütün rəsmi tədbirlərin keçiriləcəyi məkan olan Mavi Zonanın, eləcə də müxtəlif tərəfləri innovativ iqlim yanaşmaları üçün bir araya gətirəcək Yaşıl Zonanın qurulması üzrə görülən işlər barədə məlumatlandırılıb, prosesin planauyğun şəkildə davam etdiyi bildirilib.

Həmçinin qlobal əhəmiyyətli konfransda iştirak üçün Bakıya gələcək minlərlə beynəlxalq nümayəndənin məmnunluğunun təmin olunması məqsədilə nəqliyyat, qonaqlama və qidalanma istiqamətində görülmüş işlər, nəzərdə tutulan əlavə tədbirlər brifinq iştirakçılarının diqqətinə çatdırılıb.

Qeyd olunub ki, intensiv şəkildə davam edən əməliyyatların bütün fazalarında COP29 Əməliyyat Şirkətinin əsas hədəflərindən biri ekoloji təsirləri və karbon ayaq izinin yolverilən minimumda saxlanılmasıdır.

Tədbir jurnalistləri maraqlandıran məsələlər ətrafında müzakirələr və sual-cavab sessiyası ilə davam edib.

# İLHAM ƏLİYEV: "Ermənistan təhlükəli oyunlara qoşulub və İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmasın"



# Həqiqətlər və oyunbazlıqlar

**Həqiqət həmişə sadə və aydın olur!**

**O qədər sadə və aydın ki, kimsə onu görməyəcəyinə və dərk etməyəcəyinə inana bilmirsən!**

*Oyunbazlıqlar isə süni şəkildə yaradılır.*

*Kifayət qədər biliyi və təcrübəsi olmayanlar qurulan oyunların mahiyyətini dərhal anlamağı bacarmırlar.*

Amma hər şeyin zamana ehtiyacı olur.

Sonda üstü açılmayan və "müəllifləri" faş olmayan oyunlar qalmır.

**"Dağlıq Qarabağ problemi" də bir oyun, Qərbin, dünya güclərinin yaratdıqları "beynəlxalq layihə" idi.**

**İki əsr davam etdi!**

*Sonda həqiqət yalana, ağıl hiyləyə üstün gəldi, "dəmir yumruq" isə bütün oyunbazlıqlara nöqtə qoydu!*

Doğrudur, çətin sınaqlardan çıxdıq, böyük əziyyət və məşəqqətlər yaşadıq, Vətən övladlarını şəhid verdik, dözdük, gözlədik, güclƏndik, möhtəşəm ordu yaratdıq, milli birliyə nail olduq, rəhbərimizin ətrafında birləşərək şərə qalib gəldik, torpaqlarımızı işğaldan azad etdik, şəhidlərimizin qisasını aldıq, düşmənlərimizi və onların havadarlarını biabırçı məğlubiyyətə uğratdıq, milli mənliyimizi geriyə qaytardıq!

İndi isə viran qoyulmuş yurdumuzu yenidən tikib-quraraq, əsl sahiblərini geriyə, doğma obalarına qaytarmaqla məşğuluq!

**Amma oyunlar və oyunbazlıqlar hələ də davam edir!**

**Kimlərsə nəyəsə ümid edirlər, bizi daim sınağa çəkirlər.**

Başına gələn başmaqçı olar demişlər.

*Biz bütün sınaqlardan qalibiyyətlə çıxmağa daim hazırıq!*

*Qüdrətli dövlətimiz, güclü ordumuz, müdrik rəhbərimiz və sarsılmaz birliyimiz var!*

❖ ❖ ❖

"Qarabağ problemi" dünya gücləri tərəfindən türk dövlətlərinin birliyini pozmaq və birbaşa əlaqələrini qırmaq üçün yaradılan beynəlxalq layihə idi.

Bu layihənin "ideya müəllifi" və maliyyəçisi dünya erməniliyi, onun ABŞ, Fransa və Rusiyadakı güclü erməni diasporudur.

Adıçəkilən dövlətlərin, habelə Avropa İttifaqı və Avropa Şurasının müxtəlif ölkələrdən olan siyasətçiləri, parlament üzvləri, QHT-ləri erməni sifarişləri əsasında Azərbaycana qarşı bir sıra istiqamətlərdə mübarizə aparırlar.

> **"Mən Ermənistana da bax, burada, dağıntılar arasında xəbərdarlıq edirəm: dayandırın bu təhlükəli oyunları! Bir tərəfdən, sülhdən danışırlar, yalan-palan danışırlar, digər tərəfdən, genişmiqyaslı silahlanma gedir!"**
>
> **İlham ƏLİYEV**

**Bu mübarizədə, əslində, hibrid müharibədə şər-böhtan, qaralama, dezinformasiya, feyk xəbərlər, habelə "insan haqlarının pozulması" kimi gülünc ittihamlar və digərləri yer tutur.**

Lakin dərinə vardıqda bütün bunların bir mərkəzdən idarə olunan oyunbazlıqlardan başqa bir şey olmadığı görünür.

*"Böyük Ermənistan" xülyasına hesablanan bu layihənin 1988-ci ildən aktivləşdirilməsi dünyada, o cümlədən keçmiş SSRİ-də baş verən proseslərlə bağlı idi.*

**Dünya erməniliyi yeni imkandan yararlanmaqla Azərbaycandan yenidən torpaq qoparmaq iştahasına düşmüşdü.**

O vaxtdan indiyədək baş verən bir sıra mühüm hadisələrə və onların doğurduqları nəticələrə birlikdə diqqət yetirək.

❖ ❖ ❖

**"Sorosçu" baş nazir Paşinyan içib keflənərək, əslində, əmin olduğu həqiqəti dilə gətirdi: "Qarabağ Ermənistandır və nöqtə".**

*Paşinyan əsl siyasətçi və diplomat olmadığına görə açıq şəkildə və ucadan deyilməsi düzgün olmayanı ictimai formada dilə gətirmişdi.*

Onsuz da hamı görürdü ki, "pərdələnmiş" formada böyük oyunlar gedir...

**BMT dünyanın ən böyük və nüfuzlu qurumu sayılır.**

Keçmiş Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bu təşkilat dörd qətnamə qəbul etmişdi və həmin qətnamələrdə Ermənistana məxsus silahlı birləşmələrin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması tələb olunurdu!

Elə hallar olub ki, BMT-nin qərarı mürəkkəbi qurumamış icra edilib.

Dörd qətnamə icra olundumu?

YOX!

Niyə? BMT-nin buna gücü çatmadı?

YOX!

Heç öz qətnamələrinin icrasına real təşəbbüs belə göstərmədi!

*Halbuki BMT daxil olmaqla bütün dünya bilirdi ki, Qarabağ Azərbaycan torpağıdır və heç kim, içi Ermənistanqarışıq, qondarma "dqr"-i tanımamışdı!*

**1992-ci ilin yazında Qarabağ münaqişəsinin həlli üçün ATƏT-in Minsk qrupu yaradıldı və qurumun tərkibinə dünyanın doqquz nüfuzlu ölkəsi daxil edildi.**

ATƏT-in həmsədrlik institutu isə Rusiya, ABŞ və Fransadan ibarət oldu.

*Otuz ilədək müddətdə sülh müqaviləsi bağlanması üçün yaradılan bu qurum gəldi, getdi, danışdı, bəyanat və açıqlamalar verdi, sülh müqaviləsinin maddələrini müzakirə etdi...*

**Real nəticəyə nail olmadı, çünki həmsədrlərin heç biri bunu istəmirdi, sadəcə, görüntü yaradırdılar.**

*Çünki əsl məqsəd ərazi işğalını əbədiliyə çevirmək, Azərbaycanı bununla barışdırmaq və Ermənistanın ərazisinə yeni torpaqlar qataraq onu genişləndirmək idi.*

ATƏT-in Minsk qrupu Ermənistan SSR Ali Sovetinin və Dağlıq Qarabağın "Milli Şurası"nın "Ermənistan SSR-lə Dağlıq Qarabağın birləşdirilməsi haqqında" 1 dekabr 1989-cu il tarixli qərarını ləğv etdimi?

YOX!

Ermənistan hərbi birləşmələrinin Azərbaycan ərazisindən çıxarılmasını təmin etdimi?

YOX!

Tərəfləri ədalətli sülhə gətirdimi?

YOX!

Tərəfsiz, qərəzsiz oldumu?

YOX!

ATƏT öz səlahiyyətlərindən istifadə edərək Ermənistana hər hansı formada təsir, təzyiq göstərdimi, sanksiya tətbiq etdimi və ya bir dəfə bunu xatırlatdımı?

YOX!

**Bu gün "arxaik əşya"ya çevrilən ATƏT-in Minsk qrupu buraxılmalıdır, özü də Ermənistan da bunun dəstəkçisi olmalıdır!**

**Bu, Müzəffər Ali Baş Komandan İlham Əliyevin şərtlərindəndir!**

❖ ❖ ❖

Otuz il doğma yurd-yuvasından qovulan, bütün varidatı talanan, qaçqın şəhərciklərinin sakinlərinə çevrilərək məşəqqətli ömür sürmək məcburiyyətində qalan azərbaycanlı məcburi köçkünlərin harayına beynəlxalq qurum və təşkilatlar, ABŞ və Fransanın senator, konqresmen və siyasətçiləri çatdılarmı, hallarına yanaraq qayğılarına qaldılarmı?

YOX!

Avropa İttifaqı, Avropa Şurası azərbaycanlı məcburi köçkünlərin insan haqlarını təkid və inadla qorudumu?

YOX!

Ermənistan Azərbaycanın yaşayış məntəqələrini dağıdaraq viran qoyanda, təbii sərvətlərimizi talayanda, mədəni, dini, tarixi abidələrimizi yerlə yeksan edəndə bu əməlləri müzakirələrə çıxardılarmı, erməni vandallarını qınadılarmı, vəhşiliklərini pislədilərmi?

YOX!

1915-ci ildə guya baş vermiş "erməni soyqırımı"nı xatırladan, nəhayət, Bayden tərəfindən "soyqırımı" ifadəsi işlədilən ABŞ prezidentləri bircə dəfə Xocalı soyqırımını dillərinə gətirdilərmi?

YOX!

❖ ❖ ❖

**Özünü dünyada demokratiyanın və insan haqlarının qoruyucusu kimi aparan ABŞ, əslində, ikili standartların yaradıldığı və qorunduğu məkandır.**

ABŞ Konqresi isə erməni diasporunun anti-Azərbaycan fəaliyyətinin mərkəzinə və ruhvericisinə çevrilib.

*Ötən ay Konqresdə "Dağlıq Qarabağın süqutundan sonra Azərbaycanda insan haqları" adlı dinləmə keçirilmişdir.*

Dinləmələrdə "Artsax" respublikasının ombudsmanı" adlı birisi - Geqam Stepanyan da iştirak etmişdir.

**Görəsən, otuz il Qarabağdan zorakılıqla qovulan azərbaycanlıların pozulmuş hüquqlarını bir dəfə xatırlamayan ABŞ-nin konqresmenləri erməniəsilli, Ermənistan vətəndaşlığı pasportunu daşıyan hayların könüllü şəkildə Qarabağı tərk etmələrindən niyə belə dərin narahatlıq hissi keçirirlər?**

*Onların geri qaytarılması barədə ağzı köpüklənə-köpüklənə danışarkən niyə otuz il əvvəl zorakılıqla doğma torpaqlarından qovulan qərbi azərbaycanlıların da qaytarılması barədə bircə kəlmə belə söz demirlər?*

**Məgər insan haqları azərbaycanlılara şamil edilmir?**

Əslində, Quantanamo həbsxanasını saxlayan dövlətin heç insan haqlarından danışmağa mənəvi haqqı yoxdur!

Ədalət seçmə qaydasında tətbiq olunmamalıdır!

Beynəlxalq hüquq insanların yalnız bir qisminə münasibətdə işlədilməməlidir!

İnsan hüquqlarının müdafiəsində ayrı-seçkiliyə yol verilməməlidir!

**Bəs bu ögey-doğmalıq nədir?**

*Qərəzkarlıqdan, bədxahlıqdan, yoxsa düşmənçilikdən doğan münasibətdir?!*

*Yoxsa ikili standartların bütün sahələrə nüfuz etmiş əlamətləridir?*

❖ ❖ ❖

Elə ki, 44 günlük Zəfər müharibəsi başladı, ABŞ-nin də, Fransanın da, Aİ-nin və AŞPA-nın da yadına möhkəm və ədalətli sülhün yaradılması düşdü...

Vəzifələri ikiəsrlik münaqişəni barışla yoluna qoymaq olan dövlətlər və təşkilatlar Azərbaycan Prezidentinə zəng edərək hərbi əməliyyatın dayandırılması barədə xahiş-minnətə başladılar...

NİYƏ?

Ona görə ki, Ermənistan bütün cəbhəboyu məğlub olurdu, böyük itkilərə məruz qalırdı?

Əgər Azərbaycan uduzaraq geri çəkilsəydi, onda Paşinyana zəng çalaraq müharibənin dayandırılmasını istəyərdilərmi?

İnanmırıq!

> **"Bu gün Cənubi Qafqazı rahat buraxsınlar, əl çəksinlər, getsinlər öz işləri ilə məşğul olsunlar, öz problemləri ilə məşğul olsunlar, öz qanlı keçmişlərini yusunlar, öz günahlarını yumağa çalışsınlar. Bu gün əzab verdikləri 100 minlərlə insanın müstəqilliyini bərpa etsinlər, müstəmləkəçilik siyasətinə son qoysunlar, xalqları əzməsinlər, hər yerə burunlarını soxmasınlar. Xəbərdarlığım budur və hesab edirəm ki, bunu eşidən və buna əməl edən səhv etməz!"**
>
> **İlham ƏLİYEV**

Bəlkə də sevinərdilər ki, Azərbaycana təzyiq etmək üçün əllərinə yeni imkan düşüb!

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin qoyduğu şərtlər əsasında üçtərəfli Bəyanat imzalanaraq, II Qarabağ müharibəsi Azərbaycanın möhtəşəm qələbəsi ilə başa çatdı!**

> **"Ermənistan təhlükəli oyunlara qoşulub və İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmasın. Onların yadından çıxmasın ki, necə diz üstə bizdən imdad diləyirdilər, necə Rusiyaya gündə bəlkə 10 dəfə ən yüksək səviyyədə müraciət edirdilər ki, müharibə dayandırılsın. O, onların yadından çıxıb. İndi yeni sahiblər tapıblar. O sahiblər qabağında diz üstə yürüyürlər. Antiterror əməliyyatı onların yadından çıxmasın. Yadından çıxmasın ki, hətta o coğrafiyada biz istədiyimizə nail ola bilmişik. Heç kimə baxmadan, heç nəyə baxmadan cəmi bir neçə saat ərzində separatçılığın kökünü kəsmişik!"**
>
> **İlham ƏLİYEV**

Bundan sonra daha iki dəfə uğurlu əməliyyat keçirilərək Azərbaycanın ərazi bütövlüyü və dövlət suverenliyi təmin edildi.

*Azərbaycan Konstitusiyasını qəbul edərək Azərbaycanın qanunları əsasında yaşamaq istəməyən separatçılar və terrorçular, digər erməni əhalisi təhlükəsizlikləri təmin olunmaqla ölkəmizdən çıxıb, vətəndaşı olduqları dövlətə getdilər.*

**Beləliklə, ikiəsrlik Qarabağ münaqişəsinə birdəfəlik son qoyuldu!**

Hazırkı mərhələdə Azərbaycanın irəli sürdüyü, beynəlxalq hüququn norma və prinsiplərinə cavab verən beş maddədən ibarət təkliflər əsasında sülh müqaviləsinin hazırlanması və imzalanması, sərhədlərin delimitasiya və demarkasiyası prosesi başlayıb.

*Sülh danışıqlarında vasitəçilik etməkdən ötrü əldən-ayaqdan gedənlər çoxdur.*

*Amma onların heç biri ədalətli, obyektiv olmağa, Cənubi Qafqaza sülh və əmin-amanlıq gətirməyə can atmırlar.*

**Məqsədləri sülh danışıqlarında iştirak etməklə nəsə qazanmaq, Cənubi Qafqaza soxularaq öz maraqlarını təmin etməkdir!**

*Azərbaycan Prezidenti İlham Əliyev isə belə vasitəçilərin "köməyindən" istifadə etmək niyyətində deyil, məqsədi bu bölgədə möhkəm sülh və əməkdaşlıq yaranması, buradakı ölkələrin mövcud imkanlardan bərabər və ədalətli istifadə edə bilmələridir!*

**Təəssüf ki, açıq, qarşı-qarşıya döyüşdə məğlub olanların arxasındakılar bu gün "müharibə"ni konqreslərdə, senatlarda, parlament assambleyalarında davam etdirirlər.**

Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra hərbi əməliyyatları dayandırdı, qalib tərəf olsa da, sülh təklifi ilə çıxış etdi.

Ermənistan isə kimlərəsə, nələrəsə güvənərək sülh müqaviləsini imzalamaqdan yayınır.

*Azərbaycan Prezidentinə minnətçi düşənlər sülh müqaviləsinin tezliklə imzalanmasına səmimi kömək göstərmək əvəzinə Ermənistanı silahlandırır, darmadağın edilmiş ordusunun dirçəldilməsi üçün ona dayanmadan maliyyə dəstəyi göstərirlər.*

**Ərazi məsələləri iclaslarda həll olunmur!**

Bunu ötən otuz ilin təcrübəsi də göstərdi!

**Biz öz ərazimizi müharibə yolu ilə azad etdik!**

Bunu da bütün dünya gördü!

**İndi hansısa senatda, konqresdə, assambleyada kimsə nəsə danışmaqla heç nə dəyişməyəcəkdir!**

Bölgədəki vəziyyəti, ab-havanı yalnız Azərbaycanın şərtləri əsasında bağlanan sülh müqaviləsi dəyişə bilər!

❖ ❖ ❖

**Otuz ildən çoxdur ki, Azərbaycanın qərb bölgələri ilə Naxçıvan arasında quru yolla əlaqə ermənilər tərəfindən kəsilib.**

Nə qatar gedə bilir, nə də avtomobillər.

Hətta dəmiryol xəttini belə söküb dağıdıblar.

*Nəticədə Azərbaycan öz ərazisinin bir hissəsinə gedib gələ bilmir.*

Nə ərzaq, nə də digər yüklər daşınır.

Bir zaman Azərbaycan Laçın dəhlizini bağlayanda "humanitar fəlakət" deyib haray salan dövlətlər, beynəlxalq təşkilatlar, KİV-lər indi niyə özlərini lallığa və korluğa qoyaraq səslərini belə çıxarmırlar?

- Məgər bu, qeyri-humanist hərəkət deyil?
- Məgər bu, insan hüquqlarının pozulması deyil?
- Məgər bu, beynəlxalq hüququn tapdalanması deyil?

**Niyə biz Ermənistanın Qarabağa göndərdiyi ərzaq TIR-larının yolunu dəyişəndə "dünya qopubdağıldı", min bir oyunbazlıq başladı, amma ermənilər otuz ildir Naxçıvana gedən yolumuzu bağlı saxlasalar da, dinib danışan yoxdur!**

Utanmasan oynamağa nə var ki...

❖ ❖ ❖

Hər şey sadə və aydındır!

Ermənilər 1923-cü ildə sovet Rusiyasının iradəsi və qərarı ilə Azərbaycan ərazisində süni şəkildə yaradılan keçmiş DQVM-də separatizm hərəkatına başladılar.

SSRİ-nin birinci və sonuncu prezidenti M. Qorbaçov və ondan sonrakı dövrdə Moskva bu separatizmə müxtəlif formada dəstək verdi.

Həm də təkcə dəstəklə kifayətlənmədi, Azərbaycan ərazilərinin işğalında ermənilərin yardımçısına çevrildi, onlara silah və sursatla, hətta canlı qüvvə ilə kömək göstərərək 20 faiz torpaqlarımızın düşmənə verilməsinə şərait yaratdı.

**Otuz il ərzində yaşayış məntəqələri viran qoyuldu, dini, tarixi, mədəniyyət abidələrimiz, hətta qəbristanlıqlarımız belə dağıdıldı, təbii sərvətlərimiz, şəxsi əmlakımız talan olunaraq oğurlandı...**

*Azərbaycan xalqı özündə güc tapdı, qüdrət tapdı, rəhbəri ətrafında sıx birləşərək işğala son qoydu, ərazi bütövlüyünü, dövlət suverenliyini bərpa etdi!*

**Diz çökdürülərək kapitulyasiya aktına imza atdırılan düşmən isə yenidən havadarlarına güvənərək sülhdən yayınmağa çalışır, revanşa hazırlaşır.**

Bu dəfə ermənipərəstlər yenidən birləşərək Azərbaycana qarşı hibrid müharibəyə başlayıblar!

- ABŞ vasitəçilik iddiasında olsa da, Ermənistana durmadan maliyyə yardımları edir, silah göndərir, birgə təlimlər keçirir, hərbi arsenalının bərpasına çalışır.
- "Xristian evi" sayılan Avropa İttifaqı haylara təkcə maliyyə yardımı göstərməklə kifayətlənmir, "siyasi dəstək"də verir, Azərbaycana qarşı sistemli şərböhtan kampaniyası təşkil edir.
- Otuz il torpaqlarımızı işğalda saxladılar!
- Otuz il ATƏT-in Minsk qrupu ilə imitasiya etdilər!
- Otuz il bütün beynəlxalq qurumlarda Ermənistanı müdafiə etdilər, onların işğalçı, talançı, quldur simalarını pərdələdilər!

Otuz il haylara silah verib maliyyələşdirdilər, onlarla əl-ələ verərək Azərbaycanın təbii sərvətlərini istismar etdilər!

Otuz il işğalı qanuniləşdirməyə, əbədiləşdirməyə çalışdılar!

SONRA NƏ OLDU?

**Otuzillik oyunbazlığa Müzəffər Ali Baş Komandan İlham Əliyev 44 gündə hünər və cəsarətlə son qoydu!**

*İndi Qarabağda nə separatçı var, nə qondarma qurumlar, nə əldəqayırma parlament...*

**Azərbaycan İlham Əliyevin rəhbərliyi ilə bütün oyunlara da son qoydu!**

Bütün bunlar köhnə və keçilmiş yoldur!

Nəticəsi də bəllidir: iflasa uğramış üsul və metodlardır!

*Artıq Azərbaycanla oyunbazlıqlar keçmir!*

**Azərbaycan rəhbəri İlham Əliyev bütün hoqqa və oyunlara son qoymağı məharətlə bacarır!**

Heç kəs Cənubi Qafqazı qarşıdurma və müharibə ocağına çevirə bilməyəcəkdir!

Azərbaycanın söz sahibi olduğu bu bölgə İlham Əliyevin istədiyi kimi, sülh və əməkdaşlıq məkanı olacaqdır!

**Bəxtiyar SADIQOV**

# Azərbaycan Respublikası Milli Məclisinin deputatlarının 2024-cü ilin oktyabr ayında vətəndaşların qəbulu cədvəli

| № | Deputat | Tarix və yer | Əlaqələndirici şəxslər və əlaqə nömrələri |
|---|---|---|---|
| 1. | **Əhmədov Əli Cavad oğlu** | 16, 26 (Bakı şəhəri) | Rəşadət Xalıqov<br>+99450 263 5318 |
| 2. | **Əsgərov Ziyafət Abbas oğlu** | 10 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>14 (Naxçıvan MR, Şərur rayonu)<br>26 (Naxçıvan MR, Şərur rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 3. | **Qasımlı Musa Cəfər oğlu** | 12, 26 (Yardımlı rayonu) | Adil Mustafayev<br>+99450 676 3526 |
| 4. | **Hüseynov Rafael Baba oğlu** | 11, 27 (Hacıqabul rayonu) | Ceyhun Ağayev<br>+99470 887 7090 |
| 5. | **Abbasov Aqil Məhəmməd oğlu** | 19, 26 (Ağcabədi rayonu) | Ceyhun Rüstəmov<br>+99450 212 6641 |
| 6. | **Ağamalı Günay Fəzail qızı** | 12 (Salyan rayonu)<br>19 (Biləsuvar rayonu)<br>26 (Neftçala rayonu) | Pərviz Mirizadə<br>+99451 640 1962 |
| 7. | **Ağayeva Ülviyyə Cavanşir qızı** | 12, 19 (Tovuz rayonu)<br>12, 19 (Ağstafa rayonu)<br>12, 19 (Qazax rayonu) | Arzu Musayeva<br>+99451 340 3070 / +99455 649 3070 |
| 8. | **Ağazadə Əminə Həmid qızı** | 19, 26 (Kürdəmir rayonu) | Namiq Ağayev<br>+99455 298 8050 |
| 9. | **Akimova Elnarə Seydulla qızı** | 10, 24 (Sumqayıt şəhəri) | Tayfun Hacılı<br>+99470 220 0577 |
| 10. | **Alıyev Sahib Eyvaz oğlu** | 12, 27 (Ağdaş rayonu) | Rəhman Rəhmanov<br>+99450 277 0984 |
| 11. | **Allahverənov Azər Kərim oğlu** | 19, 26 (Bakı şəhəri) | Ulvi Məmmədəliyev<br>+99455 544 5566 |
| 12. | **Arpadarai Nigar Cavid qızı** | 12, 19 (Bakı şəhəri) | Bəhruz Teymurov<br>+99450 304 2112 |
| 13. | **Aslanov Novruzəli Davud oğlu** | 10, 24 (İsmayıllı rayonu) | Kamran Xanlarlı<br>+99450 502 4888 |
| 14. | **Badamov Azər Camal oğlu** | 09, 19 (Qusar rayonu) | General Sadulov<br>+99450 313 2962 |
| 15. | **Bayramov Kamran Fərhad oğlu** | 12 (Göygöl rayonu)<br>26 (Daşkəsən rayonu) | Məmməd Məmmədli<br>+99450 288 5889 |
| 16. | **Bayramov Vüqar İbad oğlu** | 26, 31 (Füzuli rayonu) | EltunAğakişiyev<br>+99450 226 8002 |
| 17. | **Bədəlov Bədəl Şamil oğlu** | 12 (Goranboy rayonu)<br>26 (Naftalan şəhəri) | Mahyəddin Mazanov<br>+99470 310 2733 |
| 18. | **Cəfərov Kamal Xaqani oğlu** | 19, 26 (Sabirabad rayonu) | Azad Əhmədbəyli<br>+99455 222 2588 |
| 19. | **Cəfərov Müşfiq Cəfər oğlu** | 12, 26 (Gəncə şəhəri) | Sahib Əmiraslanov<br>+99450 255 2039 |
| 20. | **Cəfərova Tamam Şaməmməd qızı** | 12, 26 (Şamaxı rayonu) | Aytəkin Mehtiyeva<br>+99451 466 0090 |
| 21. | **Əfəndiyev Məzahir Cavid oğlu** | 24, 30 (Göyçay rayonu) | Murad Abdullayev<br>+99451 844 2424 |
| 22. | **Əfəndiyeva Günay Elçin qızı** | 12, 26 (Bakı şəhəri) | Məhsəti Qarayeva<br>+99455 235 1575 |
| 23. | **Ələkbərov Əziz Yusif oğlu** | 12, 26 (Saatlı rayonu) | Samir Nəsirov<br>+99450 277 9623 |
| 24. | **Əliyev Bəxtiyar Həmzə oğlu** | 11, 26 (Ağdam rayonu) | Vüqar Əbdüləzimov<br>+99450 288 2292 |
| 25. | **Əliyeva Jalə Fazil qızı** | 11 (Zərdab rayonu)<br>28 (Kürdəmir rayonu) | Firdovsi Eyvazov<br>+99450 331 9434 |
| 26. | **Əli-zadə Arzuxan Baxşəli oğlu** | 12, 19 (Bakı şəhəri) | Yəhya Həsənov<br>+99455 814 0555 / +99450 3155842 |
| 27. | **Əmiraslanov Azər Kamal oğlu** | 12, 26 (Ağstafa rayonu) | Əlövsət Allahyarov<br>+99450 398 4697 |
| 28. | **Əmiraslanov Əhliman Tapdıq oğlu** | 17 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>19, 30 (Sabirabad rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 29. | **Əsədov Heydər Xanış oğlu** | 11, 25 (Şirvan şəhəri) | Zahir Qəhramanov<br>+99450 216 0470 |
| 30. | **Əsgərov Asif Yunis oğlu** | 12, 26 (Zaqatala rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 31. | **Feyziyev Cavanşir Əyyub oğlu** | 12, 26 (Şəki şəhəri) | Turan Salamov<br>+99455 280 7750 / +99450 520 6618 |
| 32. | **Fətəliyeva Sevinc Həbib qızı** | 12, 26 (Bakı şəhəri) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 33. | **Fətiyev Xanlar Nuru oğlu** | 19, 26 (Bərdə rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 34. | **Gəncəliyev Tural Babaşah oğlu** | 10, 30 (Bakı şəhəri) | Xatirə Əliyeva<br>+99455 722 7431 |
| 35. | **Hacıyev Sabir Kamal oğlu** | 11, 24 (Göyçay rayonu) | Əli Qafarov<br>+99450 200 2209 |
| 36. | **Həmzəyev Naqif Ələşrəf oğlu** | 12, 30 (Gəncə şəhəri) | Sərxan Imanov<br>+99451 714 1412 |
| 37. | **Həmzəyeva Ülviyyə Tapdıq qızı** | 12, 26 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Araz Xudiyev<br>+99450 658 2375 |
| 38. | **Həsən Ramil Sahib oğlu** | 12, 26 (Ucar rayonu) | Fuad Bəbirxanov<br>+99450 255 1376 |
| 39. | **Həsənquliyev Qüdrət Müzəffər oğlu** | 12, 19 (Bakı şəhəri) | Hüseyn Müzəffərli<br>+99450 547 7764 |
| 40. | **Həsənov Malik Əvəz oğlu** | 19, 26 (Cəlilabad rayonu) | Ələddin Əliyev<br>+99450 277 0467 |
| 41. | **Həsənov Nurlan Urfan oğlu** | 19, 30 (Şəmkir rayonu) | Anar Quliyev<br>+99450 753 4433 |
| 42. | **Həsənova Afət Əbil qızı** | 09, 23 (Bakı şəhəri) | Namiq Mustafayev<br>+99450 320 3286 |
| 43. | **Hüseynli Əli Məhəmməd oğlu** | 12, 29 (Yevlax şəhəri) | Bayram Yusifov<br>+99450 262 6131 |
| 44. | **Hüseynov Aydın Nəsir oğlu** | 12, 26 (Bakı şəhəri) | Vüsal Yusifov<br>+99470 200 9878 |
| 45. | **Hüseynova Hicran Kamran qızı** | 14, 31 (Sumqayıt şəhəri)<br>29 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Elçin Kərimov<br>+99451 460 5334 |
| 46. | **Hüseynova Sevinc Əmirəhməd qızı** | 19, 31 (Gədəbəy rayonu) | Elxan Ismayılov<br>+99450 642 0979 |
| 47. | **Xasayeva Səbinə Səməd qızı** | 11, 26 (Bakı şəhəri) | Bayram Məmmədov<br>+99450 325 2308 |
| 48. | **Ibrahimqızı Məlahət Ibrahim qızı** | 12, 31 (Bakı şəhəri) | Xətai Məmmədli<br>+99450 255 2142 |
| 49. | **İbrahimli Fəzail Feyruz oğlu** | 14, 28 (Masallı rayonu) | Faiq Ağayev<br>+99450 630 7881 |
| 50. | **İbrahimov Eldar Rza oğlu** | 19, 22 (Naxçıvan MR, Naxçıvan şəhəri) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 51. | **İsgəndərov Anar Camal oğlu** | 12, 26 (Lənkəran şəhəri) | Valeh Mikayılov<br>+99450 335 2232 |
| 52. | **İskəndərov Vüqar Yapon oğlu** | 12, 19 (Şəki şəhəri) | Anar Nağıyev<br>+99450 295 0115 |
| 53. | **İsmayılov İmamverdi İbiş oğlu** | 12, 26 (Sumqayıt şəhəri) | Məlahət Əzizova<br>+99450 855 2026 |
| 54. | **İsmayılov Şahin Əmir oğlu** | 12, 26 (Beyləqan rayonu) | Çingiz Səfərov<br>+99455 444 3366 |
| 55. | **İsmayılzadə Fariz Akif oğlu** | 12, 26 (Lənkəran şəhəri) | Ulviyyə Əliyeva<br>+99455 718 7872 |
| 56. | **Kərimli Azər Şəmşid oğlu** | 26, 31 (Zaqatala rayonu) | Həbibullah Əfəndi<br>+99477 510 5015 |
| 57. | **Kərimzadə Pərvin Orxan qızı** | 12, 26 (Gəncə şəhəri) | Hicran Məmmədova<br>+99450 663 7615 / +99455 692 8685 |
| 58. | **Qafarov Kamaləddin Nəsrəddin oğlu** | 11, 26 (Bakı şəhəri) | Nazim Cəfərov<br>+99450 708 6911 |
| 59. | **Qafarov Vasif Vaqif oğlu** | 09 (Lerik rayonu) 16 (Astara rayonu) | Pərviz Ağaxanlı<br>+99455 628 6966 |
| 60. | **Qasımlı Mircəlil Xəqani oğlu** | 12, 26 (Gəncə şəhəri) | Anar Çıraqov<br>+99499 309 1131 |
| 61. | **Qədirli Erkin Toğrul oğlu** | 14, 21 (Bakı şəhəri) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 62. | **Qəhrəmanov Göydəniz İbrahim oğlu** | 12, 19 (Bakı şəhəri) | Rəhim Qədirov<br>+99450 331 3436 |
| 63. | **Quliyev Azay Əjdər oğlu** | 10, 17 (Bakı şəhəri) | Asəf Vəliyev<br>+99450 578 5187 |
| 64. | **Quliyev Eldar Allahyar oğlu** | 13, 27 (Bakı şəhəri) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 65. | **Quliyev Musa İsa oğlu** | 12 (Gəncə şəhəri)<br>14 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>26 (Gəncə şəhəri) | Göyüş Şəfizadə<br>+99450 255 1442 |
| 66. | **Quliyev Ülvi Zahid oğlu** | 10, 24 (Bakı şəhəri) | Nurlan Qurbanov<br>+99450 2415156 |
| 67. | **Qurbanlı Mübariz Qəhrəman oğlu** | 19, 26 (Samux rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 68. | **Qurbanov Eyvaz Daşdəmir oğlu** | 19, 26 (Oğuz rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 69. | **Qurbanov Sadiq Haqverdi oğlu** | 19, 26 (Salyan rayonu) | Elnur Rəhimov<br>+99455 375 6075 |
| 70. | **Mahmudov Rəşad Məmmədqulu oğlu** | 19, 26 (Astara rayonu) | Ilham Rəsulov<br>+99455 215 7757 |
| 71. | **Məhəməliyev Nəsib Məhəmməd oğlu** | 19, 30 (Balakən rayonu) | Yusif Mirzəyev<br>+99450 213 6259 |
| 72. | **Məhərrəmov Bəhruz Abdurrəhman oğlu** | 09, 19 (Biləsuvar rayonu) | Əfsun Əlizadə<br>+99455 283 1705 / +99470 300 1461 |
| 73. | **Məhərrəmzadə Əlibala Səttar oğlu** | 12, 19 (Quba rayonu) | Elnur Xəlilov<br>+99455 308 4950 |
| 74. | **Məmmədli Müşfiq Fazil oğlu** | 12 (Siyəzən rayonu) 19 (Xızı rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 75. | **Məmmədov Anar İlyaz oğlu** | 19, 26 (Tərtər rayonu) | Elçin Cahangirov<br>+99450 324 2791 |
| 76. | **Məmmədov Ceyhun Valeh oğlu** | 12 (Bakı şəhəri)<br>26 (Biləsuvar və Cəbrayıl rayonları) | Rəşad Quliyev<br>+99455 847 5621 |
| 77. | **Məmmədov Elman Camal oğlu** | 19 (Bakı şəhəri)<br>26 (Ağdam və Xocalı rayonları) | Mahir Rzayev<br>+99470 290 0335 |
| 78. | **Məmmədov Hikmət Baba oğlu** | 09, 23 (Bakı şəhəri) | Azər Quliyev<br>+99450 277 1219 |
| 79. | **Məmmədov İlham Kazım oğlu** | 12, 29 (Yevlax rayonu) | Rüstəm Əliyev<br>+99450 277 7417 |
| 80. | **Məmmədov Qaya Məmməd oğlu** | 12, 19 (Bakı şəhəri) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 81. | **Məmmədov Məşhur Şahbaz oğlu** | 12, 26 (Masallı rayonu) | Əli Nağıyev<br>+99450 210 8641 |
| 82. | **Məmmədov Soltan Teymur oğlu** | 12, 26 (Bakı şəhəri) | Azər Məlikov<br>+99450 373 4403 |
| 83. | **Məmmədova Nigar Fikrət qızı** | 12, 19 (Abşeron rayonu) | Bikəxanım Qulaməddinova<br>+99450 710 0838 |
| 84. | **Məsimli Əli Əhməd oğlu** | 12, 26 (Qax rayonu) | Vüsal Baxışov<br>+99455 511 2287 |
| 85. | **Mikayılova Sevil Əlirazı qızı** | 08, 18 (Xaçmaz rayonu) | Iradə Çobanova<br>+99455 730 8606 |
| 86. | **Mirkişili Tahir Famil oğlu** | 12, 26 (Sumqayıt şəhəri) | Cavid Quliyev<br>+99450 277 1868 |
| 87. | **Mirzəbəyli Elçin Əbdülrəhim oğlu** | 12, 26 (Ağsu rayonu) | Ibrahim Bağırlı<br>+99455 268 8484 |
| 88. | **Mirzəzadə Aydın Böyükkişi oğlu** | 19, 26 (Mingəçevir şəhəri) | Pərviz Məmmədov<br>+99451 373 2443 |
| 89. | **Mollazadə Asim Nazim oğlu** | 09, 23 (Bakı şəhəri) | Ilkin Həsənov<br>+99450 203 7066 |
| 90. | **Muradov Rövşən Şahbaz oğlu** | 19, 26 (Laçın rayonu) | Rövşən Muradov<br>+99450 319 9365 |
| 91. | **Musabəyov Rasim Nəsrəddin oğlu** | 12, 19 (Bakı şəhəri) | Asif Nəsibov<br>+99450 288 2725 |
| 92. | **Musayev Elşad Nəbi oğlu** | 12, 26 (Bakı şəhəri) | Vüqar Qasımov<br>+99455 744 9919 / +99450 669 5919 |
| 93. | **Musayev Elşən Məmmədhənifə oğlu** | 12, 19 (Qəbələ rayonu) | Cəfər Əliyev<br>+99455 288 0089 |
| 94. | **Mustafa Fazil Qəzənfər oğlu** | 14, 21, 28 (Bakı şəhəri) | Əjdər Əliyev<br>+99450 385 3950 |
| 95. | **Nağıyev Arzu Nəsib oğlu** | 19, 31 (Tovuz rayonu)<br>20 (Gədəbəy rayonu)<br>24 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Elşad İsmayılov<br>+99450 336 0212 |
| 96. | **Namazov Ramid Zakir oğlu** | 12, 26 (Abşeron rayonu) | Ramil Şükürov +99410 412 1079 |
| 97. | **Nəbiyev Rizvan Novruz oğlu** | 19, 31 (Abşeron rayonu) | Milli Məclisin qəbul<br>otağı +99412 510 9938 |
| 98. | **Nəsirov Elman Xudam oğlu** | 12, 26 (Cəlilabad rayonu) | Uzeyir Mustafayev<br>+99450 538 7364 |
| 99. | **Novruzov Siyavuş Dünyamalı oğlu** | 11 (Bakı şəhəri, Milli Məclisin inzibati binası)<br>19, 26 (Naxçıvan MR, Şərur rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 100. | **Nurullayev Razi Qulaməli oğlu** | 12, 26 (İmişli rayonu) | Vüqar Süleymanov<br>+99450 247 8777 |
| 101. | **Nurullayeva Könül Oruc qızı** | 15, 22 (Bakı şəhəri) | Sabit Mahmudov<br>+99455 206 0254 |
| 102. | **Oruc Zahid Məhərrəm oğlu** | 18, 25 (Bakı şəhəri)<br>21 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Ceyhun Fərəcov<br>+99450 288 2093 |
| 103. | **Paşayeva Gülşən Məmmədəli qızı** | 12, 26 (Bakı şəhəri) | Fidan Əliyeva<br>+99477 593 4688 |
| 104. | **Paşazadə Cavanşir Hümmət oğlu** | 12, 26 (Lənkəran şəhəri) | Sulduz Ağayev<br>+99450 328 2123 |
| 105. | **Polad Bülbüloğlu** | 16 (Bakı şəhəri, Milli Məclisin inzibati binası) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 106. | **Rafailov Anatoliy Xaimoviç** | 09, 16 (Quba rayonu) | Məhsəti Əliyeva<br>+99450 277 9665 / +99450 211 0573 |
| 107. | **Rəhimzadə Vüqar Gəncəli oğlu** | 18 (Naxçıvan MR, Ordubad rayonu)<br>26 (Naxçıvan MR, Culfa rayonu) | Məhərrəm Əliverdiyev<br>+99470 230 0777 |
| 108. | **Rüstəmxanlı Tənzilə Yolçu qızı** | 12, 26 (Neftçala rayonu) | Fərman Hüseynov<br>+99477 550 5131 |
| 109. | **Rzayev Tahir Musa oğlu** | 19, 27 (Ağcabədi rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 110. | **Salahlı Səyyad Adil oğlu** | 11 (Saatlı rayonu)<br>20 (İmişli rayonu) | Barat Xəlilov<br>+99450 734 4944 |
| 111. | **Salmanova Səbinə Qədir qızı** | 13, 20 (Sumqayıt şəhəri) | Mirmahmud Mahmudov<br>+99470 288 9638 |
| 112. | **Seyidov Səməd İsmayıl oğlu** | 21, 28 (Qazax rayonu) | Akif Əmirov<br>+99450 791 2111 |
| 113. | **Seyidzadə Şahin Kamil oğlu** | 17 (İsmayıllı rayonu)<br>30 (Şamaxı rayonu) | Elman Mikayılov<br>+99450 600 2550 |
| 114. | **Səfərov Nizami Abdulla oğlu** | 10, 30 (Tovuz rayonu) | Milli Məclisin qəbul otağı<br>+99412 510 9938 |
| 115. | **Səmədzadə Ziyad Əliabbas oğlu** | 12, 19 (Bakı şəhəri) | Quliyev Azad<br>+99450 216 4311 |
| 116. | **Süleymanlı Mahir Tahir oğlu** | 12, 26 (Şabran rayonu) | Zöhrə Rəhimova<br>+99450 888 4656 |
| 117. | **Şükürov Zaur Ramiz oğlu** | 12 (Abşeron rayonu)<br>12 (Sumqayıt şəhəri)<br>19 (Bakı şəhəri) | Aslan Talıbov<br>+99455 283 6367 |
| 118. | **Vəliyev Ağalar İsrəfil oğlu** | 21, 30 (Xaçmaz rayonu) | Ilham Musayev<br>+99450 275 0111 |
| 119. | **Vəliyev Samir Əhməd oğlu** | 09, 24 (Bakı şəhəri) | Vüsal Əliyev<br>+99450 277 8842 |
| 120. | **Vəliyeva Mehriban Hidayət qızı** | 09, 30 (Sumqayıt şəhəri) | Ramiz Alıyev<br>+99455 211 3437 |
| 121. | **Vəliyeva Pərvanə Bulut qızı** | 12, 19 (Bakı şəhəri) | Kamil Hacıyev<br>+99455 811 3330 / +99470 8113330 |
| 122. | **Yıldırım Fatma Vidadi qızı** | 12, 26 (Bərdə rayonu) | Fuad Ağayev<br>+99455 420 8040 |
| 123. | **Zabelin Mixail Yuryeviç** | 12, 26 (Bakı şəhəri) | Firdovsi Cahangirov<br>+99450 225 2722 |

**Qəbul saatları və yerləri barədə ətraflı məlumat əldə etmək, həmçinin qəbula yazılmaq üçün cədvəldə qeyd olunan telefon nömrələri ilə əlaqə saxlamaq tövsiyə olunur.**

# Demokratiyanın iki üzü - ədalətin ikili standartı

## Vaşinqtonun mövqeyi təcavüzkar niyyətlərə köklənib

"Azərbaycan bütün dövlətlərlə, o cümlədən ABŞ ilə münasibətlərin hamılıqla qəbul edilmiş beynəlxalq hüquq normalarında nəzərdə tutulan prinsiplər əsasında qurulmasında, hər iki dövlətin və xalqlarımızın mənafeyinə xidmət edən formada inkişafında daim maraqlı olub. Ölkəmiz bir çox istiqamətlərdə əməkdaşlıqda ABŞ ilə səmimi davranıb, lakin təəssüflər olsun ki, Vaşinqton üçün ümumbəşəri dəyərlər bir qayda olaraq arxa plana keçib".



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Bəhruz Məhərrəmov deyib. O bildirib ki, ötən dövr ərzində Vaşinqton Cənubi Qafqazda Azərbaycan və Ermənistan arasında münaqişənin davamlılığı üçün bütün imkanlarını səfərbər edib, beləliklə, bölgədə daim köməyinə ehtiyac duyulan subyekt olaraq Amerikanın mövcudiyyətinə zərurət yaratmağa yönəlib. Vaşinqton yalnız birtərəfli qaydada öz maraqlarını düşünərək regionda sülh, sabitlik, inkişaf, təhlükəsizlik amillərinə yalnız imperialist prizmadan baxıb. Lakin Azərbaycanın Vətən müharibəsi və antiterror tədbirlərində müstəsna qələbələri işğal və təcavüzə son qoymaqla regionda, nəhayət ki, sülh və əmin-amanlıq, dayanıqlı sabitlik üçün unikal tarixi imkan yaradıb, qlobal miqyasda əsas problemlərdən biri hesab edilən separatizmlə mübarizədə effektiv və həlledici yol xətirəsi ortaya qoyub, beynəlxalq hüququn aliliyi təmin edilib. "Bu situasiya, əslində, ABŞ-nin də maraqlarına cavab verir, çünki BMT Təhlükəsizlik Şurasının əsas üzvlərindən biri və hakim mövqeyə malik subyekti kimi Amerika erməni işğalı və təcavüzünü pisləyən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsinin o zamana qədər icra olunmamasına görə məsuliyyət daşıyırdı. Bu mənada ölkəmiz hərbi-siyasi qələbələri ilə 30 illik işğala və təcavüzə son qoymaqla, əslində, ABŞ-nin özünü utancdan qurtarıb. Lakin ABŞ göstərdi ki, onun üçün vacib olan beynəlxalq hüququn aliliyi, qlobal təhlükəsizlik deyil, təcavüzkar mahiyyətdə ifadə olunan imperialist niyyətlərdir. Belə ki, Vətən müharibəsində Azərbaycanın öz ərazilərini işğaldan azad etməsindən sonra biz ABŞ-nin ayrı-ayrı strukturlarında, o cümlədən hakimiyyətin birbaşa himayəsi altında olan media qurumları və "beynəlxalq insan haqları" təsisatlarının bəyanatlarında mövcud reallığı qəbul etməyən, Cənubi Qafqazda sülh və sabitlik ehtimalından ciddi narahat olan bir mövqe müşahidə etməyə başladıq. Antiterror tədbirlərindən sonra isə artıq ABŞ-nin Dövlət Departamenti bütün diplomatik etiketi və beynəlxalq hüququn prinsipial tələblərini bir kənara qoyaraq media nümayəndələri, yaxud insan haqları təsisatlarının dili ilə yox, özü birbaşa Azərbaycana münasibətdə qarayaxma kampaniyasının fiquruna çevrildi", - deyə o əlavə edib.

B.Məhərrəmov qeyd edib ki, ABŞ-nin bu davranışları bizim üçün təəccüblü deyil, çünki Azərbaycan dəfələrlə bu ölkədən ikili standartları müşahidə edib. 1990-cı illərin əvvəllərində çoxsaylı soyqırımı cinayətlərinə, o cümlədən işğal və təcavüzə məruz qaldığımız bir dönəmdə ABŞ ikili standartlar nümayiş etdirərək "Azadlığa Dəstək Akt"ına 907-ci düzəlişi qəbul etməklə, əslində, cinayətləri dəstəklədiyini göstərmişdi. Yaxud möhtərəm Prezidentin Cəbrayıl ictimaiyyəti ilə görüşündə də ifadə etdiyi kimi, Əfqanıstan missiyası zamanı Azərbaycanın köməyinə ehtiyac duyduğu zamanlarda ölkəmizin ünvanına təriflər yağdıran Ağ ev administrasiyası ABŞ qoşunları Əfqanıstandan çıxdıqdan sonra Azərbaycana münasibətdə maskasını da çıxarıb atmışdı. Lakin məlumdur ki, Prezident İlham Əliyevin qətiyyəti, dövlətimizin artan güc və imkanları, xüsusən qələbələrimizdən sonra regionda yaratdığı geosiyasi konfiqurasiya fonunda milli maraqlarını əminliklə qoruya və realizə edə biləcək güc kimi Azərbaycan özünü dəfələrlə təsdiq edib. Bu situasiya ABŞ-yə dünyanın digər bölgələrində davrandığı kimi hərəkət etmək imkanı vermirdi. Lakin ölkəmizin COP29-a evsahibliyi etməsi isə Vaşinqton üçün unikal imkan kimi görünməyə başladı.

Deputat vurğulayıb ki, belə həssas dönəmdə Azərbaycana və Prezidentinə təzyiqin mümkünlüyünü düşünən ABŞ-nin Dövlət Departamentinin muzdlulardan ibarət olan konqresmenlərinin Dövlət katibinə müraciəti formasında Azərbaycanla sanksiyalar dilində danışmağa başlaması bu "unikal" imkandan istifadə etmək cəhdidir: "Aydındır ki, cənab Prezidentin Cəbrayıl şəhərindən də ifadə etdiyi kimi, konqresmenlərin imzaladığı böhtanla dolu, Azərbaycana qarşı ayrı-seçkiliyi ifadə edən, Ermənistanın gücləndirilməsi və bu ölkənin yenidən Azərbaycan ərazilərini işğal və təcavüzə təşviq edən təxribat xarakterli müraciətin müəllifi, əslində, Dövlət Departamenti və şəxsən ABŞ Dövlət katibi Entoni Blinkendir. Təəccüblü deyil ki, Vaşinqton bu dəfə də insan haqları və demokratiya amilləri adı altında pərdələnərək regiona hücumunu ümumbəşəri dəyərlərlə əlaqələndirməyə çalışır. Baxmayaraq ki, öz ərazisindən 10 min kilometrlərlə kənarda məhz bu amillərlə pərdələnərək ABŞ-nin törətdiyi çoxsaylı hərbi-siyasi cinayətlərin izləri hələ də qalmaqdadır. Yaxud ABŞ hələ də ən mühüm insan haqları konvensiyalarına qoşulmayıb, o cümlədən BMT-nin işgəncələrə qarşı xüsusi məruzəçisi artıq illərdir ki, ABŞ-nin bir sıra həbsxanalarına, həmçinin dünyanın işgəncə mərkəzi hesab olunan Quantanamaya buraxılmır. Yaxud bu gün insan haqları və demokratiyadan dəm vuran ABŞ elə özünün vasitəçi qismində təmsil olunduğu, Ermənistanın təcavüzkar siyasəti nəticəsində meydana çıxan Azərbaycan-Ermənistan münaqişəsi zamanı bir milyondan artıq insanın təməl haqlarından məhrum olması, evindən-eşiyindən işgəncələr və insan ləyaqətini alçaldan digər üsullarla didərgin salınması şəraitində bir dəfə də olsun reallığa qiymət verən mövqe nümayiş etdirməmişdi. Yaxud Azərbaycanı "etnik təmizləmədə" günahlandıran konqresmenlər cəmi 150 il əvvələ qədər bu ölkənin əsl sahibləri olan qızıldərililərə tutulan divanı və onların məruz qaldığı, sözün əsl mənasında, etnik təmizləməni unutmamalıdırlar".

B.Məhərrəmov bildirib ki, amerikalı konqresmenlərin müraciətində ikrah və gülüş doğuran digər amil onların Ermənistanı demokratik dövlət adlandırmasıdır. Amma hələ də regionda həbsdə olan ən çox jurnalist və siyasətçi məhz Ermənistandadır. Konqresmenlərin bu məsələyə kor olmaqla, əslində, məqsədlərinin insan haqları, demokratiya, yaxud digər hər hansı ümumbəşəri niyyət olmadığı, sadəcə, bu amillərdən ənənəvi olaraq silah kimi istifadə etdikləri bəllidir. "Təbii ki, belə olan tədqirdə, ABŞ ilə Azərbaycan arasında münasibətlər heç nə olmamış kimi davam edə bilməz və azərbaycanlı deputatların bu prosesə reaksiyası kifayət qədər adekvat və gözləniləndir. Milli Məclisin bir qrup deputatının ABŞ və Azərbaycan arasında münasibətlərin yenidən nəzərdən keçirilməsi ilə bağlı müraciəti birmənalı şəkildə münasibətlərimizin gələcək inkişaf tendensiyalarını kölgələmək deyil. Azərbaycan bütün dünya xalqları, o cümlədən ABŞ ilə münasibətlərin yüksələn xətt üzrə inkişafının tərəfdarıdır. Lakin bu münasibətlər qarşılıqlı xarakter daşımalı, birinin digəri üzərində hegemonluq niyyətində ehtiva olunmamalıdır. Təəssüflər olsun ki, Vaşinqtonun hazırkı mövqeyi məhz təcavüzkar niyyətlərə köklənib və ABŞ-nin dünyanın digər bölgələrində olduğu kimi, Azərbaycanda da öz uyğunsuz iradəsinin yeridilməsinə hesablanıb. Belə olan tədqirdə isə, təbii ki, Azərbaycan proseslərə göz yumaraq dözmək niyyətində deyildi və deputatlarımızın ABŞ ilə münasibətlərin yenidən nəzərdən keçirilməsi barədə təklifi ilk növbədə Vaşinqtondan gələn davranışa adekvat reaksiyadır", - deyə o əlavə edib.

Siyasətçi vurğulayıb ki, əgər ABŞ regionda sülh və sabitlik üçün təhdid yaradan siyasət yürüdürsə, 30 il işğal və təcavüzü davam etdirmiş Ermənistanın yenidən hərbi cəhətdən gücləndirilməsinə xidmət edən addımlar atırsa, 1997-ci ildə imzalanmış "Azərbaycan Respublikası və ABŞ arasında gələcək hərbi və müdafiə əlaqələri haqqında" Birgə Bəyanatın heç bir önəmi qalmır, yaxud 2013-cü ildə imzalanmış "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Amerika Birləşmiş Ştatlarının Müdafiə Nazirliyi arasında avadanlığın alınması və qarşılıqlı xidmət haqqında" Saziş formal bir sənədə çevrilir. Belə olan tədqirdə, həmin müqavilələrin formallıq xatirinə qüvvədə qalması, yaxud eyni məzmunda yeni müqavilələrin razılaşdırılması, uzadılması və ya yeni müqavilələrə hər hansı formada hazırlığın önəmi yoxdur. Azərbaycan xalqı özünün çoxəsrlik dövlətçilik ənənələrini davam etdirərək Konstitusiyasını qəbul edərkən ümumbəşəri dəyərlərə sadiq olaraq bütün dünya xalqları ilə dostluq, sülh, əmin-amanlıq şəraitində yaşamağı və bu məqsədlə qarşılıqlı fəaliyyət göstərməyi ali niyyət kimi müəyyənləşdirib. ABŞ bu ali niyyətin əsl mahiyyətini dərk etməli, anlamalıdır ki, bu bölgədə yalnız və yalnız bərabərhüquqlu əməkdaşlıq formatında mövcudiyyətini və maraqlarını təmin edə bilər. Əks halda regionun hərbi-siyasi güc mərkəzi kimi Azərbaycan milli maraqlarımıza zidd hər hansı konfiqurasiyanın formalaşmasına imkan verməyəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## ABŞ Azərbaycana qarşı çirkin kampaniyalarını aktivləşdirir

Dörd ildir ki, Azərbaycanın regionda yaratdığı reallıqlarla heç cür barışa bilməyən ABŞ və Qərb hər fürsətdə ölkəmizə qarşı qarayaxma kampaniyaları aparır. Bu ölkələrin rəsmiləri çıxışlarında tez-tez Azərbaycan və Ermənistan münasibətlərinin normallaşdırılmasını dəstəklədiklərini ifadə etsələr də, əslində, İrəvana silahlar verməklə onu revanşa sürükləyirlər.



İkili standartlar, ədalətsiz və qərəzli siyasət yürüdən ABŞ indi də COP29 ərəfəsində ölkəmizin imicinə xələl gətirməyə çalışır. Belə ki, antiazərbaycançı qüvvələrin fəallaşdığı aydın müşahidə edilir.

Milli Məclisin deputatı Ceyhun Məmmədov "Azərbaycan" qəzetinə açıqlamasında bildirib ki, bu gün ABŞ -nin Azərbaycana qarşı həyata keçirdiyi siyasətdə qərəz, ədalətsiz münasibət açıq-aydın görünür. Azərbaycanın hər zaman Amerikanın yanında olmasına, iki ölkə arasında uzun illərə dayanan əlaqələrə, təhlükəsizlik, enerji və digər sahələrdə sıx əməkdaşlığa baxmayaraq, rəsmi Vaşinqton bir tərəfdən, Azərbaycanla dostluq etmək istədiyini deyirsə, digər tərəfdən də, ölkəmizə qarşı qarayaxma kampaniyalarını aktivləşdirir: "Təbii ki, burada Ermənistanın rolu var. ABŞ Ermənistanı silahlandıran ölkələrdən biridir. Ermənistanda hərbi baza yaratmağa çalışır, bölgəmizdə sülhə deyil, ədavətin qızışdırılmasına yönəlmiş addımlar atmağa davam edir. Ona siyasi dəstək verir. Bu da birmənalı olaraq Azərbaycan tərəfindən ciddi şəkildə etirazla qarşılanır. Bir neçə gün öncə Milli Məclisin deputatları da bu məsələ ilə bağlı Azərbaycan Xarici İşlər Nazirliyinə müraciət ediblər. Azərbaycan ABŞ ilə münasibətlərin inkişafında maraqlıdır. Bununla belə, Amerikanı siyasətindəki qərəzə, ədalətsizliyə son qoymağa çağırır".

Siyasətçi vurğulayıb ki, on min kvadratkilometr ərazisi ermənilər tərəfindən dağıdılan Azərbaycana qarşı bu kimi addımlar atılmamalıdır. Ölkəmiz həmişə haqqın yanında olub, hər zaman öz siyasətində ədalət prinsipini qoruyub. Ermənistanın ərazilərimizi barbarcasına dağıtması, on minlərlə azərbaycanlının qətlə yetirilməsini ABŞ nəzərə almır. Xocalı soyqırımını törədən Ermənistanla bağlı heç bir addım atılmır, ona qarşı heç bir sanksiyalar tətbiq edilmir. Amma Azərbaycana qarşı sanksiyaların tətbiqindən söhbət gedir. "Bunun üçün ABŞ, Fransa tərəfindən işlər aparılır. Bütün bunlar isə ədalətsizlikdir, qərəzdir. Bunlara son qoyulmalıdır", - deyə o əlavə edib.

***Ə.QARDAŞXANOVA,***
***"Azərbaycan"***

## Avropa İttifaqı ölkələri idarəetmə böhranı ilə üzləşib

### Bəzi Qərb dövlətləri seçicilər qarşısındakı öhdəliklərini yerinə yetirə bilmirlər







Avropa idarəolunmaz hala düşüb. Aİ ölkələrinin sakinləri siyasətçilərin uşaq kimi dava salmasından şikayətlənirlər. Amerikanın nüfuzlu "The Wall Street Journal" (WSJ) nəşri yazır ki, hökumətlər hələ ən aktual və kəskin olanları - miqrantların sayının artması, Ukraynadakı münaqişə və iqtisadi durğunluğu saymasaq, sadə məsələlərdə belə ortaq dil tapmaqda çətinlik çəkirlər.

Bu yaxınlarda keçirilən debatda bir alman seçicisi kansler Olaf Şoltsu kəskin tənqid edib: "Hökumət ölkəni idarə etmək iqtidarında deyil, nazirlər isə uşaq kimi dava salırlar. Şolts isə bu "zərbəni" dəf etmək əvəzinə, opponentin haqlı olduğunu etiraf edib. Həqiqət budur ki, siz haqlısınız. Bəs siz nə edərdiniz?"

Dialoq bir vaxtlar nümunəvi idarəetmə modeli kimi nümayiş etdirilən Avropanın ən böyük iqtisadiyyatında ciddi rezonans doğurmayıb. İndi artıq hamı tərəfindən qəbul edilir ki, siyasətçilərin razılaşa biləcəyi çox az şey var. Onlar nəinki razılaşmaları praktikada tətbiq etmək, adi razılalaşmalara gəlməkdə belə çətinlik çəkirlər.

İfrat sağçı "Almaniya üçün Alternativ" Partiyasının son seçki uğurları Şoltsun parçalanmış hökumətinə daha bir zərbə vurub.

Onilliklər ərzində Almaniya ilə yanaşı Avropa İttifaqının hərəkətverici qüvvəsi olan Fransa, iyun seçkilərinin nəticələrinə əsasən parlament kürsülərinin bir çox partiya arasında bölünməsindən sonra oxşar siyasi iflic vəziyyətindədir.

Sol partiyaların koalisiyası Milli Assambleyada yerlərin əksəriyyətini qazansa da, prezident Emmanuel Makron sağ mərkəzçi hökumət qurub. Bu qərar onun hökumətini Marin Le Penin rəhbərlik etdiyi ifrat sağçı "Milli Birlik" Partiyası qarşısında xüsusilə həssas edib. Əgər millətçi partiya hökumətə etimadsızlığa səs vermək və ya təqdim olunan büdcəni dəstəkləməkdən imtina etmək qərarına gəlsə, müvəqqəti tarazlıq dərhal pozulacaq.

Siyasi parçalanma və qütbləşmə ölkəni yalnız sol və sağ partiyalar arasında müxtəlif koalisiyalar vasitəsilə müvəqqəti idarə edə bilən siyasi liderlərin əl-qolunu bağlayıb. Hökumətlər ən aktual problemlərdən bəzilərinin - artan mühacirlərin, Ukraynadakı münaqişənin və durğun iqtisadiyyatın öhdəsindən gəlmək bir yana dursun, hətta əsas məsələlərdə də ümumi dil tapa bilmirlər.

"Eurasia Group" konsaltinq şirkətinin baş direktoru və Aİ-nin sabiq rəsmisi Müctəba Rəhman yaranmış acınacaqlı vəziyyəti belə izah edir: "Liderlər zəruri təcili tədbirlərə dair konsensus ətrafında çoxluq təşkil edə bilmirlər və etməyəcəklər. Populist dalğalanmanın səbəbləri - zəif iqtisadiyyat və kütləvi miqrasiya ilə mübarizə aparmaq üçün qətiyyətli islahatların olmaması bu pis dairəni davam etdirir".

Nəticədə, Aİ və üzv hökumətlər seçicilər qarşısında öhdəliklərini yerinə yetirmirlər və rəqibləri ABŞ və Çindən daha da geri qalmaq riski ilə üzləşirlər. Paralel olaraq artan borclanma xərcləri və ləng iqtisadi artım, hətta Almaniya kimi bir vaxtlar güclü dövlətlərdə belə əhalinin vergi yükünün artmasına səbəb olur.

Şoltsun SDP, "Yaşıllar" və biznes tərəfdarı Azad Demokratların daxil olduğu işıqfor koalisiyası, sorğuların nəticələrinə görə əksər insanların daha az aktual hesab etdiyi bəzi məsələlərdə - marixuananın leqallaşdırılması və gender kimliyinin identifikasiyasında razılığa gələ bilib.

Bir sıra digər məsələlərdə konsensusa gəlmək mümkün deyil. Avropa ölkələri Ukraynanın ehtiyaclarını ödəmək üçün silah istehsalının artırılmasına nail olmaq və ya miqrasiya ilə bağlı qitə miqyasında siyasət haqqında razılığa gəlmək üçün mübarizə aparır. Almaniya hökuməti mənzil böhranını yumşaltmaq, bürokratik əngəlləri azaltmaq, infrastrukturu yaxşılaşdırmaq və cinayətləri azaltmaq üçün verdiyi vədləri yerinə yetirə bilməyib. Almaniyada korporativ gəlir vergisi oxşar inkişaf səviyyəsinə malik ölkələr arasında ən yüksəkdir, infrastruktur dağılır. Məsələn, ötən ay Drezdendə təmir işlərinin ləngiməsi səbəbindən Elba çayının üzərindəki körpü uçub.

Makronun dövlət xərclərini azaltmaq vədlərinə baxmayaraq, reallıqda Fransanın büdcə kəsiri və borcu yalnız onun hakimiyyəti dövründə artıb. Ölkənin iqtisadi inkişafındakı əsas problemlər kütləvi işsizlik, maliyyəyə zəif çıxış, qeyri-sabit vergi siyasəti, səmərəsiz hökumət bürokratiyası, siyasi və makroiqtisadi qeyri-sabitlik, ixtisaslı kadr çatışmazlığı ilə bağlıdır.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## Revanşistlərə növbəti zərbə

### Uğursuz keşiş Paşinyan əleyhinə etirazlarda kütləviliyi təmin edə bilmir

Ermənistanda keçmiş hərbi xunta təmsilçilərinin təşkilatçılığı ilə baş nazir Nikol Paşinyanın əleyhinə etiraz aksiyaları davam edir. Bu aksiyada erməni din adamlarının adlarının hallanması, əslində, Azərbaycanla Ermənistan arasında aparılan danışıqları hərbi-siyasi, diplomatik kontekstdən çıxarıb dini aspektlərə yönəltmək cəhdidir. Burada əsas məqam da etirazlara yenə də erməni keşiş Baqrat Qalstanyanın başçılıq etməsidir.

Bu dəfə İrəvanda "Müqəddəs Hərəkat" adı altında insanları etirazlara səsləyən Qalstanyan "Respublika" meydanında Paşinyan əleyhinə fikirlər səsləndirib, onun istefasını tələb etdikdən sonra İctimai Televiziyanın binasına doğru yürüş edib. Telekanalın direktoru bildirib ki, onlar yepiskopun canlı müsahibəsini efirə verə bilərlər. Baqrat bununla razılaşıb və İctimai Televiziyada danışıb. O həmçinin bildirib ki, bu toplanışla mübarizənin həlledici mərhələsi başlayır: "Müqəddəs Mübarizə" hərəkatı küçədə bir nəfər qalana qədər davam edəcək: "Mən fiziki olaraq küçədəyəm. Amma onlar (hakimiyyət - red.) küçədə doğulublar və ruhən orada qalıblar".

Dünən isə Qalstanyan Konstitusiya Məhkəməsinin bütün keçmiş və indiki hakimlərini məhkəmənin qarşısına çıxmağa dəvət edib.

Ermənistanın sabiq müdafiə naziri Arşak Karapetyan isə deyib ki, Paşinyan rejimi bütün sahələrdə: orduda, hökumətdə və iqtisadiyyatda uğursuzluğa düçar olub. Qeyd edib ki, Nikol Paşinyan dövründə Ermənistanın xarici borcu yeni rekord qıraraq 12 milyard dollar həddini keçib. Bu məbləğlərin hara getdiyi bəlli deyil. Mütləq iqtisadiyyatın real sektoruna, yeni iş yerlərinin açılmasına, sosial-iqtisadi problemlərin yumşaldılmasına yönəldilməyib. Bu məbləğlər dolayısı ilə 13-cü maaşlar vasitəsilə Paşinyanın partiyasının üzv-



lərinin ciblərinə axıdılır və korrupsiya sxemləri ilə Ermənistan hakimiyyətinin ofşor hesablarına köçürülür. Ölkənin regionlarında iş yerləri yoxdur, kəndlər məhv olur, miqrasiya artıq milli təhlükəsizlik məsələsinə çevrilib.

Qeyd edilib ki, ordu qeyri-peşəkar kadrlar hesabına zəifləyir. Belə ki, ölkənin müdafiə naziri ixtisasca tarix müəllimidir və hərbi işlərlə, ordu idarəçiliyi ilə heç bir əlaqəsi yoxdur. Paşinyan daim yeni silahlar elan edir, lakin bu bəyanatlar yalnız kağız üzərində qalır. Ermənistan silahlı qüvvələrinin zabitləri maaşlarının az olması səbəbindən kütləvi şəkildə ölkəni tərk edirlər. Ordu və zabitləri adekvat şəkildə maliyyələşdirmək əvəzinə bu gün İrəvan küçələrində Paşinyanın hakimiyyətini müdafiə edən polisin maliyyələşdirilməsinə milyardlar xərclənir.

Ermənistan parlamentinin "Vətəndaş Müqaviləsi" fraksiyasının deputatı, ölkənin keçmiş səhiyyə naziri Arsen Torosyan isə ölkədəki xristian kilsəsinin 1700 illik tarixini tamamilə məhv edilməli olan mif hesab edir. O həmçinin kilsəni erməni dövlətçiliyini məhv etməkdə ittiham edib: "1700 illik tarixdə dəfələrlə təkrarlanan erməni dövlətçiliyinin məhvinə kilsənin bilavasitə töhfəsi tükənəcək, Ermənistan süquta uğramayacaq".

Göründüyü kimi, hər iki ölkə arasında sülh müqaviləsinin imzalanmasının aktual olduğu bir dönəmdə hərbi xunta və ona bənzər digər araqızışdıranlar erməni xalqını növbəti dəfə fəlakətə sürükləyirlər.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Sabit və təhlükəsiz Azərbaycan

## Mürəkkəb qlobal gərginlikdə respublikamız sabitliyini və inkişafını uğurla təmin edir

Çağdaş dünyamızın vəziyyəti mürəkkəb, ziddiyyətli və təzadlıdır. Çünki planetimizin tablosunda inkişaf da var, tənəzzül də. Rifah da var, səfalət də. Müharibə də var, sülh də.

### Dünyada kataklizmlər nəinki səngiyir, əksinə, daha da çoxalır

Diqqəti daha çox çəkən isə odur ki, hərbi və siyasi kataklizmlər nəinki səngiyir, əksinə, daha da çoxalır. Başa çatan bir müharibədən və ya münaqişədən sonra başqaları yaranır. Bəzi ölkələr etnik, dini qarşıdurmaların və terrorçuluğun fəsadlarından, bəziləri isə bitməyən siyasi çəkişmələrdən əziyyət çəkir. Texnoloji inkişafın yaratdığı imkanlardan yararlanaraq son illərdə daha da güclənən kibercinayətkarlıq qlobal təhlükə kimi bütün dövlətləri təhdid edir.

Nəticə etibarilə bütün bunlar xalqların taleyində dərin iz buraxır, onlara ağır mənəvi zərbə vurur və məhrumiyyətlərə düçar edir. Müharibə dövlətlərin və onların xalqlarının faciəsi, iqtisadi, milli və mənəvi tənəzzülü deməkdir. Məhv edilən iqtisadiyyatın bərpası üçün uzun onilliklər belə bəs etmir. Yaxın Şərqdə, ərəb ölkələrində uzun illərdir davam edən qarşıdurmaların sonu görünmür. Elə Azərbaycana nisbətən yaxın olan bəzi coğrafiyalarda da mürəkkəb hərbi-siyasi konyunktura müşahidə edilir. İraqda, Suriyada terrorun kökünü tamamilə kəsmək hələ də mümkün olmayıb.

Bütün bu deyilənlər bir daha təsdiq edir ki, sabitlik hər bir dövlət və xalq üçün olduqca vacib məsələdir. Lakin müasir dünyamızın reallıqları həm də ondan xəbər verir ki, sabitlik yolunu addımlamaq, inkişafa nail olmaq, nailiyyətlər əldə etmək heç də hər ölkəyə nəsib olmur.

Beynəlxalq miqyasda özünü göstərən belə gərgin şəraitdə Azərbaycanda sabitliyin hökm sürməsi dövlətimizin və xalqımızın ən böyük uğurlarından biridir. Respublikamızın əldə etdiyi bütün nailiyyətlərin kökündə dayanan əsas amillərdən biri məhz sabitlikdir.



### Azərbaycanın inkişafının təməlində dayanan əsas faktorlardan biri sabitlikdir

Azərbaycanı bugünkü sabitliyə gətirən yollar heç də hamar olmayıb. Ötən əsrin 90-cı illərinin əvvəllərində respublikamızda cərəyan edən proseslər orta və yaşlı nəslin yaxşı xatirindədir. Həmin illərdə anarxiyanın, xaosun, separatizmin baş alıb getdiyi, hakimiyyətdə olan qüvvələrin səriştəsizliyi, idarəçilikdə buraxdıqları bağışlanmaz səhvlər şəraitində hansı sabitlikdən danışmaq olardı. Hansı ki, bunlar Azərbaycanın müstəqilliyi və dövlətçiliyi üçün böyük təhdidlər doğurmuşdu.

Yalnız Ulu Öndər Heydər Əliyevin xalqın istək və arzusu ilə siyasi hakimiyyətə gəlişindən sonra respublikamız bütün bu problemlərdən xilas oldu. Başlıcası siyasi-ictimai sabitlik təmin edildi. Bunun üçün təhlükə doğuran zərərli meyillərə, qanunsuz silahlı birləşmələrə qarşı uğurlu və təxirəsalınmaz tədbirlər həyata keçirildi.

Azərbaycanın uğurları çoxdur. Ən böyük uğurlarından biri isə qeyd etdiyimiz kimi sabitlikdir. Sabitliyin təmin olunması qarşıda dayanan vəzifələrin yerinə yetirilməsində əsas amildir. Azərbaycan dünyanın ən təhlükəsiz ölkələrindən biri olaraq tanınmaqdadır. Bakının beynəlxalq tədbirlər mərkəzinə çevrilməsinin də əsas səbəblərindən biri məhz ölkəmizdəki möhkəm sabitlikdir. NATO və Rusiya hərbi komandanları arasında yüksəksəviyyəli görüşlərin keçirilməsi üçün Bakının seçilməsi də respublikamızdakı sabitliyə görədir.

### İlham ƏLİYEV: "Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır"

Azərbaycan həm də makroiqtisadi baxımdan davamlı və dayanıqlı iqtisadi inkişafa malik ölkə kimi tanınır. Bir neçə il qlobal səviyyədə özünü göstərən iqtisadi böhran da respublikamızın iqtisadi və sosial sabitliyinə xələl gətirə bilmədi və Azərbaycan bütün bu sınaqlardan alnıaçıq çıxdı.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, Azərbaycan dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır: "Biz görürük ki, sabitlik pozulanda inkişafdan söhbət gedə bilməz. Sabitlik pozulanda xarici müdaxilə baş verir, ölkələr idarəolunmaz vəziyyətə düşür, qardaş qanı tökülür və ölkələrin gələcəyi böyük sual altına düşür. Azərbaycanda sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Ona görə xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas şərtidir. Azərbaycan bu gün dünya miqyasında sabitlik məkanı, sabitlik adası kimi tanınır və bu, bizim böyük nailiyyətimizdir".

Son illərədək Azərbaycandakı sabitliyə təhdid yaradan əsas problemlər torpaqlarımızın Ermənistan tərəfindən işğal olunması və Qarabağdakı erməni separatizmi idi. Vətən müharibəsində və antiterror tədbirlərində qazanılan zəfərlərdən sonra bütün bu təhdidlər tam aradan qaldırıldı. Ərazi bütövlüyümüzün bərpası ilə Azərbaycan torpaqlarının hər bir nöqtəsində sabitlik bərqərar olundu.

Bu gün Azərbaycana yaxın coğrafiyalarda, qonşu dövlətlərdə təhlükəsizliklə, sabitliklə bağlı problemlər mövcuddur. Ən pisi odur ki, bu problemlərin sonu görünmür və pessimist proqnozlar doğurur. Belə bir regional konyunktura şəraitində Azərbaycan dövləti özünün sabitliyini və inkişafını uğurla təmin edir.

***Rəşad CƏFƏRLİ, "Azərbaycan"***

# Gəncənin raket atəşinə tutulmasından 4 il ötür

## Şəhər əhalisi faciənin qurbanlarını ehtiramla yad edir









Tarixin müxtəlif dönəmlərində Azərbaycan xalqı terror faktlarının, soyqırımlarının acı nəticələrini çox yaşamışdır. 44 günlük Vətən müharibəsində də xalqımız təcavüzkar siyasətlə üz-üzə qaldı. Bununla ermənilərin vəhşi siması bir daha aşkar oldu. Cəbhə bölgəsindən 100 kilometr uzaqda yerləşən Gəncəyə raket zərbələri endirilməsi erməni faşistlərinin təcavüzkar simasını bütün dünyaya göstərdi.

Dörd il əvvəl Ermənistanın növbəti təxribatına cavab verən Azərbaycan Ordusu Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ədaləti bərpa etmək üçün öz suveren hüquqlarının müdafiəsinə qalxdı. Vətən müharibəsi xalqımızın iradəsini, birliyini, əzmkarlığını, fədakarlığını ortaya qoydu. Xalqımız bu sınaqdan qalib kimi çıxaraq, əyilən qamətini düzəltdi. Azərbaycan ermənilər tərəfindən törədilən bütün cinayətlərin qisasını aldı. Ordumuz uğurlu döyüş əməliyyatları apararaq ərazilərimizi işğaldan azad etdi və 30 illik yurd həsrətinə son qoydu.

Lakin həmin dövr ermənilərin dinc əhaliyə qarşı törətdikləri vəhşiliklər gəncəlilərin yaddaşından heç vaxt silinməyəcək. Gecə yarı dinc əhalinin raket hücumuna məruz qalması, qocaların, qadınların, hətta azyaşlı uşaqların qanına qəltan edilməsi necə unudula bilər?!

4 il öncə Gəncə ermənilər tərəfindən 5 dəfə raket atəşinə tutulmuşdur. 2020-ci il oktyabrın 4-də, 5-də, 8-də, 11-də və 17-də atılan raketlər şəhərdə çoxlu dağıntılar törətməklə yanaşı, həm də xeyli sayda insan itkisinə səbəb olmuşdur. Ermənistan KİV-də, eləcə də sosial şəbəkələrdə törətdiyi cinayətləri pərdələməyə, həmin əməllərdən boyun qaçırmağa yönələn xəbərlər yaymağa çalışsalar da, hadisə yerlərindən yerli və xarici jurnalistlərin yaydıqları foto və videogörüntülər, hazırladıqları reportajlar bu yalanları ifşa etdi.

Gəncəlilər isə yaxşı başa düşürdülər ki, bu haqq savaşında ermənilərin törətdikləri qanlı olaylar suda boğulanın saman çöpündən yapışmasıdır. Elə buna görə də Ermənistanın Gəncəni raket atəşinə tutması sakinlər arasında ruh düşkünlüyü yaratmırdı. Əksinə, onlar inanırdılar ki, tezliklə Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycan Ordusu düşmən üzərində qələbə çalacaqdır.

Gəncə faciələrindən 4 il ötür. Şəhər əhalisi bu günlər raketlər düşmüş ərazilərə gəlir, buradakı abidə kompleksini ziyarət edir, dağıntılar zamanı həlak olanların xatirəsinə ehtiram göstərərək önünə gül dəstələri düzürlər.

***Sabir ƏLİYEV, "Azərbaycan"***

# Böyük savaşlar arasında kiçik sabitlik "ada"sı

## **Prezident İlham ƏLİYEV:** "Biz öz gələcək inkişafımızı, təhlükəsiz həyatımızı təmin etməliyik və təmin edəcəyik"

Böyük güclərin dünyaya sahiblik etmək istəkləri dinc insanların qanının tökülməsi ilə müşahidə olunur. Rusiya-Ukrayna arasında başlanan müharibə artıq iki ölkə arasında savaş deyil, bu, Qərblə Şərq arasında silahlı qarşıdurmadır. Bu azmış kimi, indi də Yaxın Şərq qaynayır, hətta o dərəcədə ki, Rusiya-Ukrayna savaşı kölgədə qalıb.

İran-İsrail qarşıdurması isə üçüncü dünya müharibəsinin anonsu ola bilər. Bunu tərəfləri dəstəkləyən dövlət və hökumət başçılarının verdiyi bəyanatlar da sübut edir. Müharibə olarsa, Rusiya ilə Çin açıq şəkildə İranın yanında olacaqlarını bildirirlər. Qərb koalisiyası isə İranı hədələyir, İsrailə hər cür dəstək verəcəyini deyir. Bir sözlə, bu gərginliyin aradan qalxmasına Türkiyədən savayı heç bir güclü dövlət mövqe nümayiş etdirmir.

Xüsusən Çinin İranla bağlı siyasəti təəccüb doğurmamalıdır. ÇXR-in Rusiyadan başqa ucuz neft idxal etdiyi ölkə İrandır. Mütəxəssislər deyirlər ki, İsrail İranın neft obyektlərinə zərbələr endirərsə, bunun bədəlini Çin çox ağır ödəməli olacaq. Yəni ÇXR-in iqtisadi inkişafı dayana bilər. O üzdən "əjdahalar ölkəsi" İranı dəstəkləməyə məhkumdur. Bu arada Beynəlxalq Valyuta Fondu xəbərdarlıq edib ki, əgər İranın neft obyektlərinə zərbələr endirilsə, dünyanın çətin iqtisadi duruma düşəcəyi qaçılmazdır.

O ki qaldı Ukrayna ilə müharibə üzündən Rusiyanın düşdüyü vəziyyətə, onu deyə bilərik ki, bu gün şimal qonşumuza qarşı aparılan bu siyasətin bir məqsədi də gələcəkdə Çinlə aparılacaq haqq-hesaba hazırlıqdır. Məlumdur ki, ÇXR iqtisadi möcüzələri həm ABŞ-ni, həm də Avropanı ciddi narahat edir. ÇXR qlobal iqtisadiyyatda lokomotiv rolunu oynayan Qərbi təkbaşına keçmək istəyir. Dünyanın aparıcı mütəxəssisləri 2030-cu ildən sonra Çinin iqtisadi güc olaraq Amerikanı da ötəcəyini proqnozlaşdırırlar.

Üstəlik, Çinin hərbi gücü də artır. ÇXR-in ordusu təkcə say cəhətdən deyil, həm də yüksək texnologiyalara malik hərbi silah-sursat arsenalı cəhətdən qüdrətlidir. Çin həmçinin son dövrlər hərbi hava qüvvələrinin və dəniz donanmasının imkanlarını xeyli genişləndirib, nüvə silahı da öz yerində.

Ona görə də Qərbin Rusiya və Çinlə bağlı apardığı siyasətin məqsədi bu iki gücün birləşməsinin qarşısını almaqdır. Bunu RF və ÇXR də yaxşı başa düşürlər. Həm də yaxşı başa düşürlər ki, Rusiya Ukrayna ilə savaşda Qərbə uduzsa, sıra Çinə çatacaq. O səbəbdən bu cütlüyün daha da möhkəmlənməsi iki ölkənin ortaq marağıdır.

Yaxın Şərqdə və dünyanın müxtəlif yerlərində baş verən bu qarşıdurmalar fonunda Azərbaycan əmin-amanlıq hökm sürən sabitlik "ada"sıdır. Sözsüz ki, bu uğurumuz Prezident İlham Əliyevin apardığı praqmatik xarici siyasətin nəticəsidir. Dövlət başçısı xarici siyasətdə milli mənafeyimizi rəhbər tutaraq tərəflərlə uzlaşmağı bacarır. Nəticəsi isə göz qabağındadır - coğrafiyamızda yenidən müharibə alovunu yandırmaq istəyənlər istəklərinə nail ola bilmirlər. Azərbaycan 44 günlük Vətən müharibəsində torpaqlarımızı düşmən işğalından azad etdikdən sonra Qərb tərəfindən böyük təzyiqlərə məruz qaldı. Beynəlxalq və regional təşkilatlar da əleyhimizə qərar və qətnamələrin qəbuluna çalışdılar. Prezident İlham Əliyev tərəfindən həyata keçirilən uğurlu xarici siyasət strategiyası nəticəsində bütün həmlələr neytrallaşdırıldı.

Buna baxmayaraq, Ermənistanı silahlandırıb revanşist müharibəyə təhrik etmək istəyənlər dinc durmurlar. Dövlət başçısı bununla bağlı qonşu ölkəyə və onun havadarlarına dəfələrlə ciddi xəbərdarlıq edib. Elə bu günlər Cəbrayıl şəhərində inşa olunan yaşayış kompleksinin açılışında bir daha bu barədə danışmışdır: "Mən Ermənistana da, bax, burada, dağıntılar arasında xəbərdarlıq edirəm: dayandırın bu təhlükəli oyunları! Bir tərəfdən, sülhdən danışırlar, yalan-palan danışırlar, digər tərəfdən, genişmiqyaslı silahlanma gedir. Silahları da kim verir onlara? Fransa və onun kimi anti-Azərbaycan ölkələr. ...Ermənistan təhlükəli oyunlara qoşulub və İkinci Qarabağ müharibəsinin tarixçəsi onların yadından çıxmasın. Onların yadından çıxmasın ki, necə dizüstə bizdən imdad diləyirdilər, necə Rusiyaya gündə bəlkə 10 dəfə ən yüksək səviyyədə müraciət edirdilər ki, müharibə dayandırılsın. O, onların yadından çıxıb. İndi yeni sahiblər tapıblar. O sahiblərin qabağında dizüstə yürüyürlər. Antiterror əməliyyatı onların yadından çıxmasın. Yadından çıxmasın ki, hətta o coğrafiyada biz istədiyimizə nail ola bilmişik. Heç kimə baxmadan, heç nəyə baxmadan cəmi bir neçə saat ərzində separatçılığın kökünü kəsmişik".

Azərbaycanın sülh gündəliyi bütün dünyaya məlumdur. Ölkəmiz Ermənistana ədalətli və beynəlxalq qanunlara uyğun sülh müqaviləsinin imzalanmasını təklif edir. Əgər ermənilər revanşist müharibəyə qalxarlarsa, nə baş verəcəyi onların özlərinə də, havadarlarına da yaxşı bəllidir.

***Rüstəm KAMAL, "Azərbaycan"***

ZƏFƏR gündəliyi
8 oktyabr
2020-ci il

# Erməni əsgəri silahını da, bayrağını da atıb qaçır

### Bərdəyə "Toçka-U" taktiki raket kompleksindən atəş açılıb



Səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər, Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutublar. Mülki əhali arasında ölən və yaralananlar olub.

Bu azmış kimi Ermənistan silahlı qüvvələri Bərdə və Ağcabədi rayonlarının kəndlərini də atəşə tutub.

Bərdə rayonu ərazisinə "Toçka-U" taktiki raket kompleksindən atəş açılıb.

### Düşmənin hərbi kolonu darmadağın edilib

Gecə döyüşləri zamanı Ermənistan silahlı qüvvələrinin hərbi hissə qərargahına, istehkamlarına və silah-sursat anbarlarına artilleriya zərbələri endirilib.

Gündüz saatlarında yerdəyişməyə cəhd göstərən düşmənin döyüş texnikası artilleriya atəşi ilə məhv edilib. Düşmənin hərbi kolonu darmadağın edilib.

### Erməni əsgərinin qoyub qaçdığı zirehli texnikalar qənimət kimi götürülüb

Füzuli rayonunun işğaldan azad olunan Horadiz kəndində erməni hərbçilərin qaçarkən tərk etdiyi zirehli texnikalar bölmələrimiz tərəfindən ələ keçirilib.

Ermənistan silahlı qüvvələri Goranboy, Tərtər və Ağdam rayonlarının kəndlərini artilleriya atəşinə tutublar. Ordumuzun bölmələri tərəfindən düşmənə qarşı adekvat tədbirlər görülüb.

### Ermənistan Füzuliyə qadağan olunmuş fosforlu mərmi atıb

Füzuli rayonunun ərazilərinə ağ fosforlu tüstülü mərmi atılıb. Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin (ANAMA) xüsusi mobil əməliyyat qruplarının Füzuli rayonu ərazisində apardıqları əməliyyat-axtarış tədbirləri zamanı Ermənistan silahlı qüvvələri tərəfindən atılmış 122 millimetrlik tüstülü top mərmisi (D-4) aşkarlanıb. Mərminin tərkibində 3,6 kiloqram ağ fosfor (P-4) olub.

Bu cür mərmilərin mülki əhaliyə və obyektlərə qarşı istifadə edilməsi beynəlxalq humanitar hüququn tələblərinə və prinsiplərinə görə qadağandır.

### Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılıb



Günün ikinci yarısından başlayaraq, bütün cəbhəboyu gərgin döyüşlər davam edib. Azərbaycan Ordusunun bölmələri mühüm istiqamətlərdə düşmənə atəş zərbələri endirərək onun hərəkət fəaliyyətini tam məhdudlaşdırıb və aktivliyinin qarşısını qətiyyətlə alıblar.

Həyata keçirilən hərbi əməliyyatlar zamanı Azərbaycan Ordusunun atəş zərbəsi nəticəsində Ermənistan silahlı qüvvələrinin 5-ci dağatıcı alayının qərargah binası dağıdılıb. Nəticədə binada olan 10-cu dağatıcı diviziyanın qərargah rəisi polkovnik Samvel Qriqoryan ağır yaralanıb, alayın artilleriya rəisi polkovnik-leytenant Arman Dermeyan və xeyli sayda hərbi qulluqçu məhv edilib.

Azərbaycan Ordusunun Xankəndi şəhərinə endirdiyi atəş zərbələrindən ağır itkilərə məruz qalan Ermənistan silahlı qüvvələrinin burada yerləşən hərbi hissələrinin şəxsi heyəti təxliyə edilib. Xankəndidə yerləşən hərbi hissələrdən birinin sığınacağına endirilən artilleriya atəşi nəticəsində xeyli sayda hərbi qulluqçu məhv edilib.

### Düşmənin 19 zirehli texnikası, 5 artilleriya qurğusu, 2 radar sistemi məhv edilib



Gün ərzində ümumilikdə düşmənin 13 ədəd T-72 tankı, 2 ədəd PDM-i, 4 ədəd BM-21 "Qrad" yaylım atəşli reaktiv sistemi, 2 ədəd 2S3 "Akasiya" özüyeriyən artilleriya qurğusu, 3 ədəd D-30 haubitsa topu, 2 ədəd radar sistemi və xeyli sayda avtomobil texnikası dəqiq atəşlə məhv edilib və sıradan çıxarılıb.

Cəbhənin istiqamətlərindən birində həyata keçirilən əməliyyat nəticəsində Ermənistan silahlı qüvvələrinin 49-cu tank briqadasına məxsus 6 ədəd T-72 tankı tam işlək vəziyyətdə ələ keçirilib.

***R.BAXŞƏLİYEV, "Azərbaycan"***




AZERBAIJAN COP29

Yaşıl dünya naminə həmrəylik ili 2024



# Bakı İqlim Fəaliyyəti Həftəsi ambisiyalı öhdəliklər və strateji təşəbbüslərlə yekunlaşıb

COP29 sədrliyi və "British Council" təşkilatı ilə tərəfdaşlıq çərçivəsində "İqlim dəyişmələri üzrə Azərbaycan universitetləri şəbəkəsi" (AUNCC) adlı yeni təşəbbüsə start verilir. COP29 Azərbaycan Əməliyyat Şirkətinin Mətbuat ofisindən AZƏRTAC-a verilən məlumata görə, metan emissiyalarının sürətlə azaldılması sahəsində kardinal dəyişikliyə təkan vermək üçün bir araya gələn aparıcı alimlər, texnologiya təchizatçıları, sənaye liderləri və hökumət rəsmilərinin əsas müzakirə mövzusu metan emissiyalarının azaldılması olub.






Beynəlxalq tədbir ərəfəsində 700-dən çox iştirakçının ölkəyə səfər etməsi, 30-dan çox tədbirin keçirilməsi və elan olunan mühüm yeniliklər qlobal iqlim fəaliyyəti çərçivəsində Azərbaycanın lider mövqeyini daha da möhkəmləndirib.

Bakı İqlim Fəaliyyəti Həftəsi (BCAW) COP29 ərəfəsində ambisiyalı öhdəliklər və innovativ təşəbbüslərlə yekunlaşıb və qlobal iqlim fəaliyyəti çərçivəsində Azərbaycanın lider mövqeyini daha da möhkəmləndirib. Sentyabrın 30-dan oktyabrın 4-dək davam edən birhəftəlik toplantıda 700-dən çox nümayəndənin iştirakı ilə 30-dan artıq tədbir keçirilib. Beynəlxalq iqlim ekspertləri, hökumət rəsmiləri, gənclər və özəl sektor liderlərini bir araya gətirən həmin tədbirlərdə "yaşıl maliyyə", ədalətli keçid, metan emissiyalarının azaldılması, su və dayanıqlı qida sistemləri, eləcə də digər mövzular müzakirə olunub.

Diqqəti cəlb edən əsas məqamlara qabaqcıl gündəlik çərçivəsində ilk müstəqil kənd təsərrüfatı hesabatının təqdim edilməsi daxildir. Birləşmiş Krallığın Xarici İşlər, Birlik və İnkişaf Nazirliyi (FCDO) və BMT-nin İqlim üzrə yüksəksəviyyəli çempionu ilə tərəfdaşlıq çərçivəsində Kənd təsərrüfatında beynəlxalq elmi araşdırmalar üzrə Məşvərət qrupunun (CGIAR) rəhbərliyi ilə hazırlanmış həmin hesabatda qlobal iqlim məqsədlərini dəstəkləmək üçün kənd təsərrüfatı sektorunun transformasiyası baxımından tələb olunan mühüm addımlar təsvir edilib. Hesabat Beynəlxalq Enerji Agentliyi və İqlim üzrə yüksəksəviyyəli çempionlar tərəfindən bu yaxınlarda dərc edilmiş Qabaqcıl Gündəlik Hesabatını tamamlayır və qida təhlükəsizliyi, innovasiya, eləcə də davamlılığı təmin etməklə, kənd təsərrüfatının dekarbonizasiyası üzrə strategiyaları ön plana çəkir. Həmin hesabat kənd təsərrüfatı sənayesində dayanıqlı təcrübələrin geniş tətbiqi üçün mühüm mənbədir.

Gənclərin də iştirakını təşviq etmək məqsədilə Bakı İqlim Fəaliyyəti Həftəsi çərçivəsində "İqlim dəyişməsi üzrə universitetlər şəbəkəsi" təşəbbüsünə start verilib. Bu, gələcək nəslin iqlim həlləri və keçid səylərində fəal rol oynamasına imkan yaratmaq üçün nəzərdə tutulmuş yeni platformadır. Gənclərin iqlim fəaliyyətində iştirak etməsinin vacib olduğunu bir daha vurğulayan "Dayanıqlı gələcək: gənclərin yaşıl innovasiyaları" tədbiri gənc sahibkarlara öz "yaşıl innovasiya"larını potensial investorlara təqdim etmək üçün platforma yaradıb. Gün ərzində iqlim problemlərinin həllinə yönəlmiş dayanıqlı ideyaları təqdim edən gənc liderlərdən ibarət üç komanda uğurlu layihələrə görə yüksək mükafata layiq görülüb. Beləliklə, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi (KOBİA) və Elm və Təhsil Nazirliyinin tərəfdaşlığı ilə keçirilən bu tədbir "yaşıl innovasiya"ların idarə edilməsində Azərbaycan gənclərinin dinamik rolunu nümayiş etdirib. İncəsənət, mədəniyyət və iqlim arasındakı əlaqəni vurğulayan Bakı İqlim Fəaliyyəti Həftəsində tanınmış fotojurnalist Rza Deqqəti və "The Landmark" hoteli ilə tərəfdaşlıq çərçivəsində Bakı şəhərinin mühüm transformasiyasını əks etdirən "Caspian Dreams" adlı fotosərgiyə baxış keçirilib.

Həftə iqlim dəyişməsi, sağlamlıq, rifah və aktiv həyat tərzi arasında əlaqəni vurğulayan Bakı bulvarı boyunca "Walk the Talk" ("Təbliğ etdiyini tətbiq et") iqlim fəaliyyəti yürüşü ilə yekunlaşıb.

Bakı İqlim Fəaliyyəti Həftəsinin uğuru gələn il Rio-de-Janeyro şəhərində oxşar səylərin həyata keçirilməsinə ilham vermiş oldu. Rio İqlim Fəaliyyəti Həftəsinin (#RCAW) 2025-ci ilin noyabrında Braziliyanın Belem şəhərində keçiriləcək COP30-dan əvvəl həyata keçirilməsinə dair müzakirələr davam edir.

Rio-de-Janeyro şəhərinin meri Eduardo Paes deyib: "Bakı kimi Rio-de-Janeyro da daha "yaşıl gələcəy"in təqdim etdiyi imkanlardan istifadə etməklə yanaşı, iqlim dəyişməsinə qarşı təcili tədbirlərin vacibliyini də dərk edir. Mən Azərbaycanın təhlükəsiz, dayanıqlı və davamlı gələcəyin formalaşdırılmasına kömək etmək üçün şəhər, biznes və icmaları bir araya gətirən Bakı İqlim Fəaliyyəti Həftəsinə ev sahibliyi etmək təşəbbüsünü yüksək qiymətləndirirəm. Rio şəhəri "yaşıl keçid"i sürətləndirmək və COP29-dan Braziliyada keçiriləcək COP30-a körpü salmaqda estafeti qardaş Bakı şəhərindən almağı səbirsizliklə gözləyir".

Bakı İqlim Fəaliyyəti Həftəsində (BCAW) əldə olunan iddialı nəticələr və əməkdaşlıq əlaqələri Azərbaycanın iqlim fəaliyyətində qlobal lider mövqeyini bir daha təsdiqləyib.

Beləliklə, BCAW noyabrda keçiriləcək COP29 çərçivəsində Azərbaycanın ambisiyaları artırması və fəaliyyətə təkan verməsi üçün münbit zəmin yaradıb.



# Bakı artıq Neapola bənzəmir

## Neapol və digər gözəl şəhərlər indi Bakıya oxşayır

◆ Bakı COP29-a hazırlaşır

**O, Şərqin parlayan ulduzudur...**

**Sanki həqiqi yox, rəssam fırçasıyla Xəzərin fonunda çəkilmiş sənət incisidir...**

**Qədimliklə müasirliyin təzadından yaranan bu unikal ünvanda yaşı min illəri ötən daşlar, qalalar adamlarla pıçıldaşır...**

**Əzbərpozan müasir memarlığıyla gələcəyə körpü salır...**

**Bura Odlar yurdunun küləklər şəhəridir!..**

**Azərbaycanın paytaxtıdır!**





Küçələri, meydanları, parkları, binaları bir-birindən rəngarəng, maraqlı dizaynı, heyrətamiz görünüşü ilə görənlərini heyrətə salan şəhərlər şəhəri...

Bakı!

Bakını bir zamanlar gözəlliyinə görə İtaliyanın Neapol şəhərinə bənzədirdilər...

Amma indi Neapol və dünyanın digər gözəl şəhərləri Bakıya oxşayır...

Çünki şəhər gündən-günə gözəlliyinə gözəllik qatır. Yaşıllıqlara bürünmüş, bağlarında, parklarında fəvvarələr çağlayan qocaman şəhərin səliqə-sahmanı, təmizliyi göz oxşayır. Ən əsası insanlarının istiqanlılığı, mehribanlığı, qonaqsevərliyi Bakını görənlərin hafizəsinə həkk olunur...

Təkcə Dənizkənarı Milli Parkda yaradılan gözəlliklər buranı insanlarımızın, eləcə də xarici turistlərin üz tutduğu ən seçilmiş ünvanlardan birinə çevirib. Şəhərin digər yamyaşıl parkları, bağları da onun kimi...

Bakının gündüzlər bir, gecələr isə bambaşqa görünüşü olur. Sayrışan rəngbərəng işıqlar, böyük çilçıraqlarla işıqlandırılan binalar şəhərin gecəsini də gündüzə çevirir. Qaranlıqda Dağüstü parkdan seyr etdikdə görürsən ki, Bakı sözün əsl mənasında bərq vurur. Şəhərdən saçılan işıqlar Xəzərin sinəsində parlaq işıq selinə çevrilir. Gözəlliyi ilə dünya şəhərlərini geridə qoyan Bakımız indi bütün təntənəsi ilə COP29-u qarşılamağa hazırlaşır. "Yaşıl dünya" naminə gördüyü fərəh yaradan işlər, yeni uğurlu layihələr, ümumilikdə dünyanın yaşıllaşmasına verdiyi töhfələrlə yaddaşlarda silinməz izlər buraxır.





Çox tezliklə dünyanın dörd bir yanından insanlar tolerantlığın, multikulturalizmin beşiyi olan ölkəmizə yığışaraq gözəl Bakımızdan dünyanın yaşıllaşması, ümumilikdə Yer üzünün xilası üçün sülh, dostluq çağırışı edəcəklər.

*Yasəmən MUSAYEVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*

# *Ekspert:* "COP29-dan yeni iqlim maliyyəsi hədəfləri üzrə irəliləyiş gözləyirəm"



"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) enerji keçidi məsələsində yeni hədəflər formalaşdırmalı və inkişaf etməkdə olan ölkələrdə "yaşıl keçid"in sürətləndirilməsinə diqqəti artırmalıdır". Bu barədə "Report"a açıqlamasında davamlı maliyyələşdirmə sahəsində tanınmış mütəxəssis, "D.A.Carlin and Company"nin təsisçisi Devid Karlin bildirib.

Onun sözlərinə görə, bərpaolunan enerji mənbələri bəşəriyyəti "yaşıl keçid" və ənənəvi olaraq qalıq yanacaqlardan istifadə edən sahələrin elektrikləşdirilməsi ilə təmin edəcək. Eyni zamanda D.Karlin qeyd edib ki, günəş və külək enerjisi ən əlçatan və eyni zamanda perspektivli enerji istiqamətləridir.

D.Karlin Azərbaycanla dayanıqlı inkişaf sahəsində əməkdaşlığa hazır olduğunu bildirib: "Dünyanın hər yerində hökumətlərlə əməkdaşlıq edirik. Azərbaycanla da dayanıqlı inkişaf sahəsində əməkdaşlıq etmək istərdik". Bundan əlavə, o, bu ilin noyabrında Bakıda keçiriləcək COP29-dan gözləntiləri barədə danışıb. D.Karlin iqlim maliyyəsi üzrə "Yeni Kollektiv Kəmiyyət Hədəfi" (NCQG) məsələlərində irəliləyiş gözlədiyini vurğulayıb: "Mən konfransın yekun sənədində qalıq yanacaqlardan keçid planları ilə bağlı daha aydın ifadələr, karbon bazarlarının etibarlılığı və davamlılığından əmin olmaq üçün dəqiqləşdirmələr görmək istərdim. Həmçinin inkişaf etməkdə olan ölkələrdə "yaşıl keçid"in sürətləndirilməsinə diqqəti artırmaq lazımdır".

Ekspert qeyd edib ki, iqlim dəyişikliyi ilə mübarizə beynəlxalq ictimaiyyətin əməkdaşlığını tələb edir: "İqlim dəyişikliyi qlobal əməkdaşlıq tələb edən çağırışdır. Dünyada hər bir ölkənin nəzərə alınmalı olan özünəməxsus iqlim dəyişikliyi şəraiti var".

# AZAL COP29 ərəfəsində ölkəyə səfər edəcək şəxslərə 10 faiz endirim təklif edir

Noyabrın 11-22-də Bakıda keçiriləcək COP29 konfransı ərəfəsində ölkəyə səfər edəcək şəxslərə "Azərbaycan Hava Yolları" (AZAL) tərəfindən xüsusi endirimlər təklif edilir.

AZAL-dan AZƏRTAC-a bildirilib ki, kampaniya çərçivəsində COP29 ərəfəsində Bakıya səfər etmək niyyətində olan şəxslər AZAL-ın biznes, premium ekonom və ekonom siniflərindən olan aviabiletlərini 10 faiz endirimlə əldə edə biləcəklər. Endirimdən yararlanmaq istəyənlər AZAL-ın rəsmi veb-saytı və ya mobil tətbiqi vasitəsilə aviabilet alışı zamanı VISITCOP29 promokodundan istifadə etməlidirlər. Güzəştlərdən AZAL-ın bütün beynəlxalq müntəzəm reysləri üzrə səyahət edən və yaşı 18-dən yuxarı olan şəxslər yararlana bilərlər. Endirimli aviabiletləri noyabrın 8-dək əldə etmək mümkündür. Qeyd edək ki, güzəştli aviabiletlər yalnız bu ilin 1 noyabr - 1 dekabr tarixləri arasında həyata keçiriləcək uçuşlara şamil olunur.




# Azərbaycan MDB vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının iclasında təmsil olunub

**Qırğızıstanın paytaxtı Bişkek şəhərində MDB iştirakçısı olan dövlətlərin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının iclası keçirilib.**

İclasda Azərbaycan, Özbəkistan, Qazaxıstan, Qırğızıstan, Rusiya, Belarus, Tacikistan və Ermənistanın vergi orqanlarının rəhbərləri iştirak ediblər. İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərlinin başçılıq etdiyi nümayəndə heyəti tədbirdə iştirak edib.

Tədbirdə nümayəndə heyətlərinin rəhbərləri çıxış ediblər. Azərbaycan nümayəndə heyətinin rəhbəri, Dövlət Vergi Xidmətinin rəisi Orxan Nəzərli bildirib ki, MDB iştirakçısı olan dövlətlərin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurası vergi orqanlarının işinin səmərəli təşkili, qlobal çağırışların həllində rolunun müəyyən edilməsi və beynəlxalq tərəfdaşlarla birgə fəaliyyətin təşviqi üçün mühüm platformadır. DVX rəisi Azərbaycanda beynəlxalq biznes mühitində baş verən proseslərin yaxından izlənildiyini və qabaqcıl təcrübələrin uğurla tətbiq edildiyini diqqətə çatdırıb. Qeyd edib ki, hazırda qlobal səviyyədə vergi siyasətində kifayət qədər ciddi dəyişikliklər baş verir və bunu şərtləndirən əsas səbəblərdən biri rəqəmsal iqtisadiyyatın gündəmə gəlməsidir. Orxan Nəzərli vurğulayıb ki, rəqəmsal transformasiyanın fəal iştirakçısı olaraq ölkəmizin vergi sistemi bu sahədə müxtəlif layihələr həyata keçirir və təcrübə mübadiləsinə töhfələr verməyə hazırdır.

Daha sonra Dövlət Vergi Xidmətinin İqtisadi təhlil və proqnozların icrasına nəzarət baş idarəsinin şöbə rəisi Telman Məmmədov "Ödənişlərin şəffaflığının təmin edilməsi və ƏDV-nin geri qaytarılmasını asanlaşdırmaq üçün rəqəmsal həllərin tətbiqi" mövzusunda təqdimatla çıxış edib. Ölkəmizdə ƏDV-nin səmərəli tətbiqi mexanizmlərinin iş prinsipləri, həyata keçirilən müasir tənzimləmələr, ƏDV-nin geri qaytarılması layihəsi, ƏDV depozit hesabı və bu sahədə istifadə edilən stimullaşdırıcı alətlər barədə ətraflı məlumat verilib.

Tədbir iştirakçıları informasiya texnologiyalarının tətbiqi və yeni layihələrin həyata keçirilməsi vasitəsilə vergi inzibatçılığının təkmilləşdirilməsi sahəsində təcrübələri müzakirə ediblər. Tədbir çərçivəsində 2024-2025-ci illər üçün MDB iştirakçısı olan dövlətlərin vergi xidmətləri rəhbərlərinin Koordinasiya Şurasının iş planının layihəsi təsdiq olunub.

# Özünüməşğulluq proqramı üzrə son həftə 250-dən çox şəxs üçün təsərrüfatlar yaradılıb

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən özünüməşğulluq proqramı iştirakçılarına aktivlərin paylanması prosesi ötən həftə də davam edib.**



Son bir həftə ərzində paytaxt və regionlarda 250-dən çox işsiz və işaxtaran şəxsə bu proqram çərçivəsində mal və materiallar formasında aktivlər təqdim olunub.

Onlardan 154-ü istehsal-xidmət, 100-ə yaxını isə kənd təsərrüfatı istiqaməti üzrə proqrama cəlb olunanlardır.

Verilmiş aktivlər hesabına proqram iştirakçıları üçün kənd təsərrüfatı, istehsal və xidmət istiqamətləri üzrə kiçik təsərrüfatlar yaradılıb.

Proqrama cəlb olunanlar üçün əvvəlcə təlimlər təşkil edilir, onlara kiçik biznesin təşkili və idarə olunmasına dair bilik və bacarıqlar öyrədilir. Təlimlərdən sonra özünüməşğulluq istiqaməti üzrə biznes planlarına uyğun aktivlərlə təmin olunurlar.

# 141 il əvvəl Azərbaycanın ucqar kəndlərində elektrik enerjisi istehsal olunanda Avropanın mərkəzində kerosin lampalarından istifadə edilirdi

## Qarabağ və Şərqi Zəngəzur isə bu gün dünyanın azsaylı "yaşıl enerji" regionlarındandır

**Azərbaycanda ilk su-elektrik stansiyası (SES) 1883-cü ildə Gədəbəyin Qalakənd kəndində tikilib. Həmin SES 1855-1856-cı illərdə yerli sahibkarlar tərəfindən tikilmiş misəritmə zavodunun və mədənin ərazilərini, həmçinin emalatxana və binaları elektriklə təmin edirdi.**



Bu o zaman idi ki, Avropanın mərkəzi şəhərlərindən olan London, Paris, Sankt-Peterburqda hələ kerosin lampalarından istifadə olunurdu. Gədəbəydə isə elektrik enerjisi istehsal olunurdu. Bu gün Azərbaycanda Qalakənd SES-in "varis"ləri çoxdur - "Arpaçay-1", "Arpaçay-2", "Biləv", Füzuli, Mingəçevir, "Taxtakörpü", "Varvara", "Yenikənd", "Şəmkirçay" su-elektrik stansiyaları, "Vayxır", Göyçay, "İsmayıllı-1", "İsmayıllı-2", "Balakən-1" - hansını deyəsən, hansını yazasan...

SES-in üstünlüklərini bilməyən yoxdur. Amma yəqin az adam bilir ki, ekoloji təmiz olan su-elektrik stansiyaları həm də yeraltı suları daşqın və seldən qoruyur. Azərbaycan iqtisadiyyatının, onun sosial həyatının istər ötən əsrin 70-80-ci illərində, istərsə də müstəqillik dövründə dinamik inkişafı bir çox mühüm amillərlə yanaşı, elektrik enerjisi ilə də bağlıdır. Hazırda Azərbaycan müstəqil elektrik enerji sisteminə malikdir və bunun əsası ötən əsrin 70-ci illərində qoyulub. 141 illik bir yol qət edən energetikamız sovetlər dönəmində Azərbaycana rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin diqqəti və fəaliyyəti sayəsində öz inkişafının sürətli mərhələsinə qədəm qoyub. Bunun sayəsində respublikamız elektrik enerjisinə olan tələbatını yerli imkanlar hesabına ödəyib.

Böyük Zəfərdən sonra Şərqi Zəngəzurun, Qarabağın qaranlıq günlərinə son qoyuldu. Ötən 4 ildə regionda tikilən su-elektrik stansiyaları Prezident İlham Əliyevin işğaldan azad olunmuş ərazilərdə həyata keçirdiyi vacib infrastruktur layihələrindəndir. Bu illər regionda çoxlu sayda böyük və kiçik su-elektrik stansiyaları tikilmişdir. Həmin hesaba ölkə enerji sistemi tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzur regionunun elektrik enerjisinə olan tələbatı 100 faiz "yaşıl enerji" hesabına təmin edilir və tələbatdan artıq qalan həcm ölkə enerji sisteminə ötürülür.

Hələ may ayında dövlət başçısı "Zəngilan" və "Sayıflı" su-elektrik stansiyalarının açılışını etmişdir. Onda burada hər birinin gücü 10,5 meqavat olmaqla ümumi gücü 21 meqavat olan adıçəkilən SES-lər üçün maşın zalları tikilmişdir. Çətin iqlim və sərt relyefli olmasına baxmayaraq, ərazidə böyük həcmli torpaq, beton və digər işlər həyata keçirilərək sıfırdan yeni SES-lər tikilmişdir. İstər derivasiya boruları çəkilərkən, istər maşın zalı tikilərkən, istərsə də digər quraşdırma işləri aparılarkən layihəyə uyğun olaraq ekoloji normalara əməl olunmuşdur. Maşın zallarının hər birində 4 yaşıl sertifikatlı Avropa istehsalı olan iki ekoturbin və generatorlar quraşdırılmışdır. Bu turbinlər çayda su azaldıqda ekoloji normaların qorunması üçün özünü avtomatik dayandırmaq, suyun keyfiyyətinə təsir etmədən istiqamətləndirici aparat vasitəsilə yağ və digər zərərli maddələrin suya qarışmasının qarşısını almaq qabiliyyətinə malikdir.

Bir neçə gün əvvəl isə dövlət başçısının bu istiqamətdə atdığı növbəti addım yenə də Zəngilanda oldu. "Azərenerji"ASC-nin "Sarıqışlaq" su elektrik stansiyasının açılışında iştirak edən Prezident onu işə saldı. Qeyd edək ki, "Sarıqışlaq" SES-in də daxil olduğu 4 SES-dən ibarət 42 meqavatlıq Zəngilan silsiləsi işğaldan azad edilən ərazilərdə yaradılan ən böyük silsilədir. Yerli mütəxəssislər tərəfindən layihələndirilməklə tam yeni tikilmiş 42 MVt gücündə olan kaskad tipli bu 4 stansiya qoyuluş gücünün 70 faizdən çox hissəsi ilə çalışır. Burada istehsal olunan enerjinin bir hissəsi daxili tələbata sərf edilir, artıq qalan enerji isə ölkə enerji sisteminə yönləndirilir. Bu da regionun enerji müstəqilliyini artırır və ətraf mühitin qorunmasına töhfə verir.

Ümumiyyətlə, indiyədək "Azərenerji" tərəfindən Qarabağda və Şərqi Zəngəzurda istismara verilən 270 meqavat gücündə 32 su-elektrik stansiyasında hava şəraitindən asılı olan digər bərpaolunan enerji mənbələrindən fərqli olaraq 24 saat fasiləsiz "yaşıl enerji" istehsal edilir. Prezident İlham Əliyevin regionun "yaşıl enerji" zonasına çevrilməsi barədə qəti mövqeyinin nəticəsi kimi ölkə enerji sistemi tarixində ilk dəfə Qarabağ və Şərqi Zəngəzur regionları istismarda olan su-elektrik stansiyaları hesabına ilin bütün fəsillərində xalis sıfır karbon emissiyalı bölgəyə çevrilib.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanın açar ölkə olduğu Orta dəhliz sınaqdan çıxmış etibarlı marşrutdur

## Bunu artıq Qərb də dərk və etiraf edir

**Beynəlxalq vəziyyət gərginləşməkdə davam edir. Adətən Yaxın Şərq silahlı qarşıdurmaların çox baş verdiyi region olsa da, son vaxtlar burada həm də münaqişənin coğrafiyası genişlənir. İsrail-Hizbullah, İsrail-HƏMAS savaşına İran da əlavə olunub. Bu gərginliyin hansı istiqamətdə davam edəcəyi bilinmir.**




Artıq müharibə Avropanı da bürüyüb. Belə ki, Rusiya-Ukrayna müharibəsinin də coğrafiyasının genişlənməsi an məsələsidir. Ukraynanın tərəfində olan, ona hərbi və maliyyə dəstəyi verən Avropa ölkələri özlərini nə qədər bu savaşdan kənarda saxlamaq istəsələr də, müharibənin uzanması başqa proznozlar vəd edir. Uzanan müharibə isə vaxtilə SSRİ-nin ən inkişaf etmiş respublikası olan Ukraynanı xarabazarlığa çevirir, üstəlik, bu vəziyyətin də nə vaxt bitəcəyini heç kəs bilmir.

Çin-Amerika münasibətləri də gərginləşən xətt üzərində davam edir. Amerikanın regionda öz müttəfiqləri ilə böyük hərbi təlimlər keçirməsi Çinə qarşı güc nümayiş etdirmək kimi qəbul olunur. Buna cavab olaraq "əjdahalar ölkəsi" də öz hərbi gücünü göstərmək üçün yeni dağıdıcı silahlardan istifadə edib hərbi təlimlər keçirir.

Dünyanın belə durumu sözsüz ki, qlobal iqtisadiyyata mənfi təsir göstərir. Xüsusən bu cür hadisələr mövcud qlobal ticarət marşrutlarının keçdiyi ərazilərdə baş verəndə vəziyyət daha acınacaqlı hal alır. Təkcə husilərin Qırmızı dənizdə törətdiklərinin dünya ticarətinə nə qədər ciddi ziyan vurduğunu xatırlamaq kifayətdir. Burada baş verən silahlı qarşıdurma ticarət gəmilərini qısa yol olan Süveyş kanalından deyil, Afrika qitəsinin ətrafında dolaşıb Avropaya üzməyə məcbur edir.

Rusiya-Ukrayna müharibəsi, Yaxın Şərqdə baş verən məlum hadisələr, husilərin Qırmızı dənizdə həyata keçirdikləri hərbi aksiyalar dünya ticarət zəncirində böyük qırılmalara səbəb olub. Çin və Rusiyanın son dövrlər Orta dəhlizə olan marağının artması da bununla bağlıdır. Çünki Çin Qırmızı dənizdə yaşanan gərginliklə bağlı yüklərini Avropa bazarına vaxtında çatdıra bilmir. Rusiyanın Zəngəzur dəhlizinin açılması üçün İran və Ermənistanla danışıqları intensivləşdirməsi də şimal qonşumuzun mühüm ticarət marşrutundan məhrum olması ilə əlaqədardır.

Belə vəziyyətdə hamı çıxış yolunu Orta dəhlizdə görür. Artıq bizə qarşı düşmən mövqeyi sərgiləyən Fransadan Orta dəhlizin onlar üçün də əhəmiyyət kəsb etdiyinə dair xəbərlər gəlir. Bu barədə Fransanın "La Gazette du Caucase" onlayn nəşrində dərc olunan analitik məqalədə deyilir ki, Avropa İttifaqında ən böyük nüvə gücünə malik Fransa təbii uran istehsalçısı olmadığı üçün onu Niger, Qazaxıstan, Özbəkistan və Avstraliyadan idxal etməyə məcburdur. Bildiyimiz kimi, Afrika ölkəsi ilə Fransa arasında problemlər var. Avstraliya bu ölkədən çox uzaqda yerləşir və onun daşıma xərcləri baha başa gəlir. Deməli, ən münasibi Qazaxıstan və Özbəkistandır. O üzdən Aİ, o cümlədən Fransa yeni ixrac marşrutundan istifadə etmək axtarışına çıxıblar və onlar Azərbaycanın həlledici rol oynadığı Orta dəhlizdən istifadə etmək niyyətindədirlər. Həmin materialda müəllif vurğulayır ki, Fransa uran idxalının tranzitini şaxələndirərkən Azərbaycan üzərindən keçən Orta dəhlizi sınaqdan çıxmış və etibarlı marşrut hesab edir. Müəllif burada mühüm bir məqama toxunur ki, bunu heç vaxt Fransa arzulamaz: "Əks halda, mövcud geosiyasi şəraitdə Qərbin uran və nüvə yanacağı məsələlərində Çin və Rusiyadan asılılığı artmaqda davam edəcək. Bu da növbəti onilliklərdə Qərb ölkələrinin enerji tədarükü ilə bağlı təhdidlərlə üzləşəcəyi anlamına gəlir".

Biz işğal altında olan torpaqlarımızı azad etdikdən sonra Fransa az qala ölkəmizə müharibə elan edib. İqtidarda olanlarla yanaşı, müxalifətdəki siyasi qüvvələr də Azərbaycana qarşı şər-böhtan yarışına qoşulublar. Bu səbəbdən iki ölkə arasında olan siyasi münasibətlər son dərəcə gərgindir. Amma istər E.Makron, istərsə də ondan sonra hakimiyyətə gələcək qüvvələr ölkəmizə gəlib yalvaracaqları gün uzaqda deyil. Ən azından ona görə ki, uran təhlükəli xammaldır və onun üzərindən daşındığı ölkədən xüsusi icazə istənilməsi vacibdir.

Orta dəhlizlə yüklənən daşınmanın həcmi sürətlə artır. Səbəbi fransız jurnalistin dediyi kimi, Azərbaycan üzərindən keçən tranzit marşrutunun etibarlılıq sınağından çıxmasıdır. Cari ilin yarısında Azərbaycanla Özbəkistan arasında tranzit daşımalarının həcmi 624 min ton olmaqla ötən ilin eyni dövrü ilə müqayisədə 37 faiz artıb.

Yük dövriyyəsinin artmasında ölkəmiz tərəfindən görülən zəruri tədbirlər önəmli rol oynayır. Belə ki, Azərbaycanın təşəbbüsü və dəstəyi ilə görülən işlər sayəsində Bakı-Tbilisi-Qars dəmir yolunun ötürücülük qabiliyyətinin 1 milyon tondan 5 milyon, həmçinin Ələt Beynəlxalq Ticarət Limanının illik ötürücülük qabiliyyətinin 15 milyon tondan 25 milyon tona çatdırılması tranzit marşrutunun səmərəliliyində önəmli rol oynayır.

Azərbaycan və Mərkəzi Asiya ölkələri müasir dünya ticarəti üçün mühüm ölkələrə çevriliblər. Ümumiyyətlə, türk dövlətləri indiki qlobal ticarət zəncirinin əsas halqalarıdır. Bizi bu ölkələrlə tarixi köklər və qarşılıqlı maraqlar bağlayır. Orta dəhlizin əsas ölkələri - Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkmənistan, Azərbaycan və Türkiyə bu ticarət zəncirində önəmli rol oynamaqla onun qırılmasına qarşı çıxan qüvvələrlə birgə mübarizə aparırlar.

Artıq beynəlxalq səviyyədə də Orta dəhlizin dünya əhəmiyyəti etiraf olunur. Qlobal maliyyə gücləri bu marşruta investisiya yatırmaqda maraqlıdırlar. Avropa İttifaqı Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutunun inkişafı üçün 10 milyard avro investisiya ayırmaq niyyətindədir. Çünki Aİ bu marşrutun əhəmiyyətini getdikcə daha çox dərk edir. Dünya Bankının proqnozuna görə, 2030-cu ilə qədər bu marşrutla yükdaşımaların həcmi 3 dəfə artacaq ki, bu həm ölkəmizin beynəlxalq aləmdə siyasi çəkisini artıracaq, həm də bizə yaxşı gəlir əldə etməyə imkan verəcək.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

# Tunel, körpü və keçidlər təmizlənib

**Şənbə və bazar günləri AAYDA-nın xüsusi təyinatlı işçi heyəti tərəfindən avtomobil tunelləri, körpü və piyada keçidləri təmizlənib.**

Bu çərçivədə "20 Yanvar dairəsi"ndə yerləşən avtomobil körpüsünün, Ziya Bünyadov prospektində yerləşən piyada keçidlərinin və yol elementlərinin yuyularaq təmizlənməsi, həmçinin Heydər Əliyev prospekti ilə Yusif Səfərov küçəsinin kəsişməsində və "Xutor dairəsi" adlanan ərazidə yerləşən avtomobil tunellərində zəruri təmir işləri icra olunub.



Sözügedən işlər zamanı körpü, keçid və tunellərin giriş-çıxışları, məhəccərlər, yan divarları, tuneldaxili yol nişanları, işıq əksetdiricilər, əyrixətli dəmir tirlər və bardür hissələri xüsusi təyinatlı maşınlar və xüsusi təmizləyici məhlullar vasitəsilə təzyiqli su verilərək yuyulub.

**«AZƏRBAYCAN» qəzetinin 1919-cu il 24 aprel (Cümə axşamı günü) tarixli 165-ci nömrəsinin ADA Universitetinin dəstəyi ilə transliterasiyası**



# AZƏRBAYCAN

Pəncşənbə, 23 rəcəbül-mürəccəb sənə 1337.
24 nisan 1919 sənə.

Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir

Məhəlli-idarə:
Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi.

Telefon nömrə: 39-60.

Tək nüsxəsi 1 manat.

Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır.

Dərc olunmayan övraq iadə edilməz.

Dərc edilən məqalatın mükafatını idarə təyin edir.

Abunə şəraiti:
Bakı üçün 1 aylığı 20 rublə,
2 aylığı 35 rublə, 3 aylığı 50 rublə.
Qeyri şəhərlər üçün 1 aylığı 25 rublə,
2 aylığı 45 rublə, 3 aylığı 60 rublədir.

Elan fiatı: birinci səhifədə sətri 4 rublə,
axırıncı səhifədə sətri 3 rublə,
itən şeylər və yer axtaranlar üçün 2 rublə.

## BİR PİYALƏ ÇAY

Bakı İctimai Yığıncaq Klubunda nisan (aprel) ayının 24-də "İttihad" firqəsi tərəfindən "Bir piyalə çay" məclisi təşkil olunacaq. Səhnə tamaşası Hacıbəyli Bəradərləri müdiriyyətinin mahir artistləri tərəfindən idarə ediləcək. Məhz bu məclis üçün Qarabağdan məşhur "aşıqlar" daha dəvət olunub. Məclisə yalnız dəvətnaməsi olanlar buraxılacaq. İttifaqən [təsadüfən] dəvətnamə almayan zəvati-möhtərəm [möhtərəm şəxslər] məclisə gəlmək xahişində olsalar, dəvətnaməni Parlaman İdarəsində "İttihad" fraksiyonundan ala bilərlər.

*"İttihad" firqəsi*

## ELAN

1919 sənəsi pəncşənbə [cümə axşamı] günü aprel ayının 24-ndə, gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusanının iclası olacağı elan edilir.

## ZAQAFQAZ KONFRANSINA DAİR

Azərbaycan, Dağıstan, Gürcüstan və Ermənistan nümayəndələrindən təşəkkül edəcək olan Zaqafqaz Konfransı sabahkı gündən etibarən Tiflisdə iniqada [toplaşmağa] başlamalıdır.

Konfransın müzakirəsinə vəz ediləcək [qoyulacaq] olan məsələlər xüsusunda qəzetəmizin keçənki nömrələrində məlumat verilmişdi. Bundan anlaşıldığı üzrə, Konfransda həm iqtisadi və həm də siyasi məsələlər müzakirəsi müqərrərdir [qərarlaşdırılmışdır] ki, siyasilərini təklif edən Azərbaycan və iqtisadilərini də Gürcüstan olmuşdur.

Həll ediləcək olan məsələlər istər siyasi olsun, istər iqtisadi olsun, son dərəcə mühüm olduğundan, Zaqafqaz cümhuriyyətlərinin biri-biri ilə yaxşı və yaxud yaman dolanması bu məsələlərin o tövr və ya bu tövr həll edilməsindən asılıdır.

Məsələlər mühüm olduğu kimi, onların həlli də çox müşküldür. Azərbaycan tərəfindən təklif edilmişdir ki, ixtilaflı məsələlər haqqında Konfrans heç bir qərara gələ bilməsə, o halda hər tərəf arbitraj qərarına tabe olsun, yəni bu işlərdə mənafecə zimədxal [məsələyə dəxli, işə qarışacağı] və əlaqədar olmayan bitərəflərdən hakəm və münsiflər dəvət edilib ixtilafın həlli onların qərardadına həvalə edilsin və onlar nə qərardad qoysalar, hər tərəf buna razı olsun. Bu maddə bu surətlə qəbul edilərsə, ixtilaf və mübahisəli məsələləri həll etmək müşkülatı bir dərəcəyə qədər asanlaşar. Fəqət bu arbitraj qərardadının iki tərəfdən birinin mənafeyinə müvafiq olacağından, mənafeyini xələldar olmuş hesab edən tərəf genə də narazı qalacaqdır.

İştə bunun üçündür ki, bəziləri əz-cümlə [o cümlədən] Erməni Milli Komitəsi naşiri-əfkarı [fikirlərini yayan orqanı] olan rusca "Naşe vremya" qəzetəsi dəxi siyasi məsələlərin həllini sonraya, yəni Ümumsülh Konfransı həllinə vagüzar [həvalə] edib də yalnız bir iqtisadi məsələlərdən bəhs edilməsini səlah [doğru] bilirlər.

Lakin biz bu zəndəyik ki, siyasi məsələlərə əl vurmamaq şərti ilə iqtisadi məsələləri müzakirəyə qoymaq və müzakirə bə'dində [müzakirədən sonra] müəyyən qərarlar ittixaz etmək [çıxarmaq] mümkün olan işlərdən deyildir. Ondan əlavə, siyasi məsələlərin müəlləq [qeyri-müəyyən] bir halda qalması heç bir kəsi şad edə bilməyib, arada genə də bürudət və küdurət [soyuqluq və nifrət] törədə bilər. Halbuki Konfransdan məqsəd bu küdurəti və bu bürudəti aradan götürmək, etibar və etimad əmələ gətirməkdir. Bunun üçün bir kərə açılışmaq lazımdır. Böylə açılışmaq ki, onun axırı möhkəm surətdə bağlaşılmağı müntəc olub [bağlanmaqla nəticələnib], aramızdakı kin və küdurəti rəf etsin [aradan qaldırsın].

Siyasi məsələlərdən ən mühümü və ən çətini hüdud təyini məsələsidir.

Bu məsələ zatən Zaqafqaz cümhuriyyətlərinin istiqlal elanı bə'dində [sonrasında] müzakirə və həll edilməli idi. O vaxt, yəni təqribən altı-yeddi ay bundan əvvəl bu xüsusda bir konfrans yığmaq üçün Gürcüstan və Azərbaycan hökumətləri tərəfindən təşəbbüslər edildi. Lakin Ararat Hökuməti o vaxt bu konfransa razı olmayıb işi pozdu. Pozmaqda da müəyyən qərəzi olduğunu, bunu mütəaqib [bunun ardınca] Gürcüstana qarşı açmış olduğu müharibə ilə isbat etdi. İngilislər tərəfindən toxtadılmış olan bu müharibədən erməni hökuməti heç bir şey qazanmadı, biləks [əksinə] maddi və mənəvi zərərlər çəkdi. İş genə qılınc zoru ilə deyil, danışıb görüşmək təriqi [yolu] ilə həll edilmək zərurətində qaldı.

Şayani-diqqət [diqqətəlayiq] burasıdır ki, o zaman Ararat Hökuməti Azərbaycan iştirakı ilə bir konfrans qurulmasına razı olmayıb da, məxsusi surətdə gürcülərlə danışmağa girişmək istəmişdi. Gürcü Hökuməti bu işə razı oldusa da, iş genə Ararat Hökumətinin təkrar rizasızlıq ibrazı [nümayiş etdirməsi] ilə baş tutmadı. Hər halda ümum Zaqafqaz konfransı təşkilindən əvvəl Gürcüstan və Ermənistan hökumətlərinin xüsusi görüşmələri niyyəti baqi [qüvvədə] qalmış imiş ki, bu Konfransdan əvvəl həman iş baş tutub, Ermənistan və Gürcüstan arasında bugünlərdə vaqe olan danışıq nəticəsində bu iki hökumət bir-birinin istiqlalını qəbul edib tanıdıqlarını rəsmi surətdə elan etdilər. Bundan aşkardır ki, Gürcüstan və Ermənistan arasında vaqe olan ixtilaflı məsələlər artıq həll edilib qurtarmışdır. O surətdə, deməli, hər nə ixtilaflı hüdud məsələləri varsa Azərbaycan ilə Gürcüstanın və genə Azərbaycan ilə Ermənistanın arasında qalmışdır. Bu ixtilaflar bərtərəf edilərsə [aradan qaldırılarsa], bizim dəxi istiqlalımız zənn edilir ki, rəsmi surətdə tanılılacaqdır.

Rəsmi tanılmağın başqa bir mənası vardır. Məsələn, əgər Ermənistan Hökuməti Azərbaycan istiqlalını rəsmən tanıdığını elan edərsə, o surətdə Parisdə olan Nubar paşaların və sair erməni məməssillərinin [nümayəndələrinin] Azərbaycan torpağı hesabına "Böyük Ermənistan" qurmaq niyyətləri bir dərəcəyə qədər puç olar. Bunun üçündür ki, hökumətimiz tərəfindən rəsmi tanınmaq məsələsi təklif edildikdə, Ararat Hökuməti bu məsələnin həllindən əvvəl hüdud məsələsinin müzakirə və həllini lazım bildi.

İştə, məsələlərin ən mühümü və çətini bu hüdud təyini məsələsidir ki, sair siyasi və iqtisadi məsailin [məsələlərin] həlli də bu hüdud məsələsi həllinə bağlıdır.

Bu məsələnin çətinliyindən bir az olsa da xəbərdar olmaq və nə qədər mühüm olduğunu təsəvvürə gətirmək üçün misal olaraq burasını mülahizə etməlidir ki, məsələn Ermənistan hökuməti əksəri Azərbaycan türk və islamları ilə məskun olan Naxçıvan və Şərur mahallarını tamamilə mənimsəməkdən əlavə, Qarabağımıza dəxi iddiası vardır. Hakəza [habelə] Gürcüstan Borçalı islam və türkləri ilə məskun yerləri zəbt etdiyi bəs deyil ki, hələ Zaqatala ölkəsinə də göz dikmək istəyir.

Hüdud məsələsi müzakirəsinə başlarkən bir əsas [prinsip] üzərində dayanmaq lazımdır. Bu şərtlə ki, hər tərəf o əsası qəbul etmiş olsun. Böylə olarsa, məsələnin həlli bir dərəcəyə qədər asanlaşar. Halbuki, məlumumuz olduğu üzrə hər tərəfin iltizam etdiyi [lazım gördüyü] əsas başqadır. Məsələn gürcü və ermənilər əsas olaraq tarixi ortaya qoyurlar. Biz isə etnoqrafi əsas tərəfdarıyıq, yəni bir yerin, bir mahalın sakin olduğu millətlərdən çoxluq və azlıq kimin tərəfində olduğunu mülahizə edirik.

Zatən, biz də tarixə müraciət edə bilərik. Ancaq bu şərtlə ki, o tarix "Nuh əyyamının" tarixi olmaya, yəni qədim tarix olmayıb da yaxın tarix bəhsi ola.

Bizim "Böyük Azərbaycan" qurmaq xülyalarımız olmadığına görə, bu məsələdə ifrata girişmək xəyal və arzumuz da ola bilməz. Yalnız istədiyimiz budur ki, əksəri Azərbaycan türk və islamları ilə məskun olan yerlər Azərbaycan dövlətinə mütəəlliq [bağlı] olsun. Məsələ həll edilə bilmədiyi halda arbitraj qərarına tabe olmaq təklifimiz, insaf əhli olduğumuza böyük bir şahiddir.

Məsələnin həlli üçün arbitraj qərarına verilməkdən başqa bir də digər bir yol dəxi vardır ki, onun vasitəsinə də müraciət eyləmək mümkündür. Bu yol, mahal əhlindən əksəriyyətin kimə tabe olmaq arzularını bilmək və məsələni bu əksəriyyətin arzusuna müvafiq olaraq həll etmək.

Əgər tərəfeyndən [iki tərəfdən] birisi nə arbitraj qərarına və nə də əhali əksəriyyətinin arzusuna tabe olmaq istəməzsə, o halda insafsızlıq ibraz edib zor və cəbr tərəfdarı olduğunu bildirəcəkdir. Biz isə, təbiidir ki, cəbrə tabe olmaq və rəsmən tanınmaq üçün mal-mülk və əhalimizi fəda etmək istəməyəcəyik.

Ümidvar olmalıyıq ki, tərəfeyn hər bir qeyri-qabili-hüsul [əldə edilməsi mümkün olmayan] boş və çürük xəyallardan əl çəkib də bu mühüm məsələ müzakirəsində əqli-səlimlə [məntiqlə] iş görmək istərlər. Zaqafqaz cümhuriyyətlərinin əhvali-iqtisadiyyəsi [iqtisadi vəziyyəti] və bir-birinə olan rabitəsi bunu tələb edir. Ermənistan və Gürcüstanın iqtisad cəhətincə Azərbaycandan asılı bir çox ehtiyacatı olduğunu iqrar [təsdiqləyənlər] və etiraf edənlər olmasa da, həyat və məişət bunu isbat etməkdədir. Bizim dəxi köçəri məsələsi kimi əhalimizin bir çox qismindən ötrü ölüm-dirim məsələsi olan böyük bir əngəlimiz var ki, o xüsusda yaylaqlarımız yollarında yaşayan erməni ünsürü ilə etilaf [uzlaşma] və sazişimiz lazımdır...

Hər halda çox arzu edərdik ki, sabah açılan konfrans müzakirəyə qoyulacaq olan məsələləri həll edərkən, saziş və etilaf hissiyyatı ilə xeyirxahanə bir surətdə işə girişib ümum Zaqafqaz cümhuriyyətləri əhalisi üçün xeyir və mənfəət yetirsin və Yevropa gözündə dəxi öz istiqlallarının şan və heysiyyətini korlamasın.

*Hacıbəyli Üzeyir*

## TELEQRAF XƏBƏRLƏRİ

**Polyakların qələbəsi**

Varşava – Beş günlük qanlı müharibədən sonra, polyak qoşunları Lemberqi [Lvovu] mühasirə edib, Ukrayna qoşunlarının xəttini yararaq şəhərə daxil olmuşlardır. Ukrayna qoşunları təqib edilirlər. Polyaklar külli surətdə əsir tutaraq pulemyot və ləvazimati-hərbiyyə qənimət almışlardır.

Paris – Berlindən xəbər verilir ki, Almaniya mətbuatı yazır ki, hərgah polyaklar Dansiqə [Qdanska] çıxmaq istəsələr, almanlar onları silahla qarşılayacaqlar. Bundan əlavə, qəzetələr bu təqdirdə almanların Versal Sülh Konfransına getməyəcəkləri ilə təhdiddə bulunurlar.

London – Şimali Rusiya cəbhəsindən ingilislər rəsmən məlum edirlər ki, bolşeviklərin güclü dəstələri Belozerski işğal etdilər. Onları qaytarmaq üçün düşmənlərin səngəri bombardman edilməkdədir.

**Kaspi dənizində bolşeviklərlə müsadimə**

İngiltərə ərkani-hərbindən [hərbi qərargahından] rəsmi surətdə xəbər verilir ki, səhər aprelin 19-da İngiltərə müsəlləh [silahlı] gəmisi iki ədəd müxrib düşmən gəmilərinə rast gəlmişdir. Uzaq bir məsafədə müharibə vaqe olmuşdur. Düşmən gəmiləri mina buraxıb geri çəkilmişlərdir. Aprelin 21-də İngiltərə aeroplanları Hacı-Tərxanda olan bolşevik gəmilərini bombardman etmişlərdir.

## SÜLH ƏTRAFINDA

**Almaniya nümayəndələri Sülh Konfransında**

Paris – Simsiz teleqrafla xəbər verilir ki, aprel ayının 25-də Almaniya nümayəndələri Müttəfiqlərin nümayəndələri ilə Versalda görüşəcəkdirlər. Dördlər Şurası bəyan eyləmişdir ki, Fransa Saar okruqunu öz əlində saxlayacaqdır. 15 il bu qitə [bölgə] Fransanın ixtiyarında olaraq Cəmiyyəti-Əqvam [Millətlər Cəmiyyəti] qarşısında məsul olan 5 nəfərin diktatorluğu ilə idarə ediləcək, 15 il bitdikdən sonra, hərgah, o yerin əhalisi Almaniya tərəfinə keçmək istəsə, o zaman o yer Almaniyaya mülhəq ola [birləşə] bilər. Bu şərtlə ki, Almaniya orada olan mədənləri qızıl pul ilə Fransadan almalıdır.

Dördlər Şurası qət eyləmişdir ki, Almaniya bilatəxir [dərhal] 125 milyon frank xəsarət [kompensasiya] verməlidir. Bunun 55 faizi Fransanın hissəsinə düşür. Bu pulu Almaniya qızıl ilə verməlidir.

**Royter ajansından**

Paris – Müharibə zərərlərini təxmin və emar komissiyası Almaniyadan və onun müttəfiqlərindən alınacaq zərərləri 8.000 milyon ingilis lirəsinədək əskiltmişdir. Bu hesab üzərinə 6 ildən sonra ümum məbləğ faizlə 6.000 milyon lirə edəcəkdir. Digər tərəfdən, Almaniyanın sərmayəsi Amerika mütəxəssislərinin hesabına görə, 2.400 milyon lirə edir. Xaricdəki 1.600 milyon Almaniya sərmayəsi buna daxil deyildir. Almaniyanın ticarət donanması, dəmiryolları, Elzas-Lorendə olan mədənləri, kömür mədənləri, Saar dərəsində dəmir mədənləri, sabiq Almaniya müstəmləkələrində olan dövlət əşyaları və əcnəbi banklardakı nəqdi və sairə komissiyanın rəyincə Müttəfiqlər tərəfindən zəbt edilməlidir. Böyləliklə, 1.600 milyon lirə Müttəfiqlərin müharibə zərərini ödəmək üçün alınmış olur. Qalan məbləğ nə vaxt alınacaq, o hələ bəlli deyildir. İngiltərə ilə Amerika bu rəydədirlər ki, Almaniyaya ticarət işlərini təcdid [bərpa] etməyə müsaidə verilsin. Zira bu pul ilə hər il Almaniyadan borcu hesabına 60 milyon lirə almaq mümkün olacaqdır. İngilis nümayəndələri istəyirlər ki, bu məbləğ müharib [savaşan] dövlətlər arasında hər kəsin hərbi xərcinə mütənasib surətdə təqsim edilsin [bölünsün]. Fransa hamıdan artıq dava xəsarəti çəkmişdir. İngiltərə isə öz əhalisindən böyük vergilər almışdır.

**Çinin tələbi**

Paris – Sülh Konfransında olan Çin nümayəndələri Sülh Konfransına bir müxtirə [nota; yazılı qeyd] təqdimlə tələb edirlər ki, Kiao-Çao Çinə verilsin və əlavə etmişlər ki, hərgah, əcnəbilər bu yeri istila edərlərsə, Çində nəticəsi fəna olan hadisələrə səbəb ola bilər. Heyət bunu da qeyd etmişdir ki, bu yer Yaponiya vasitəsilə deyil, bilavasitə Çinə verilməlidir.

* Berlin – Berndə istiqlalçılar qurultayında Kautski bəyan eyləmişdir ki, bütün beynəlmiləl əmələlər istiqlalçılar tərəfdarı olmuşlardır. Şeydemanovlar kənarda qalmışlardır. Kautski Müttəfiq məmləkətlərin halından bəhs edib, bu axır zamanlarda İngiltərədə vaqe olan hadisələrə son dərəcə böyük əhəmiyyət vermişdir.

* Paris – (Sosialist qəzetələrindən) Bir çox məsələlər barəsində Berndəki konfrans qətnamə qəbul etməmişdir. Bu konfransın mabədi [ardı] tezliklə Amsterdamda davam edəcəkdir. Beynəlmiləl Büronun katibi Hyusmanın dakladına görə, Mərkəzi Fransız Komitəsinə vagüzar edilmişdi [tapşırılmışdı] ki, Bern Konfransında iştirak etməkdən imtina edən bütün beynəlmiləl əmələ dəstələrə nüfuz yetirsin. Müharibə münasibətilə dağılmış olan beynəlmiləl əmələ hərəkatı Amsterdamda təkmil edilməlidir. Bernə nə şeydemanovlar və nə də bolşeviklər qəti müzakirələr üçün getməmişlərdir. Şimdi fransız firqələri bu iki barışmaz üzvü bir yerə cəm etmək istəyirlər.

Mayın 1-də bütün Fransada fransız firqələri bir nümayiş yaparaq Bern Konfransının qərarları ilə həmrəy olduqlarını isbat etməlidirlər. Xüsusi surətdə ümum əsirlərin öz vətənlərinə buraxılması rəyi meydana atılır. ("Tan")

* Stokholm – İngilis qəzetələrinin məlumatına görə, İtaliya Palatasının sosialist dəstələri qərar qoymuşlar ki, İtaliya, Fransa, ingilis sosialistləri və Parlamanlarının sosialist üzvlərindən mürəkkəb [ibarət] bir şura əqd [təşkil] edilsin. Bu məqsədlə ki, Etilaf [Antanta] dövlətlərini Rusiya və Macarıstan işlərinə müsəlləh [silahlı] surətdə qarışmağa qoymasınlar.

**İstanbul məsələsi**

İstanbulun yunanlara verilməsi haqqındakı şayiənin doğru olub-olmaması barəsindəki suala cavabən gürcü heyəti üzvü demiş ki: *"Şübhəsiz, yalandır. Mən İstanbulda bulunduğum zaman bu məsələ barəsində bir çox danışıqların şahidi olmuşam. Bu barədə Avropa mətbuatında və bu məsələdən maraqlanan tərəfeyn [tərəflərin] mətbuatında bir çox şeylər, dedi-qodular var idi. Ancaq mətbuatda İstanbulun şayəd bir beynəlmiləl şəhər olacağına ehtimal gedirdi. Hələlik bu barədə qəti bir qərar yoxdur."*

**Sülh Konfransı**

*"Tiflisdə böylə rəydədirlər ki, guya İstanbul vaxtı ilə Sülh Konfransında vaqe olan hallardan xəbərdar olur. Bu səhvdir. Mən sizi inandırıram ki, İstanbulun London və Paris kimi cahan mərkəzləri ilə müxabirə [xəbərləşmək] cəhətincə rabitəsi o qədər qənaətbəxş deyildir. Avropa qəzetələri İstanbulda 20 gündən sonra alınır. Teleqraflar da o qədər qırıq və müxtəsər gəlir ki, Sülh Konfransında nələr vaqe olduğundan çox az məlumat hasil etmək olur.*

*Fəqət İstanbulda bizə qətiyyən məlum oldu ki, necə ki, burası Tiflisdə də məlumdur, Müttəfiqlər arasında sülh məsələsi ətrafında böyük ixtilaf vardır. Baş ixtilaf mənim əqidəmə görə, dənizlərin azad olması barəsindədir. Vilson məramnaməsini mükəmmələn vücuda gətirmək sair müttəfiqlərdən, baxüsus [xüsusilə] İngiltərə və Fransadan böyük güzəştlər istəyir. Nə qədər ki, bu mübahisəli və əngəlli ən birinci məsələ barəsində Müttəfiqlər arasında etilaf [uzlaşma] əmələ gəlməsə, Sülh Konfransı işlərinin müvəffəqiyyətli olacağına ümid etmək olmaz."*

**Azərbaycan heyəti**

Sülh Konfransına gedən Gürcüstan heyəti üzvü N. Y. Nikoladze Azərbaycan heyəti haqqında böylə rəvayət eyləyir:

*"Azərbaycan heyəti bizimlə bərabər İstanbula azim olmuşdur [yola düşmüşdür]. Burasını qeyd etməlidir ki, heyət xeyli ehtiyatkaranə bir surətdə davranıb öz hərəkətlərində dövləti [dövlətçi] bir tərzi-hərəkət göstərməkdədir. Azərbaycan heyətinin mənə və Müttəfiq dövlətlər dairələrinə bağışladığı təsir bu cürdür. İngilislərin Azərbaycan Hökumətinin arzusuna olan münasibəti məsələsinə gəldikdə bu barədə söyləməliyəm ki, gələcəkdə İngiltərə ilə Azərbaycan arasında olacaq münasibatın [münasibətlərin] nə surətdə olacağı həll edilmədən, qeyd etməliyəm ki, İngiltərə nümayəndələri [ilə] Azərbaycan Hökuməti nümayəndələri arasında olan münasibat bilaşübhə [şübhəsiz] onu göstərir ki, ingilislər Azərbaycan Hökumətini nəzərə alırlar. Bu da gələcəkdə artıq və sıxı münasibatı isbat edir."*

**Müsəlman məsələsində ingilislərin mövqeyi**

Gürcü nümayəndəsi Nikoladze müsəlman məsələsində ingilislərin nə mövqe əxz etmələri [tutmaları] və İstanbula varid olduqdan [çatdıqdan] sonra müsəlman aləmini nə cür təsəvvür etdiyi sualına cavab olaraq deyir ki:

*"Bu məsələyə mən böylə cavab verərəm: İngilislərin hal-hazırdakı məqsədləri haqqında mən bir ingilis olmadığımdan, bir söz söyləyə bilmərəm. Ancaq mənim nəzəriyyatıma və sizi maraqlandıran məsələyə gəldikdə, məndə böylə bir təəssürat vücuda gəlmişdir ki, ingilislər müsəlmanlarla öz münasibətlərinin kəskinləşməsini istəməyirlər. İngilislərin müsəlman məsələsində ehtiyatkaranə davranmaqları ola bilər ki, dövləti nöqteyi-nəzərlə və İngiltərənin islam aləmində əxz etdiyi mövqe ilə olsun. Buna görə mən xəyal etmirəm ki, İngiltərə Türkiyəni parçalamaq məsələsində Türkiyə mirasını təqsim etmək [bölmək] xülyasında olan ünsürlərə şərik olsun. Bu məsələdə bilaşübhə İngiltərəyə lazım gələcəkdir ki, yunanlıların, fransızların, ermənilərin və qeyrilərinin iştahasının qabağını alsın. İngilislərin Türkiyə işləri dairəsində olan xətti-hərəkəti əqəllən [ən azından] mənə böylə görünür."*

## QƏZETƏLƏRDƏN

**Batumdan yazılır**

4-lər Şurası üzvlərindən bir mötəbərinin rəvayətinə görə, bugünlərdə Batuma Könüllülərin iki böyük desantı çıxacaqdır. Bunların rəsmən bəhanəsi budur ki, guya orada qalan rusların hüququnu müdafiə etsin. Fəqət əslində isə, onların başqa məqsədləri vardır. Soçi okruqunda və Dağıstan cəbhəsində Könüllülərin işləri fənalaşdığından, Könüllü desantı təxirə uğrayır.

Tiflisdə alınan məlumatə görə, general Denikin Soçi okruqunda səfərbərlik elan eyləmişdir. Əhali bundan həyəcana düşərək, 16 min nəfər abxaz, gürcülər və rus əhalisinin bir hissəsi dağlara qaçmışlardır. Şimdi bunlar Könüllü orduya qarşı partizan müharibəsi açmışlardır. Şayiata görə, Müttəfiq komandanlıq Könüllülərin bu hərəkətindən narazı qalmışlardır.

## TÜRKİYƏDƏ

**Qadınların təlimi**

Əksərimizdən ötrü qadın məsələsinin Türkiyədə həll edilmiş olduğu məchul bir aləmdir. Halbuki orada qadın nəinki yalnız məmur, əmələ və mağaza xidmətçisidir, bəlkə məkatibi-aliyyə müdavimləri [ali məktəb tələbələri] arasında dəxi bir çox qadınlar vardır. Qadınlar tibb şöbə[sinə] və sair ülumi-aliyyə şöbələrinə davam edirlər. Bu günə Darülfünunun [Universitetin] iki şöbəsi vardır: Oğlan tələbə[yə] məxsusi ayrı, qız tələbə[yə] məxsusi ayrı. Şimdi isə İstanbul mətbuatı bu "iki odalı" Darülfünunun islah edilməsi lüzumundan bəhs edir. "Darülfünun tövhidi" [Universitetin birləşdirilməsi] günün məsələsini təşkil etməkdədir. Nümunə olaraq "Zaman" qəzetəsinin aşağıdakı fəqərəsini [məqaləsini] nəql ediriz:

*"Məlumdur ki, Bayəziddə kain [yerləşən] Darülfünun binası iki darülfünunun – ünas və zükur [qız və oğlan] darülfünunlarının məqərridir [qərar tutduğu yerdir]. Müxtəlif fakültə müdavimləri öğlədən [günortadan] əvvəl, müxtəlif fakültə müdavimləri öğlədən sonra ayrı-ayrı dərs görürlər. Bununla bərabər, bəzi sərbəst dərslər, ümumi konfranslar var ki, xanımlarla erkəklər bərabər təqib edirlər. Cə'li [süni], saxta təəssüblərin, mənasız və əskimiş əqidələrin unudulması lazım gələn zamanda, biz bu ümumi konfransları, sərbəst dərsləri təsvib [bəyənir] və təqdir ediriz. Bu fikrə tamamilə tərəfdarız. Gərək Maarif Nəzarəti, gərək Darülfünun idarəsi də bu fikrə xanımlarla əfəndilərin birlikdə oxumalarına tərəfdar olmalılar ki, sərbəst dərsləri təcviz edirlər [sərbəst dərslərə icazə verirlər]. Bu halda, xanımlarla əfəndilərin ümum dərsləri birlikdə təqib etmələrində bir məhzur [çəkinməli bir şey] yoxdur.*

*Hal böylə ikən, şimdiyə qədər nədən ünas və zükur darülfünunları tövhid edilmədi! Tövhid keyfiyyətinin məhzuru olmadığı kimi, Darülfünun büdcəsində mühümcə bir təsərrüfə [qənaətə] də meydan açar. Təsərrüf edilən bu məbləğ də vəsait etibarı ilə pək zəngin olmayan Darülfünunumuzda mühüm işlər görə bilər.*

*Əsasən Darülfünun elm yurdu olmaq dolayısı ilə bir olmaq lazım gəlir. Nədən ünasa və zükura başqa-başqa qisimlər ayrılsın! Tədrisat – bilxassə bir çox şöbələrdə – eyni deyilmidir?*

*Xeyli zamandan bəri Darülfünun müdavimləri ilə müdavimələrini [oğlan və qız tələbələrini] işğal edən bu fikir nəhayət asarını izhar edəcək [əlamətlərini göstərəcək] qədər qüvvətlənmiş olduğundan, əvvəlki gün ünas darülfünunu müdavimləri "zükur və ünas darülfünunlarının tövhidi" haqqında Maarif naziri Əli Kamal bəyə bir ərizə təqdim etmişlərdir. Bu ərizənin şayani-qəbul [qəbula layiq] görülməsini və əhəmiyyətlə, hörmətlə baxılması lazım gələn xanımlarımızın tənmiyyeyi-ürfanlarına bir qat gərmi verilməsini [ürfanlarının artırılması işinin bir qat da tezləşdirilməsini] bütün qüvvətimizlə təmənna ediriz."*

## TÜRKİYƏNİN MÜXTİRƏSİ

Keçənlərdə Böyük Ermənistan təşkili niyyətilə erməni heyəti-mürəxxəsəsinin [nümayəndə heyətinin] Paris Sülh Konfransı hüzurunda bəyanat verdiklərini və bu bəyanatlarla ermənilərin nə kimi müddəalarda bulunduqlarını xəbər vermişdik. Türkiyə Hökumətinin dəxi bu münasibətlə kətbi [yazılı] bir müxtirə [nota; yazılı qeyd] verdiyini və bu müxtirənin müxtəsər vəchlə mündəricatını qəzetələrdən nəql eyləmişdik. Bu kərə İstanbuldan alınan "İqdam" qəzetəsindən Türkiyə müxtirəsinin eynini aşağıya dərc ediriz:

Hökuməti-Osmaniyyə Parisdə cərəyan etməkdə olan sülh müzakiratına iştirak etməmişsə də, Osmanlı imperatorluğuna aid ərazi məsələlərinin heyni-müzakirəsində [müzakirəsi əsnasında] nəzəri-etibara almaq üzrə kəndi nöqteyi-nəzərini bir müxtirə ilə buradakı Etilaf düvəli-müəzzəməsi müməsilləri [böyük Antanta dövlətlərinin nümayəndələri] vasitəsilə Paris Konfransına bildirmişdir. Bu müxtirənin mündəricatı hər dürlü şübhədən ari [uzaq], vəsaiq və dəlaili-maddiyyəyə müstənid olduğundan [sənədlərə və maddi dəlillərlə söykəndiyindən], Konfransca diqqətlə tələqqi ediləcəkdir [qiymətləndiriləcək]. Baxüsus [xüsusilə], nüfus nisbəti-ədədiyyəsinə mütəəlliq olan müddəiyyat [əhalinin say nisbətinə aid olan iddialar] yalnız dövlətin qüyudi-rəsmiyyəsinə [rəsmi qeydlərinə] deyil, ingilis və fransız statistikalarına istinad etməkdədir.

Bundan maəda [əlavə], Babıali, məhəllərincə [yerlərdə] bitərəf heyətlər vasitəsilə yapılacaq tədqiqat nəticəsinə də şimdidən bəyani-müvafiqət eyləməkdədir [münasib gördüyünü bildirməkdədir].

Xariciyyə Nəzarəti tərəfindən İngiltərə, Amerika, İtaliya və Fransa ali komissarlarına tövdi edilən [verilən] 12 şubat [fevral] 1919 tarixli müxtirənin tərcüməsini bərvəchizir [aşağıda] dərc ediriz:

Beynəlmüttəfiqin [Müttəfiqlərarası] Sülh Konfransında məsaiyi-ehzariyyəyə mübaşirət edildiyi [tərəflərin öz tələblərini yazılı surətdə təqdim etməsi mərhələsinə qədəm qoyulduğu] və bu məsai [iş] əsnasında dünyaya ədalət və sərbəst inkişaf əsasları dairəsində sürəkli bir sülh və eyi bir istiqbal [gələcək] təmini qayəsinə mətuf [yönəlmiş] bir surətdə millətlərin müqəddəratı mövzuyi-bəhs [müzakirə mövzusu] olduğu əsnada Hökuməti-Osmaniyyə kəndisinə təəllüq edən [aid olan] bəzi əhəmiyyətli məsələlər haqqındakı nöqteyi-nəzərini Konfransa xülasətən ərz etməyi vəzifəədd [hesab] edir.

Babıalinin qənaətinə görə, İngiltərə, Amerika, Fransa və İtaliya kimə düvəli-müəzzəməni [böyük dövlətləri] idarə edən ricali-dövlət [dövlət adamları] kəndilərinə tərəttüb edən [öhdələrinə düşən] ali və nəcib vəzifənin hini-ifasında [ifa edilməsi əsnasında] dövlətlərin təşkilati-müstəqbələsi əsaslarını [gələcəkdəki təşkilat prinsiplərini] rəis müsyö Vilson tərəfindən dərmiyan [irəli sürülən] və bütün millətlər tərəfindən bilittifaq [razılıqlar] qəbul edilən prinsiplər dairəsində həll etməyə qəviyyən [möhkəm] əzm etmişlərdir. Ali bir fikrin, nəcib və alicənab bir qəlbin mülahizati-əmiqəsi səmərəsi [dərin düşüncələrinin nəticəsi] olan bu prinsiplərdən biri də dövləti-Osmaniyyəyə təəllüq edir [aiddir] ki:

*"Şimdiki Osmanlı imperatorluğunun türk əqsamında [hissəsində] hakimiyyət və əmniyyət [asayiş] surəti-tammədə [tamamilə] təmin ediləcək və fəqət imperatorluğun idarəsi altında əlyövm [hal-hazırda] yaşamaqda olan digər millətlər dəxi əmniyyətlərini və bilaməzahim sərbəstiyi-inkişaflarını kafil olacaq [asayişlərinə və maneəsiz sərbəst inkişaflarına zəmanət verəcək] təminata məzhər [nail] olacaqlardır. Boğazlar daimi olaraq açılacaq və bütün millətlərin gəmilərinə və ticarətinə beynəlmiləl təminat altında sərbəst tutulacaqdır."*

Bu prinsipin ikinci fəqərəsi [maddəsi] haqqında Hökuməti-Osmaniyyə gərək hali-hərbdə [müharibə şəraitində], gərək vəqti-sülhdə [sülh vaxtında] Boğaziçi və Çanaqqala boğazlarının bütün məmləkətlər sərbəstiyi-münaqilatına güşad [sərbəst gəliş-gedişinə açıq] bulundurulmasını və yalnız paytaxtın müdafiəsinə lüzumu olan tədbirlərin ittixaz edilə bilməsini [tədbirlərin görülməsini] təslim edir [qəbul edir].

Bu məsələnin təfərrüatı Hökuməti-Osmaniyyənin Sülh Konfransında dərmiyan edəcəyi [irəli sürəcəyi] məşru [qanuni] arzuların nəzəri-etibara alınması surətilə həll və təsviyə edilə [aradan qaldırıla] biləcəkdir.

Nüqati-ədidəni möhtəvi olan [bir çox nöqtələri özündə ehtiva edən] birinci fəqərəyə [maddəyə] gəlincə, Hökuməti-Osmaniyyə bu xüsusda məvaddi-atiyyəni [aşağıdakı maddələri] nəzəri-diqqətə ərz edir ki, bu məvadd [maddələr] Sülh Konqresinin ictimasında [yığıncağında] müzakirə, izah və itmam ediləcəkdir [tamamlanacaqdır].

Rəis Vilsonun prinsipləri nöqteyi-nəzərindən məmaliki-Osmaniyyə ərazisi iki böyük qismə təqsim edilə [bölünə] bilər: Birinci qisim Avropa və Asiyadakı türk vilayətləri, ikinci qisim ərəb vilayətləridir.

Fəqət türk vilayətləri içində Avropaca "erməni vilayətləri" namı altında yad edilən şərq vilayətləri mövcud olduğundan, bu vilayətləri də qisimlərə ayıraraq hər birini ayrı-ayrı tədqiq etmək münasibdir.

Birinci sinifə daxil olan vilayətlər şunlardır:

Avropada – əvvəla İstanbul vilayəti ki, paytaxt ilə bərabər Rumeli və Anadolu qəzalarını şamildir. Saniyən [ikinci], Ədirnə vilayəti ki, bunun əqsamından [hissələrindən] olan Qərbi Trakiya 1913 sənəsində Balkan hərbindən sonra Bolqarıstana ilhaq edilmişdir [birləşdirilmişdir].

Asiyada – Xüdavəndigar, Aydın, Kastamonu, Konya, Ankara, Adana, Hələb, Mosul, Trabzon vilayətləri ilə Əskişəhər, Antalya, Qeysəriyyə, Kütahya, İçəl, Nigdə, İzmit, Məntəşə, Bolu, Canik, Çatalca, Qarahisar, Qərəsi, Qələyi-Sultaniyyə, Urfa, Maraş livaları və Bozcaada, İmroz və Midilli və digər adalardır.

Yalnız bir qaç ada istisna edilərsə, bütün bu yerlərdə türk əhalinin əksəriyyəti-əziməni haiz bulunduğu [böyük əksəriyyətə malik olduğu] hərbdən əvvəl tənzim edilmiş olan rəsmi istatistiklərlə və vəqti-sülhdə məmləkəti tətəbbö etmiş [tədqiq etmiş, araşdırmış] olan əcnəbilərin nəşr etdikləri rəqəmlərlə sabitdir. Əzancümlə [o cümlədən], erməni məsələlərinə dair 1898 sənəsində Parisdə nəşr edilən "Sarı kitab"ın ikinci səhifəsində "müxtəlif ünsürlər surəti-əmiqədə [dərin surətdə] tədqiq edildiyi halda, ermənilərin heç bir vilayəti-Osmaniyyədə əksəriyyət təşkil etmədikləri görülür" demişdir.

Anadolu vilayətləri əhalisi rəsmi istatistiklərə görə, bərvəchiatidir [aşağıdakı kimidir]:

İslam 9.291.346, yüzdə 85.
Rum 1.144.612, yüzdə 9.
Erməni 542.575, yüzdə 5.
Musəvi və əcnəbi 93.364, yüzdə 1.

Fransa hökumətinin 1897 sənəsi "Sarı kitab"ında mündəric istatistikaları – ki, müsyö Vital Kinenin "Asiyayi-Osmani" ünvanlı əsərində mündəric rəqəmlərdən pək fərqli deyildir – əhalini bərvəchi-ati təqsim edir:

İslam 7.204.824, yüzdə 81,6.
Rum 912.458, yüzdə 10,3.
Erməni 443.713, yüzdə 5,3.
Musəvi və əcnəbi 261.331, yüzdə 2,8.

Bu rəqəmlər xristian patrikxanalarından verilən məlumata müstənid [istinad edir] və ənasiri-müslimə [müsəlman ünsürlər] haqqında mübaliğəli olmaqla bərabər, baliğdir [aşkardır] ki, heç bir söz əlavəsinə ehtiyac buraxmaz. Yalnız şu nöqtəni qeyd etmək lazımdır ki, İstanbul, Ədirnə, Aydın və Xüdavəndigar vilayətlərində bəzi yunan məhafili [dairələri] guya rum [yunan] əksəriyyəti mövcud olduğunu iddia etməkdə isələr də, buralarda dəxi türk və rum əhalisinin təqsimatı [paylanması] şu surətlədir:

Rəsmi istatistik:
İstanbul vilayəti və Çatalca sancağı:
İslam 580.482, yüzdə 59,7;
Rum 242.559, yüzdə 25.
Qərbi Trakiya daxil olduğu halda Ədirnə vilayəti:
İslam 722.862, yüzdə 62,6;
Rum 310.932, yüzdə 26,7.
Aydın vilayəti:
İslam 1.437.983, yüzdə 79;
Rum 319.020, yüzdə 18.
"Sarı kitab"dakı istatistik:
İstanbul və Ədirnə vilayətləri bu kitabda mündəric deyildir [dərc edilməmişdir].
Aydın vilayəti:
İslam 1.093.334, yüzdə 78,2;
Rum 208.283, yüzdə 19,9.
Xüdavəndigar vilayəti:
İslam 1.296.595, yüzdə 79,7;
Rum 23.711, yüzdə 14,1.

Bu vilayətlərin əsasən türk olduğu heç bir zaman şübhə götürmədiyi kimi, zatən şimdiyə qədər heç bir bitərəf kimsə böylə bir şeyi iddia etməmiş olduğundan, buralarda ancaq Vilson prinsipi tətbiq edilə bilər. Yəni, əqəliyyətlərə [azlıqlara] sərbəstiyi-inkişaf [sərbəst inkişaf etmək] haqqı bəxş edilməklə bərabər, dövləti-Osmaniyyənin hakimiyyəti-mütləqəsi altında bulunmaq lazım gəlir.

Hökuməti-Osmaniyyə şimdiyə qədər xristian əhalinin hürriyyət və məzhəb nöqteyi-nəzərindən inkişafını bir zaman mən [qadağan] etməmiş olduğunu isbata müqtədir bulunmaqla bərabər, müxtəlif məmləkətlərdəki əqəliyyətlərin sərbəstiyi-inkişafını təmin üçün Sülh Konqresincə ittixaz ediləcək müqərrəratı qəbula amadədir [veriləcək qərarları qəbul etməyə hazırdır].

Bu cəhət təəyyün etdikdən [aydınlaşdıqdan] sonra, bir az qarışıq olan vilayati-Şərqiyyə [Şərq vilayətləri] məsələsinə nəqli-kəlam edə biləriz [sözü gətirə bilərik]. Vilayati-Şərqiyyə Diyarbəkir, Məmurətüləziz, Van, Bitlis, Ərzurum, Sivas vilayətləridir. İstatistiklərə görə, buralarda türk və kürdlərdən mürəkkəb [ibarət] olan və yek-digəri [bir-biri] ilə müttəhid və mümtəzic [birgə və qarışıq, bir-biri ilə qaynayıb-qarışmış] bir halda yaşayan əhaliyi-islamiyyə əksəriyyəti-əziməni [böyük əksəriyyəti] təşkil etməkdədir.

Vilayati-sittənin rəsmi istatistiki:
İslam 3.040.891, yüzdə 79;
Erməni 636.306, yüzdə 16,5;
Mütəfərriq [digər; dağınıq halda olanlar] 162.352, yüzdə 4,5.
"Sarı kitab"dakı istatistik:
İslam 2.669.386, yüzdə 73,5;
Erməni 666.453, yüzdə 18,5;
Mütəfərriq 272.581, yüzdə 7,5.

Bəzi erməni məhafilində [dairələrində] Adana və Trabzon vilayətlərinin bəzi əqsamı [hissələri] haqqında dərmiyan edilən müddəiyyata [irəli sürülən iddialara] qarşı bu iki vilayətə mütəəlliq [aid] olan istatistikləri ayrıca göstəririz:

Rəsmi istatistik:
Trabzon vilayəti:
İslam 1.187.078, yüzdə 71;
Erməni 68.813, yüzdə 4,5.
Adana vilayəti:
İslam 443.937, yüzdə 85,9;
Erməni 58.067, yüzdə 11,2.
"Sarı kitab"dakı istatistik:
Trabzon vilayəti:
İslam 806.700, yüzdə 77;
Erməni 47.200, yüzdə 4,5.
Adana vilayəti:
İslam 234.450, yüzdə 58;
Erməni 97.450, yüzdə 24.

Əsasən, ən mötəbər ingilis ensiklopediyası olan "Ensiklopediya Britannika"nın 1910 sənəsində nəşr edilən 11-ci təbinin [nəşrinin] 564-cü səhifəsində ermənilərin ən lehində olan təxminlərə görə, "ermənilər 159 qəza içində yalnız 9 qəzada haizi-əksəriyyətdirlər [çoxluğa malikdirlər] ki, bunun 7-i Van və 2-i Muş qürbündədir [yaxınlığındadır]" demişdir.

Yenə bu əsərdə Ərzurum, Van, Bitlis, Məmurətüləziz, Diyarbəkir, Sivas, Hələb, Adana və Trabzon vilayətlərinin məcmu nüfusu [cəmi əhalisi] 6 milyon göstərilmişdir ki, bunun 913.875-i, yəni yüzdə 15-i erməni, 633.875-i, yəni yüzdə 11-i digər xristian, 4.453.250-i, yəni yüzdə 74-ü islamdırlar.

Ən ziyadə erməni nüfusu möhtəvi bulunan [ehtiva edən] beş vilayətdə də məcmu nüfus 2.642.000 olub, bunun 633.250-i, yəni yüzdə 24-ü erməni, 79.875-i, yəni yüzdə 7-i digər xristian, 1.828.887-i, yəni yüzdə 69-u islamdır.

Baladakı [yuxarıdakı] rəqəmlər vilayati-məzkurədə [deyilən vilayətlərdə] əksəriyyətin islam olduğu və ermənilərin hər yerdə ufaq əksəriyyət təşkil etdiklərini qayət bariz bir surətdə göstərir.

Hökuməti-Osmaniyyə vilayati-məzkurəyə veriləcək olan münasib şəkli-hökumət haqqındakı nöqteyi-nəzərini Etilaf düvəli-müəzzəməsinin [böyük Antanta dövlətlərinin] nəzəri-təqdirinə ərz etməzdən müqəddəm [əvvəl], bu həvalinin vəziyyəti-hazirəsi [bu ətrafların hazırkı vəziyyəti] haqqında nəzəri-diqqəti cəlb etmək lüzumunu hiss edir. Babıali bu vilayətlərdə təhəddüs edən vüquati-müəssifənin [meydana gələn təəssüf doğuran hadisələrin] təfərrüatına bu müxtirədə girişmək və yaxud iqayi-cinayat edən [cinayətlər işləyən] bəzi müsəlman məmurların dərəceyi-mücrimiyyətini təxfif etmək sədədində [təqsirlərinin dərəcəsini yüngülləşdirmək qəsdində] deyildir. Yalnız Etilaf düvəli-müəzzəməsinin nəzəri-ittilasına şu nöqtəni ərz və iblağ edir [nəzər-diqqətinə bu nöqtəni çatdırır; bu barədə məlumat verir] ki, vüquati-müəssifeyi-məzkurədə [deyilən təəssüflü hadisələrdə] gərək müsəlman məmurlara, gərək erməni komitələrinə təvəccöh edən [düşən] hisseyi-məsuliyyətin təyini zimnində [məsuliyyət payının təyini barədə] türk və erməni mürəxxəslərinin [nümayəndələrinin] müavinəti ilə tədqiqat icrasına məmur beynəlmiləl müxtəlit [qarışıq] bir komisyon təşkili üçün mürəxxəslər göndərmələrini İspaniya, İsveçrə, Danimarka, Flemenk [Niderland] və İsveç hökumətlərindən rica etmişdir.

Məmafih [bununla belə], məhakimi-aidəsi [aidiyyətli məhkəmələr] nəzdində əlyövm [hal-hazırda] haqlarında təqibat icra edilməkdə olan birinci sinif mücri-minin [günahkarların] dərəceyi-mücrimiyyətləri [təqsirlərinin dərəcəsi] hər nə olursa-olsun, hökuməti-Osmaniyyə bu gün bitərəf şahidlərin şəhadətləri ilə dəxi rus ərkan zabitanının [qərargah zabitlərinin] raporlarıyla təhəqqüq etmiş [aşkara çıxmış] olan bir həqiqətdən bəhs edə bilər ki, bu həqiqət erməni çətələrinin [silahlı dəstələrinin] təhcirdən [ermənilərin köçürülməsindən] əvvəl və bilxassə [xüsusilə] çar ordularının vilayati-şərqiyyəyə istilalarından sonra bir milyondan ziyadə müsəlmanı qətliam etmiş olmalarıdır.

Əhaliyi-islamiyyənin böyük bir qismi qətliamdan qurtulmaq üçün dağlara, yaxud vilayati-mütəcavireyi-Osmaniyyəyə [qonşu Osmanlı vilayətlərinə] ilticaya [sığınmağa] məcbur olmuşlar və əlan [hələ də] oralarda iqamət etməkdə [yaşamaqda] bulunmuşlardır. Məmləkət rus orduları və bilxassə erməni çətələri tərəfindən o dərəcəyə qədər düçari-təxribat olmuşdur ki, bu təxribatdan heç bir şəhər, qəryə [kənd] və qəsəbə xaric qalmamışdır. Bu babda tədqiqat icra edəcəklərdir.

İslam və erməni ənasiri [ünsürləri] haqqında balada [yuxarıda] göstərilən istatistik rəqəmləri və bəhs edilən əhval və vüquat müvacihəsində [qarşısında], vilayati-məzkurədə [deyilən vilayətlərdə] haqqaniyyətkaranə [ədalətli] bir vəziyyət ihdası [yaradılması] üçün ən münasib olan surəti-təsviyəni [çarəni, çıxış yolunu] bulmaq icab edir [lazımdır]. Bəzi erməni məhafilində [dairələrində] Qafqaziyadan Kilikiyaya qədər böyük bir Ermənistan təşkili təxəyyül edilməkdə isə də, böylə bir surəti-təsviyə bittəbii [təbii olaraq] qabili-təcviz [mümkün] deyildir. Çünki bu surətlə təşkil ediləcək olan "Böyük Ermənistan" Vilson prinsiplərinə müxalifdir. Beş milyon əhaliyi-islamiyyəni bir qaç yüz min erməninin ziri-hökmünə [hökmü altına] vermək nə Vilson prinsiplərinə, nə də heç bir qaideyi-haqq və ədalətə təvafüq edəmməyəcəyindən sərf-nəzər [uyğun gələ bilməyəcəyini nəzərə alaraq], böylə bir şey mütəvali iğtişaşata [arasıkəsilməz iğtişaşlara] və xunrizanə mücadilata [qanlı mücadilələrə] səbəbiyyət vermiş olar ki, düvəli-müəzzəmeyi-etilafiyyə [Antanta blokunun böyük dövlətləri] hissiyyati-insaniyyətkaranə saiqəsi ilə [insani hisslərini rəhbər tutaraq] vilayati-məzkurənin ümum əhalisi və bilxassə [xüsusən] erməni əqəliyyəti [azlığı] üçün bundan bittəbii ictinab etmək [çəkinmək] arzusundadırlar.

Böylə bir surəti-təsviyə ədalətə müğayir [zidd] və qeyri-qabili-tətbiq [həyata keçirilməsi imkansız] olduğundan, digər iki şiqq[i] [seçənəyi] təsəvvür etmək lazımdır.

Birinci şiqq - vilayati-məzkurəyə əhalinin əksəriyyəti-əziməsi türk və islam olmaq həsəbilə [səbəbilə] hakimiyyəti-Osmaniyyənin iqası [bərqərar olması] və əqəliyyətin hüquq və sərbəst inkişafının təmini. Bu surət qəbul edildiyi təqdirdə, bütün müsəlmanlar və ermənilər yenə yerli-yerinə iskan ediləcəklərdir [məskunlaşdırılacaqlar].

İkinci şiqq - Qafqaziyada təşəkkül edən Erməni Cümhuriyyətini tövsi ilə [genişləndirməklə], gərək hal-hazırda orada bulunan və gərək Zor sancağına təhcir edilmiş olan erməni mühacirlərini baliğən-mabələğ [artıqlaması ilə] iskana [məskunlaşdırmağa] kifayət edəcək dərəcədə ərazinin cümhuriyyəti-məzkurəyə [deyilən cümhuriyyətə] ilhaqı [birləşdirilməsi].

**◆ Biz qayıtdıq, Vətən!**

**Qoynunda dünyaya göz açdığın və illər uzunu yaşadığın yurddan bir günün, bir saatın içində didərgin düşməyin ağrısı dözülməz olur. Yəqin ki, dünyada bundan üzücü, ağrılı dərd yoxdur... 1993-cü ilin soyuq oktyabr günlərində erməni işğalçıları torpaqlarımızı ələ keçirəndən sonra ömrümüzün ağrı-acılarla dolu günləri başladı. Köçkünlük illərində bu dərdə dözməyənlər çox oldu. Neçə-neçə insan qaçqınlığın ağrılarına tab gətirməyərək doğma yurdun həsrətini çəkə-çəkə dünyadan köç etdi.**

**Erməni işğalından sonra köçkünlər nələr çəkdilər, nə zülmlər gördülər, İlahi! Bu insanların çəkdiyi əzab-əziyyəti dərindən ifadə etməyə heç sözün də gücü çatmaz. Yurdumuz ermənilər tərəfindən yağmalandıqdan sonra doğma ocaqlarımız gündüzlər fikrimizdən, gecələrsə yuxularımızdan çıxmadı. Həsrət odu ürəyimizi yandırdı, gözlərimizin yaşı heç vaxt qurumadı. El-obamızın həsrətini çəkə-çəkə hər gün o yerlərə dönmək ümidi ilə yaşadıq. Bir gün də olsun doğma ocaqlarımıza qayıdacağımıza olan inamımızı itirmədik.**

# "Salam, tut ağacım, məni tanıdınmı?.."





## "Gözlə bizi, tut ağacı, quruma, biz mütləq qayıdacağıq!"

Beş-altı ilin söhbətidir. İnternet vasitəsilə kəndimizə, evimizə baxa bildik. Gördüklərimizdən ürəyimiz alışıb yandı, qəlbimiz göyüm-göyüm göynədi. Aman Allah, ermənilər kəndimizi necə böyük vəhşiliklə dağıtmışdılar, necə barbarcasına viran qoymuşdular. Bu ağrılı mənzərələrə baxdıqca göz yaşları yanağımızı yandırırdı. Yurdumuzun bu üzücü, ürəkdağlayan görkəmi varlığımızı titrədirdi.




Kədər dolu baxışlarla kompüterin ekranından həyətimizə baxanda diqqətimizi balaca qaraltı cəlb etdi. Yadımıza düşdü ki, bu, həyətimizdəki tut ağacıdır...

Onu orta məktəbdə oxuduğumuz illərdə öz əllərimlə torpağa basdırmışdım. Deməli, tut ağacı uzun illərin susuzluğuna dözüb, qurumamışdı.

O anlarda keçirdiyim kövrək hissləri sözə çevirib tut ağacına ismarış kimi göndərərək dedim: "Gözlə bizi, tut ağacı! Günlərin birində mütləq qayıdacağıq! Nəyin bahasına olursa-olsun doğma ocaqlarımıza dönəcəyik! Biz ata-baba yurdumuzu, el-obalarımızı darmadağın edən, yurd yerlərimizi viran qoyan düşmənləri məhv edə-edə qayıdacağıq! Sənə söz veririk ki, biz mütləq qayıdacağıq!"

Heç bilmədik ki, tut ağacı səsimizi, ismarışımızı eşitdi, yoxsa yox?

İllər ötüb keçir, amma ürəkaçan dəyişiklik baş vermirdi. Qayıdış yollarına çökmüş qatı duman çəkilmirdi ki, çəkilmirdi. Bu yollara zəfərin, qələbənin işığı düşmürdü ki, düşmürdü. Doğma ocaqlarımızın həsrətini, ağrısını çəkə-çəkə yaşayırdıq.

2016-cı ilin Aprel döyüşlərində qəlbimizdə geriyə dönmək ümidinin qığılcımları sayrışdı, qayıdış yollarına zəif də olsa işıq düşdü. Dörd gün qanlı döyüşlər getdi. Azərbaycan Ordusunun zabit və əsgərlərinin bütün cəbhəboyu qəsbkarlara vurduqları sarsıdıcı zərbələr nəticəsində erməni işğalçıları 500-dən çox canlı qüvvə, xeyli sayda hərbi texnika itirdi. İllərdən bəri Ermənistan ordusunun "məğlubedilməz" olduğu haqqında dolaşan mif ayaqlar altında tapdalandı.

## Böyük həsrətlə gözlənilən gün

27 sentyabr 2020-ci ildə erməni təxribatı nəticəsində silahlar yenidən gurladı. Ermənilər mövqelərimizə hücum çəkdilər. Yurd qeyrəti çəkən oğullar döyüşə atıldılar. 44 gün davam edən İkinci Qarabağ müharibəsi ordumuzun qələbəsi ilə başa çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin sərkərdəliyi altında 30 ilə yaxın düşmən tapdağında qalan torpaqlarımız işğaldan azad olundu. Azərbaycan əsgərinin addım səsləri Qarabağda, Zəfərinin sədası isə onun başıqarlı dağlarında, geniş düzlərində əks-səda verdi.

Qoynunda dünyaya göz açdığım Zəngilan rayonunun Babaylı kəndi 21 oktyabr 2020-ci ildə işğaldan azad olundu. Yollara çökmüş qatı duman çəkildi. İllərdən bəri həsrəti ilə yaşadığım kəndimizə getməyə, doğma evimizi, həyətimizi, bir vaxtlar bu həyətdə əkdiyim, illərin susuzluğuna dözüb bizi gözləyən tut ağacını görməyə yolumuz açılmışdı. O günü, o anı həsrətlə gözləyirdik...

Kəndimizə getmək üçün sentyabr ayının əvvəllərində imkan yarandı. Uzun illərin ayrılığından sonra evimizə getməyimiz mənə xəyal kimi görünürdü. Amma bu, nə yuxu, nə də xəyal idi. Bu, reallıq idi. Azərbaycan Ordusu gücü və qüdrəti ilə 44 gün ərzində xəyalları gerçəkləşdirmişdi.

Mənzilbaşına tez çatmaq üçün yola səhər ertədən çıxmışdıq. Füzuli rayonunun Horadiz qəsəbəsini keçib üzü Cocuq Mərcanlıya tərəf gedirdik. Əvvəllər Füzuli istiqamətinə gedəndə yolumuz bu yaşayış məntəqəsində bitirdi. Artıq dörd ildən çoxdur yollarımız açılıb. Cəbrayıldan keçib Zəngilana gedirik...

Zəngilana, doğma yurdum Babaylıya yaxınlaşırıq. Uzaqdan kəndimizin uçurulub dağıdılmış evləri görünür. "Babaylı" sözü yazılmış lövhəni görəndə gözlərimiz doldu.

Bu, kədərdən deyil, sevincdən yoğrulmuş göz yaşlarıydı... Sevincdən ürəyimizin döyüntüsü nizamından çıxır. Heç düşünməzdim, deməli, insan bu qədər sevinə bilərmiş...

Kəndimizin adı yazılan lövhənin yaxınlığında ayaq saxlayırıq. Əyilib torpağı öpürük. Doğma yurdun hər daşının, hər qayasının, hər kiçik mənzərəsinin altında min-min xatirələrimiz yatır. Bir-birinə bənzəməyən dərələrimiz yenə də əvvəlki kimi möhtəşəm görünür. Torpağın doğma qoxusu ruhumuza sığal-tumar çəkir. Bu anlarda özümüzü dünyanın ən bəxtəvər insanı sanırıq.

Kəndimizin darmadağın edilmiş ürəkdağlayan mənzərələrinə, ot basmış məhəllələrinə baxa-baxa evimizin yaxınlığına gəlib çatırıq. Ermənilər bizim evimizi də uçurub-dağıdıblar.

31 il əvvəl axarlı-baxarlı kəndimizdə indi sükut hökm sürür...

Kövrələ-kövrələ, ayaqlarım titrəyə-titrəyə evimizə doğru addımlayanda ilk gözümə görünən bir vaxtlar əkdiyimiz tut ağacı və ona qısılmış nar ağacları oldu...

Tut ağacı 31 ilin susuzluğuna dözüb qurumamışdı...

Evimizdə, həyətimizdə gördüyüm dəhşətli mənzərədən gözüm dörd oldu. 1993-cü ilin payızında qaçqın düşəndə burada bir-birindən gözəl evlər, binalar qoyub getmişdik. O boyda evlərdən indi yarıya qədər uçurulmuş divarlardan başqa heç nə qalmayıb.

Addım-addım tut ağacına yaxınlaşıram. Əl uzadıb onun budağını astaca barmaqlarımın arasında sıxıram. Onun mənim üçün doğma olan yarpaqlarını qoxulayıram. 31 il əvvəlki qoxunu hiss edirəm. Heç nə dəyişilməyib.

Tut ağacı ilə salamlaşıram.

Diqqətlə baxanda görürəm ki, ermənilər işğal günlərində onun lap dibindən gövdəsini kəsiblər. Sonra ağac torpaqdan güc alaraq pöhrələyib, yenidən günəşə boylanıb. Düşmənin acığına bu dəfə lap sürətlə boy atıb.

Yanına çatan kimi ağacın yarpaqlarından, budaqlarından öpüb kövrək səslə pıçıldayıram:

"Salam, tut ağacım, biz gəlmişik!

Bizi tanıdınmı?

Sənə söz vermişdik ki, mütləq qayıdacağıq! Bilirik ki, arxada qalmış illərin sarsıntılar içində keçib. Evimizin, həyətimizin düşmənlər tərəfindən dağıdılmasına şahidlik etmisən.

İçin-için sızlamısan, ağlamısan. İşğalçılar görməsin deyə, göz yaşlarını ürəyinə axıtmısan. Sənə sığınan nar ağacları da axıtdığın göz yaşlarından su içib. Ona görə də qurumayıblar.

Yadına gəlirmi, biz sənin kölgəndə süfrə sərərdik, çörək yeyərdik. Rəhmətlik anam sənin qalın kölgəndə sac asar, çörək bişirərdi. Bişən çörəyin xoş ətri ətrafa yayılardı. Yarpaqlarının titrəməsindən hiss edirdik ki, çörəyin ətri, qoxusu sənə də çatır...

İndi sənin yarpaqlarını qoxuyanda anamım bişirdiyi çörəyin ətrini də duydum! Göz yaşları içində rəhmətlik anamı da xatırladım...

Ermənilər sənin ürəyini dağlayıb, qəlbini yandırıblar. Əgər dilin olsaydı, indi nələr danışardın, nələr!

Gözün aydın, gec də olsa, biz qayıtdıq! Qayıtdıq ki, ermənilərin xaraba qoyduqları yerləri abadlaşdıraq, torpaqlarımızın yarasına məlhəm qoyaq.

Gözün aydın, uzun çəkən həsrətə son qoyuldu, biz bundan sonra heç vaxt ayrılmayacağıq!"

Hava küləkli deyildi. Amma sözümüzü bitirəndən sonra ağacın yarpaqları həzin-həzin tərpəndi... Buna çox sevindik. Deməli, tut ağacı bizi tanımışdı...

## 31 ildən sonra atamın məzarını ziyarət etdim

Sonra əzizlərimizin məzarını ziyarət etmək üçün qəbiristanlığa getdik. Getdik ki, 31 ildən çox qəbirlərini görə bilmədiyimiz əzizlərimizin məzarları üstünə gül qoyaq, ruhlarına dualar oxuyaq...

Ot basmış çaylaqdan keçib yavaş-yavaş dərəyə qalxdıq. Qəbiristanlıqda gördüyümüz mənzərə ürəyimizi dağladı. Ermənilər buraları nə günə salıblar, qəbir daşları sınıq-sınıq olub.

Qəbiristanlığa ayaq qoyan kimi üzünü heç vaxt görmədiyim, səsini eşitmədiyim, nəfəsini duymadığım, böyüyəndə yalnız şəkillərinə baxdığım və həmişə "dədə" dediyim atamın qəbrini axtarıram.

Bir az ətrafa göz qoyandan sonra istiqaməti düz tutub getdim...

Baş-başa söykənmiş məzarların yanına çatıb ayaq saxladım. Bu, Azad əmimin, bu, Allahverdi əmimin, bu da Gövhər nənəmin məzarıdır. Sonra sağ tərəfə boylanıram...

Bax, bu da başdaşısı xına bağlamış atam Məmmədqulunun məzarıdır. Baş daşına yazılmış yazıları, rəhmətə getdiyi tarixi oxuyuram. Atamın ölüm tarixi ilə mənim doğum tariximiz eynidir.

Onun ölümündən bir ay sonra mən dünyaya göz açmışam...

Atamın doğum və ölüm tarixinə baxıram: 1899-1961. Nə az, nə çox, düz 62 il... 62 il sadə və şərəfli bir ömür sürüb atam... Görənlərin dediyinə görə, atam çox zəhmətkeş, mərd, mehriban bir insan olub. Ömür yolu Böyük Vətən müharibəsinin od-alovundan keçib. Stalinqrad uğrunda gedən döyüşlərdə iştirak edib. Hitlerçilərə qarşı cəsarətlə vuruşub. Təəssüflər olsun ki, döyüşlərin birində ağır yaralanıb. Bir müddət hospitalda müalicə olunub. Yarası ağır olduğuna görə, onu ordu sıralarından tərxis ediblər. Ömrü boyu bədənində düşmən qəlpəsi gəzdirib. Qəlpə bədənin elə bir hissəsində olub ki, həkimlər əməliyyat aparmağa risk etməyiblər. Böyük Vətən müharibəsində aldığı yaralardan da dünyasını dəyişib...

## "Oğlanlarından nigaran qalma, ata, biz sağ-salamatıq"

Atamızın məzarı önündə dayanıb, dərin sükuta dalıb, bir anlıq doğulduğum, yaşadığım ömür yollarımı xatırlayıram. Atamla müəyyən oxşarlığımızın olduğunu görürəm. Onun da ömür yolu müharibədən keçib, mənim də. O, Böyük Vətən müharibəsində iştirak edib, mən də Qarabağ müharibələrində. Doğrudan da, düz deyirmişlər, ataların yolu oğulların yoludur...



Dilimdən bu qəmli sözlər qopur: "Ata, artıq həsrətə, işğala son qoyulub. Torpaqlarımızı ermənilərdən təmizləmişik. Kəndimizə, el-obamıza qayıtmışıq. Bundan sonra əzizlərimizin məzarını tez-tez ziyarət edəcəyik".

Kövrələ-kövrələ deyirəm ki, ata, sənin ölümündən sonra anamız evimizin həm kişisi, həm də qadını olub. Min əzab-əziyyətə qatlaşaraq bizi - dörd oğul övladını, sənin yadigarlarını böyüdüb, tərbiyə verib, oxudub. Yetimçiliklə böyüsək də, heç kimdən geri qalmamışıq. Bir vaxtlar sən çəpərini çəkdiyin həyətimizdə rəhmətlik anam toyumuzu da edib. Amma illər sonra - 1993-cü ilin oktyabr ayında ermənilər kəndimizi işğal etdilər. 27 il evimiz, əzizlərimizin məzarları işğal altında qaldı. İndi doğma yurdumuza, Vətənə qayıtmışıq.

Sənin ölümündən illər sonra anam da bir yay günündə gözlərini əbədi olaraq yumdu. Qaçqınlıq, didərginlik məzarlarınızı da bir-birindən aralı saldı. Amma yəqin ki, ruhunuz bir yerdədir. Oğlanlarından nigaran qalma, ata. Şükür, biz hələlik hamımız sağ-salamatıq...

Bu sözlər dilimdən pıçıltı ilə qopandan sonra mənə elə gəldi ki, məzarın başdaşı yüngülcə tərpəndi. Bəlkə də, heç tərpənmədi, bu, mənə elə gəldi. İllərdən bəri ürəyimdə qubar bağlamış bu sözləri deyəndən sonra bir az yüngülləşdim, bir az rahatlandım...

Gözlərimin yaşını silə-silə qəbiristanlıqdan kəndə qayıdıb on il təhsil aldığım məktəbə getdim. İndi maşınla keçdiyim bu yolları 1968-ci ildən 1978-ci ilə qədər piyi-piyada məktəbə gedib gəlmişəm. Budur, yenə də həmin yollarla gedirəm. Amma yollar o yollar olsa da, nə illər o illərdi, nə də bu gediş o gedişdi. O illərin üstündən zamanın küləyi çoxdan əsib keçib. Bu illərdə həmişə irəli baxmışıq, daim sabahlara boylanmışıq...

## Düşmən tarixi abidələrimizdən oriyentir kimi istifadə edirmiş

Bir az kəndin aşağısına gedəndən sonra 10 il oxuduğumuz məktəbin yanına çatırıq. Məktəbimizin yerində indi heç nə qalmayıb. Ermənilər məktəbi darmadağın ediblər. Təhsil ocağı kubik daşlarından tikildiyinə görə işğalçılar hamısını söküb aparıblar. Yerində bir ədəd də olsun daş qalmayıb. Gördüyümüz dəhşət püskürən mənzərələrdən əlimiz üzümüzdə qalır. Bir vaxtlar burada məktəb olduğunu, yüzlərlə, minlərlə şagirdin oxuduğunu kimə desək, yəqin ki, inanmaz. Biz isə bir anlıq xəyala dalıb ötüb-keçənləri xatılayırıq.

Bir vaxtlar futbol, voleybol oynadığımız, biologiya, zoologiya dərsləri zamanı təcrübə keçdiyimiz "Müəllimlər bağı" adlandırılan ərazini kol-kos basıb. Yadıma gəlir ki, bağda daha çox meyvə ağacları var idi. Bağda oynamağa, təcrübə keçməyə gedəndə bu meyvələrdən doyunca yeyərdik. Həmişə səliqə-sahmanlı, bol meyvəli ağacları olan bağa indi ürəkağrısı ilə baxıram. İri budaqlarından tuta-tuta dırmaşdığımız, meyvəsini yediyimiz ağacları ermənilər dibindən baltalayıblar...

Ətrafda uçurulmayan yalnız məktəbin yaxınlığındakı qədimdən qədim olan abidə - "Məmmədbəyli türbəsi"dir. İşğal günlərində emənilər onu mərmi atəşinə tutmuş, bir böyrünü dağıtmışdılar. Məktəbimizin yaxınlığında olan bu abidəni biz o vaxtlar günbəz adlandırırdıq. Uzaqdan onu görəndə artıq məktəbə çatmağımıza az qaldığını müəyyənləşdirərdik. Ermənilər bir tərəfini mərmi ilə vurub dağıtsalar da, nədənsə onu tamamilə uçurmayıblar.



Abidənin yerində olduğunu görəndə çoxumuz buna heyrət etdik, gözlərimizə inanmadıq. Bir-birimizə üzümüzü tutub soruşduq ki, ermənilərdən çıxmayan iş, nə əcəb gümbəzi uçurmayıblar? Suala cavablar müxtəlif idi. Bizi xeyli düşündürən bu suala bir hərbi ekspertin yazısında cavab tapdıq. O qeyd edirdi ki, ermənilər istər Ağdamdakı məscidi, istər Zəngilandakı gümbəzi, istərsə də başqa yerlərdəki hündür olan tarixi abidələri növbəti döyüşlərdə oriyentir kimi, yəni hədəflərin səmtini müəyyənləşdirməkdən, dəqiqləşdirməkdən ötrü saxlayıblar...

## Tut ağacı ilə sağollaşdım

Hara, hansı səmtə baxırdıqsa, yalnız və yalnız erməni vəhşiliyinin qanlı izlərini görürdük. Bütün evlər hündür ağaclar kimi sanki kəsilib yerə sərilmişdi. Ətrafda ürəkaçan heç bir mənzərə görmürdük.

Təsəllimiz o idi ki, 30 ilə yaxın davam edən işğala son qoyulub. Biz yenidən doğma ocaqlarımıza qayıtmışıq. Qayıtmışıq ki, kənd-kəsəklərimizi yenidən quraq, evlərimizi yenidən tikək. İnanırıq ki, yaxın zamanlarda gündən-günə gücünü, qüdrətini artıran dövlətimiz dağıdılmış kəndlərin yerində yenisini salacaq, uçurulmuş evlərin yerində daha yaxşılarını tikəcək. Zaman keçdikcə həyat insanların üzünə güləcək. Üzümüz nə qədər gülsə də, erməni işğalını, erməni vandalizmini heç vaxt unutmayacağıq.

İllərdən bəri həsrəti ilə yanıb-yaxıldığımız və ılıq bir yay günündə ziyarətinə gəldiyimiz doğma ocaqlarımızdan xoş arzu və istəklərlə ayrıldıq.

Kənddən çıxmazdan əvvəl tut ağacı ilə sağollaşmaq üçün sanki dərsdən qayıdırmış kimi məktəbdən evimizə, həyətimizə döndüm. Üzümü yarpaqlarına söykəyib onu qoxulaya-qoxulaya astaca dedim: "Sağ ol, tut ağacı! Yaxın günlərdə yenə də görüşəcəyik. Artıq ayrılıq, həsrət bitdi".

Sözümü tamamladıqdan sonra yenə də tut ağacı yarpaqlarını həzin-həzin tərpədib sanki razılığını bildirdi.

"Tanrı bizi arzularımıza çatdırsın" dediyini duydum...

Mən də kövrək səslə "Amin" dedim...

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

*Bakı-Zəngilan-Bakı*

**Zəngilan, Babaylı, ata yurdum...**



Evin maketi



1978-ci il



2024-cü il

## *Aktotı RAİMKULOVA:*

## "Qarabağdakı abidələrin bərpası təkcə Azərbaycanın deyil, bütün türk dünyasının ortaq məsələsidir"

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən ümumtürk maddi və qeyri-maddi mədəni irs kataloqunun hazırlanması istiqamətində işlər görülür.



Türk dövlətləri başçılarının tapşırığına əsasən, görülən bu iş, sadəcə, ortaq mirasın siyahısının hazırlanmasından ibarət deyil. Kataloq daha geniş ictimaiyyətə çatdırılması məqsədilə kitab və rəqəmsal formatda yayımlanacaq. Bizi birləşdirən ortaq irsimizin tanıdılmasına dəstək olacaq bu fəaliyyət istiqamətində hər ölkənin tövsiyəsi ilə mötəbər elm xadimlərimizdən və mütəxəssislərimizdən ibarət xüsusi komissiya yaradılıb. Mütəxəssislərin köməyi ilə çox mühüm nümunələr seçilərək kataloqa daxil ediləcək. Bu abidələr arasında məhv olmaq təhlükəsi ilə üzləşən və ya artıq yox olanlar da var. Qarabağda da belə abidələrin sayı az deyil. Azərbaycan öz torpaqlarını işğaldan azad etdikdən sonra həmin yerlərdə genişmiqyaslı bərpa-yenidənqurma işlərinə başlayıb. Bu çərçivədə Qarabağdakı mədəniyyət abidələrinin də bərpasına başlanılıb. Təəssüf ki, 30 illik işğal dövründə Qarabağda baş verən hadisələr Azərbaycanın, o cümlədən bizim ortaq türk abidələrinin məhv və ya təhrif olunması ilə nəticələnib. Çox sayda tarixi-mədəni abidəmiz yox olmaq dərəcəsindədir. Qarabağın Azərbaycana aid olmasına baxmayaraq, o bölgədə dağıdılan bu abidələrin bərpası təkcə Azərbaycanın deyil, bütün türk dünyasının ortaq məsələsidir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Aktotı Raimkulova söyləyib.

Rəhbərlik etdiyi qurumun Azərbaycan Prezidenti İlham Əliyevin təşəbbüsü və Türkiyə, Qazaxıstan, Qırğızıstan dövlət başçılarının dəstəyi ilə yaradıldığını xatırladan A.Raimkulova deyib: "Hazırda dövlət başçılarının tapşırığına əsasən, fond türk dünyasının ortaq mədəni abidələrinin yenidən qurulması və bərpası işlərini aparır, UNESCO-nun çoxmillətli nominasiyalarına təqdim olunacaq layihələrə dəstək həyata keçirir. Görülən işlərə bu il Bakıda keçirilən Beynəlxalq Qurama Festivalını misal göstərmək olar. Festival Azərbaycanda altıncı dəfə keçirilsə də, bu il ilk dəfə beynəlxalq miqyasda təşkil edildi. Orada ən sevindirici məqam ortaq dilimizin bir daha təsdiqini tapması oldu. Biz "qurama" sözünün fərqli ifadəsinə baxmayaraq, bütün türk dillərində təxminən eyni şəkildə səsləndiyini gördük. Bununla yanaşı, türkdilli xalqların bərpaçıları tərəfindən festivalda nümayiş etdirilən sənət nümunələri bizə bir daha mədəniyyətimizin müxtəlif sahələrinin mühüm inkişaf yolu keçdiyini və ortaq dəyərlərə əsaslandığını göstərdi. UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyası bu təşkilata "qurama" nominasiyasını təqdim edib. Biz bu işi türk xalqlarının ortaq irsi, çoxmillətli nominasiyası istiqamətində aparırıq. Bütün bunlar görülən işlərin, sadəcə, bir nümunəsidir. Ortaq irsimizin dünyada tanıdılması istiqamətində filmlərin çəkilməsi, elmi-praktiki konfransların təşkili də nəzərdə tutulur".

Ümumiyyətlə, türklərə məxsus abidələrin dünyanın müxtəlif bölgələrindəki bənzərlərindən çox fərqləndiyini qeyd edən müsahibimiz sözlərinə belə davam edib: "Biz türklər yaradıcılıqda özümüzə xas üslub və materiallardan istifadə edirik. Bizim ortaq abidələrimiz təkcə suveren respublikalarımızın ərazisində deyil, demək olar bütün dünyada mövcuddur. Monqolustan, Suriya, İraq, Ermənistan və digər ölkələrin ərazisində çoxsaylı abidələrimiz var. Fond tərəfindən bununla bağlı olaraq normativ sənəd hazırlanır və bütün bu ölkələrə göndərilir. Bu sənəd əsasında təkcə türkdilli ölkələrin deyil, mədəni irsimizin yerləşdiyi hər ölkənin bizə dəstək verməsini gözləyirik. Məsələn, Monqolustan artıq türk mədəni irsinin qorunması istiqamətində bizimlə fəaliyyətə dəstək vermək istədiyini bildirib. Avropada da irsimizin çox sayda nümunəsi var. Bunlara Polşa, Bolqarıstan, Rumıniyadakı abidələrimizi misal çəkmək olar. Bu abidələrin mədəni irs siyahımıza daxil edilməsi və gələcək nəsillərə ötürülməsi üçün bərpaya ehtiyacı var. Məhz bu səbəbdən də qeyd etdiyim bu normativ sənəd olduqca vacibdir".

Həmsöhbətimiz fondun türk dünyası və türkdilli xalqların ortaq tarixi, dili, dini və mədəni irsinin dünyada tanıdılması baxımından olduqca vacib vəzifəni yerinə yetirdiyini vurğulayaraq qeyd edib: "Bundan 15 il əvvəl dövlət başçılarımız tərəfindən Naxçıvanda türkdilli ölkələrin ortaq qurumunun yaradılması istiqamətində imzalanan saziş çox uzaqgörən siyasətin nümunəsi idi. Artıq Türk Dövlətləri Təşkilatı adını alan bu qurum daxilində müxtəlif sahələrdə atılan addımlar ortaq gələcəyimiz üçün olduqca vacibdir. Fond tərəfindən aparılan bütün fəaliyyətlər bir daha onu sübut edir ki, müəyyən fərqliliklərə baxmayaraq, bizim Türk Dövlətləri Təşkilatına daxil olan ölkələrlə yanaşı, digər azsaylı türk xalqları ilə də mədəniyyətimiz, irsimiz, əcdadlarımız ortaqdır. Ən əsası isə odur ki, biz ortaq dildən istifadə edirik. Fikrimcə, bu, bizi birləşdirən başlıca məqamdır və perspektivlər baxımından olduqca vacibdir. Ortaq dəyərlərimizin qorunması istiqamətində görülən bütün bu işlər isə irsimiz qarşısındakı ən ali vəzifəmizdir".

# Səkkiz Azərbaycan vətəndaşı repatriasiya edilib

Azərbaycan Respublikası hökuməti tərəfindən görülmüş mərhələli və koordinasiyalı tədbirlər nəticəsində 2024-cü il sentyabrın 18-də Suriya Ərəb Respublikasından 6 nəfər, oktyabrın 7-də isə İraq Respublikasından 2 nəfər Azərbaycan vətəndaşının ölkəmizə repatriasiyası həyata keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, ilk növbədə repatriantların yeri, şəxsiyyəti və Azərbaycan Respublikası vətəndaşlığına mənsubiyyəti müəyyən edilib.

Suriya və İraqdan Azərbaycan vətəndaşlarının repatriasiyasına məsul olan müvafiq dövlət qurumlarının nümayəndələri Türkiyəyə və İraqa ezam edilib, repatriantların ilkin tibbi və psixoloji müayinəsinin həyata keçirilməsi təmin olunub.

Azərbaycan Respublikasının həmin ölkələrdəki diplomatik nümayəndəlikləri tərəfindən müvafiq əlaqələndirmə işi aparılmaqla vətəndaşlarımız Azərbaycana qayıdış şəhadətnamələri ilə təmin edilib və nümayəndə heyətinin müşayiəti əsasında qeyd olunan vətəndaşların ölkəmizə repatriasiyası həyata keçirilib.

Repatriantların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası istiqamətində müvafiq tədbirlərin həyata keçirilməsi nəzərdə tutulur.

Nazirlikdən o da bildirilib ki, Azərbaycan Respublikası hökuməti tərəfindən xarici ölkələrin ərazisində silahlı münaqişənin qurbanına çevrilmiş Azərbaycan vətəndaşlarının repatriasiyası üçün zəruri tədbirlərin görülməsi davam etdiriləcək.

# *"Unherd" portalı:* ABŞ hakimiyyətinin dünyadakı mövqeyi barədəki təsəvvürü yanlışdır

ABŞ-nin həyata keçirdiyi xarici siyasət, demək olar, iflasa uğrayıb. Son 25 il ərzində dünya ictimaiyyətində ABŞ-yə qarşı heç vaxt bu qədər nifrət yaranmamışdı. Cozef Bayden administrasiyası düşünülməmiş siyasət, düşmənçilik siyasəti yürüdür.

AZƏRTAC xəbər verir ki, bu fikirlər Böyük Britaniyada nəşr olunan "Unherd" saytının analitiki Tomas Fazinin "ABŞ hakimiyyətinin dünyadakı mövqeyi barədəki təsəvvürü yanlışdır" sərlövhəli məqaləsində yer alıb. Müəllif qeyd edir ki, rəsmi Vaşinqton dünyada ən qüdrətli və ən nüfuzlu dövlət olduğunu zənn edir. Lakin əsl həqiqətdə ABŞ dünyanın heç də ən nüfuzlu dövləti deyil. Məsələ ondan ibarətdir ki, ABŞ-nin Entoni Blinkenin rəhbərliyi altında həyata keçirdiyi xarici siyasəti iflasa uğrayıb.

İstər Ukraynada, istər Yaxın Şərqdə, istərsə də Tayvan məsələsində ABŞ administrasiyası nəinki problemlərin həllinə nail ola bilmədi, əksinə, onları daha da qızışdırdı və nəticədə bu gün davam edən qanlı toqquşmalar göz qabağındadır.

Analitik diqqətə çatdırır ki, Ukrayna problemində C. Baydenin tutduğu mövqe sülh danışıqlarını "dəfn etdi". Ağ ev administrasiyası Rusiya ilə Ukrayna arasındakı müharibəni dayandırmaq, problemin sülh yolu ilə həllinə çalışmaq əvəzinə, tərəf tutdu. Avropa İttifaqı Ukraynanı öz geosiyasi maraqları naminə istifadə etməyə başladı, nəticədə müharibə hələ də davam edir və sonu bilinmir.




Tomas Fazi məqaləsində ABŞ-nin Yaxın Şərqdə həyata keçirdiyi siyasətə də toxunaraq bildirir ki, Prezident C.Bayden seçkiqabağı çıxışlarında söz verdiyi kimi, İran ilə nüvə danışıqlarını bərpa etmədi və "yumşaq" siyasət əvəzinə, rəsmi Tehrana qarşı daha sərt tələblər irəli sürdü. ABŞ administrasiyasında yaxşı başa düşürdülər ki, bu sərt tələblər İran tərəfindən qəbul edilməyəcək və problem daha da dərinləşəcək.

ABŞ-nin Asiya və Sakit Okean regionundakı siyasəti də bərbad nəticələrə gətirib çıxardı. C. Bayden ABŞ-nin tarixi öhdəliyini - "Vahid Çin" prinsipini pozaraq regiona hərbi hissələr göndərməklə vəziyyəti gərginləşdirdi. Bundan başqa, Çinə qarşı "genişmiqyaslı iqtisadi müharibə" elan olundu ki, bu da əks effekt verdi.

Müəllif kinayə ilə bildirir ki, ABŞ administrasiyası özünü Hollivuda çəkilən fantastik filmlərin qəhrəmanı kimi təqdim edir. Ağ ev təlqin etməyə çalışır ki, o "pis oğlanlar"la mübarizə apararaq dünyanı xilas etmək işi ilə məşğuldur. Lakin əsl həqiqətdə ABŞ özü müharibənin astanasındadır.


OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

"AZƏRBAYCAN" *qəzetinə*

*2024-cü il üçün abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*



## Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyi "Vətən müharibəsi şəhidləri və əlilləri haqqında "Unudulmazlar" innovativ informasiya resursunun imkanlarının genişləndirilməsi", "Görmə imkanı məhdud olan şəxslər üçün innovativ təşəbbüslərin həyata keçirilməsi", "Görmə imkanları məhdud şəxslər (və ya uşaqlar) üçün müyəssər formatlı nəşrlərin hazırlanması", "Narkomaniyaya qarşı mübarizədə təbliğat kampaniyasının təşkili" adlı *müsabiqələr keçirir*

Müsabiqədə qeyri-hökumət təşkilatları, hüquqi və fiziki şəxslər iştirak edə bilərlər.

İştirak haqqı yoxdur. Maraqlanan təşkilatlar müsabiqənin Əsas şərtlər toplusunu və texniki tapşırığını əldə etmək üçün nazirliyin tabeliyində Sosial Xidmətlər Agentliyinə (Ünvan: Nərimanov rayonu, Ziya Bünyadov prospekti, 1965, "Çinar Park" biznes mərkəzi, bina 1) yazılı müraciət edə bilərlər.

Müsabiqədə iştirak edən təşkilatların təklifləri 21 oktyabr 2024-cü il saat 17:00-dan gec olmayaraq agentliyə təqdim edilməlidir. Gecikdirilmiş təkliflər qəbul olunmayacaqdır.

Müsabiqə 22 oktyabr 2024-cü il saat 11:00-da agentliyin inzibati binasında keçiriləcəkdir.

**Əlaqə telefonu: (012) 525-41-30 (daxili-5033)**

***Müsabiqə komissiyası***


# Vinir, breket, implant...

## Sağlamlıq, yoxsa gözəl təbəssüm üçün toxunuş?

İnsan orqanizmində daim qulluq tələb edən üzvlərdən biri də dişlərdir. Hazır qidaların qəbulu, çay, qəhvə, siqaret və spirtli içkilərdən istifadə, gigiyenik qaydalara riayət etməmə və genetik faktorlar dişlərin sıradan çıxmasının əsas səbəbləridir. Düzgün qidalanma dişlərin sağlamlığı ilə birbaşa əlaqəlidir. Belə olmadığı təqdirdə toxumalarda və dişlərdə xəstəliklər yaranır ki, bu da ciddi sağlamlıq problemlərinə gətirib çıxarır. Qeyri-sağlam dişlər xəstəliklərdən əlavə, xoşagəlməz görünüşə də malik olur. Bu isə insanların sosial, psixoloji və fizioloji cəhətdən həyat keyfiyyətinə mənfi təsir göstərir.



Sağlam, bəyaz dişlər və gözəl təbəssüm insanın harmonik görünüşünün əsas komponentlərindəndir. Son illər estetik stomatologiya diş həkimliyinin, demək olar ki, ən tələb olunan sahəsinə çevrilib. Müasir stomatologiya dişlərin bəyazlığının, fizioloji və estetik baxımdan qeyri-düzgün quruluşa malik olan strukturunun bərpa olunması və digər prosedurların həyata keçirilməsində geniş imkanlara malikdir.

### Vinirlərin istifadə müddəti 3-6 ildir

Dişlərin estetik görüntüsünü bərpa etmək üçün üstünlük verilən üsullardan biri vinirlərin tətbiqidir. Vinir üzlüklər çox nazik quruluşa malik olduqları və tərkibində metal olmadığı üçün işığı ötürə bilirlər. Bunun nəticəsində isə təbii diş görünüşü əldə olunur. Mövzu ilə bağlı qəzetimizə açıqlama verən həkim-stomatoloq Kəmalə Kamalovanın sözlərinə görə, müasir stomatologiyada kompozit və lamina vinirlərdən istifadə olunur: "Kompozit vinirlər plomblar vasitəsilə dişlərə estetik forma verir. Dişlər normadan qısa, ensiz olduqda bu vinirlərdən istifadə edilir. Lamina vinirlər isə nazik, lövhəşəkilli formada olur. Onlar ön dişlərə yapışdırılır. Əgər dişlərin sinirləri çıxarılıbsa, mina təbəqəsi zədələnibsə və ya köklərində kista varsa, bu zaman lamina vinirlərdən istifadə edilməməlidir. Çünki bu zaman həmin dişlərin canlılığı itdiyi üçün üzərlərində vinir təbəqəsi qalmır, tez qopur. Bu halda kompozit vinirlərə üstünlük verilir. Kompozitin laminadan fərqi müəyyən müddətdən sonra rənginin dəyişməsidir. Qəbul edilən qida və mayelərin rəngi bu vinirə daha tez hopur. Görüntü estetikasının itməsi pasiyentin narahatlığına səbəb olur".

Stomatoloq bildirib ki, vinirlərin istifadə müddəti 3-6 il olsa da, onların uzunömürlülüyü pasiyentin qidalanmasından, gigiyenik qaydalara riayət etməsindən çox asılıdır: "Bəzi pasiyentlərdə 6-7 il keçsə də, dişlər estetik görüntüsünü qoruyur. Bəzilərində isə hətta iki ildən sonra dişlərin rəngi saralır. Lamina vinirlərdə isə bu problem, ümumiyyətlə, olmur, qəbul edilən qidalar dişin minasına təsir etmir, rəngi hopturmur. Ona görə də insanlar daha çox lamina vinirlərə üstünlük verirlər. Vinirlərin baxımı da önəmlidir. Dişlər gündə iki dəfə fırçalanmalı, diş saplarından istifadə olunmalıdır. Hər 6 aydan bir mütəxəssis tərəfindən professional gigiyena tətbiq edilməlidir. Vinirlərdən sonra 3 gün həssaslıq dönəmi olur. Əgər həssaslığın müddəti uzanarsa, həkimə müraciət etmək lazımdır".

### 50-55 yaşlı pasiyentlərə də breket qoyulur

Diş əyriliklərinin müalicəsi zamanı yaşdan asılı olaraq, plastinka və ya breketlərdən istifadə olunur. Bu üsulla alt və üst dişlərin bir-biri ilə düzgün bağlanması, dişlərin estetik olaraq düzəldilməsi təmin edilir. Kəmalə Kamalova deyib ki, plastinkalar, adətən, süd dişləri olan uşaqlara qoyulur: "Azyaşlılarda ağız boşluğunda patologiya aşkar edildikdə plastinkalarla bunun qarşısı alınır, yaranmış problem bərpa edilir. Bütün dişlər daimidirsə, breketlərdən istifadə edilir. Dişlərin bərpası zamanı, əsasən, metal və keramik breketlərdən istifadə edilir. Fərq ondadır ki, keramik breketlər şəffaf olduğu üçün daha estetik görünür. Lakin metal breketlər daha effektivdir".

Həkimin sözlərinə görə, breketlər nə qədər erkən taxılsa, effektivliyi bir o qədər yaxşı olar: "14-15 yaşdan etibarən breket taxılır. Nəticənin tez görülməsi üçün bu yaş aralıqları ideal hesab edilir. Lakin onun yaşı yoxdur. Əgər ağız boşluğunda bütün dişlər yerindədirsə, 50-55 yaşlı pasiyentlərə də breket qoyulur. Lakin bu halda müalicənin müddəti uzanır. Tutaq ki, 18 yaşında breket qoyduğumuz pasiyentin müalicə müddəti 1,5 ildirsə, 55 yaşlı pasiyent breketdən 3 il istifadə etmək məcburiyyətində qala bilər. Breketlər xüsusi baxım tələb edir, özəl fırçaları olur. Breket istifadə edən insanlar sərt qidalardan çəkinməli, hər ay həkim qəbuluna gəlməlidirlər".

### Bioloji yaş 18 olmalıdır

Dental implantlar əskik olan dişlərin funksional və estetik bərpasını təmin etmək üçün çənə sümüyünə yeridilən süni dişlərdir. Onlar təbii dişlərdə olduğu kimi, rahat yeməyə, danışmağa və gülümsəməyə imkan verir. Kəmalə Kamalova qeyd edib ki, diş implantları cərrahi yolla çənə sümüyünün içərisinə yerləşdirilir və uzun illər davam edəcək şəkildə hazırlanır. İmplantlar populyarlaşmadan öncə ortopedik qapaqlardan və ya çıxmayan körpüvari protezlərdən istifadə edilirdi. Onların mənfi cəhəti isə o idi ki, bir dişi bərpa etmək üçün iki sağlam dişi yonmaq məcburiyyətində qalınırdı. Sağlam dişlər isə yonulduqda zəifləyir, ömrü qısalır və üstəlik, süni dişin öhdəliyini öz üzərinə götürürdü. İmplant üsulla isə süni diş digər dişləri zədələmədən taxılır.

Həkim qeyd edib ki, xüsusilə insulin iynəsindən istifadə edən şəkərli diabet və sümük xəstələrinə implant taxılması tövsiyə edilmir. Bəzi xəstəliklər zamanı isə qısamüddətli qadağalar olur. Məsələn, ürək əməliyyatı olunmuş xəstəyə 6 ay implant qoyula bilməz. Həmçinin daimi siqaret və spirtli içki istifadəçilərinə də implant məsləhət görülmür. Çünki bu halda implant qoyulsa belə, istifadəsi uzunmüddətli olmayacaq.

"18 yaşa kimi çənə sümüyü tam formalaşmadığı üçün implant qoyulmur. Pasiyentin bioloji yaşı ən az 18 olmalıdır. Bu rentgen vasitəsilə müəyyən edilir. Əldə olan qığırdaqların yetişib-yetişmədiyinə baxılır. Əl falanqasının arasındakı qığırdaqlar tam sümükləşməlidir. 70 yaşa kimi implant qoyula bilər. İmplant qoyulan hər kəs 6 aydan bir həkim nəzarəti ilə rentgen müayinəsi olunmalıdır", - deyə stomatoloq vurğulayıb.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

# Bakıda qazanxanada baş vermiş partlayışla bağlı araşdırma aparılır

Oktyabrın 7-də saat 13 radələrində paytaxtın Nizami rayonu, 8-ci Köndələn küçəsində yerləşən sexdə partlayış baş verməsi barədə Nizami Rayon Prokurorluğuna məlumat daxil olub.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ilkin araşdırma zamanı həmin ünvanda yerləşən sexin ərazisində, ümumi sahəsi təxminən 40 kvadratmetr olan qazanxanada yanğınla nəticələnməyən partlayışın baş verməsi nəticəsində 2 nəfərin xəsarət alması müəyyən olunub.

Faktla bağlı Nizami Rayon Prokurorluğunda araşdırma aparılır.

# Medianın İnkişafı Agentliyi "X" sosial şəbəkəsində dərc edilmiş saxta məlumatla bağlı açıqlama yayıb

Medianın İnkişafı Agentliyi "X" sosial şəbəkəsində dərc edilmiş saxta məlumatla bağlı açıqlama yayıb.

AZƏRTAC xəbər verir ki, açıqlamada deyilir: "X" sosial şəbəkəsində "@Dr.EliDavid" adlı hesab vasitəsilə Azərbaycan Respublikasının Rəhbərliyi adından saxta məlumat yayılmışdır.

Bununla əlaqədar olaraq, adıçəkilən sosial şəbəkə platformasına məlumatın saxta olduğu bildirilib və paylaşımın "X" sosial şəbəkə platforması tərəfindən operativ qaydada silinməsi təmin edilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin keçirilən bütün tədbir və görüşlərdəki çıxışlarının, səsləndirdiyi fikirlərin mətni Prezidentin rəsmi veb-saytı və sosial şəbəkə hesabları, həmçinin informasiya agentlikləri vasitəsilə yayımlanır".


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4165**
**Sifariş 2282**

**Qiyməti 60 qəpik**